Azərbaycan Turizm və Menecment Universitetinin

institusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının

# YEKUN HESABATI

2024-cü il

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Rəşad Rəhim oğlu Məhərrəmov – Azərbaycan Dövlət İqtisad Universiteti, "Karyera planlaşdırılması və inkişafı" kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru;

**Üzvlər:**

2. Vüqar Səttar oğlu Dərgahov – Bakı Dövlət Universiteti, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının baş müəllimi, coğrafiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
3. Olgun Ali Fuat oğlu Çiçek – Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Beynəlxalq Şəbəkəsi (INQAAHE), İdarə heyətinin üzvü, Menecment və turizm üzrə fəlsəfə doktoru;
4. Səbuhi Əlibaba oğlu Talıbov – Bakı Dövlət Universiteti, Tədrisin təşkil olunması və idarə olunması mərkəzinin Magistratura şöbəsinin müdiri, coğrafiya üzrə fəlsəfə doktoru;
5. Nəcəf Heydər oğlu Bədəlov – Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Basqal" İstirahət Kompleksi, direktor-şöbə müdiri, "Azerbaijan Hotel Association" İdarə Heyətinin üzvü;
6. Əddin İmaməddin oğlu Muştaqov – Azərbaycan Dövlət İqtisad Universiteti, Keyfiyyət təminatı şöbəsinin baş mütəxəssisi;
7. İmran Azər oğlu Bayramov – Bakı Dövlət Universiteti, Coğrafiya fakültəsi, magistrant.

**Mündəricat**

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar....................................................4**
**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri.............................5**
**1. STRATEJİ İNKİŞAF.................................................................................................5**
**2. KEYFİYYƏT TƏMİNATI...........................................................................................21**
**3. TƏLİM VƏ TƏDRİS..................................................................................................37**
**4. ELMİ TƏDQİQAT......................................................................................................78**
**5. İDARƏETMƏ SİSTEMİ.............................................................................................89**
**6. İNFRASTRUKTUR..................................................................................................106**
**7. BEYNƏLMİLƏLLƏŞMƏ .........................................................................................111**
**Komissiyanın istiqamətlər üzrə təhlili.....................................................................123**
**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri.......................134**
**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi......134**

## Giriş
## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Turizm və Menecment Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | AR Təhsil Nazirliyinin Akkreditasiya şurasının 22 dekabr 2017-ci il tarixli 448 nömrəli qərarı ilə 5 il müddətinə |
| Təhsil müəssisəsinin rəhbəri | İlham İsa oğlu Mədətov |
| Fakültələrin sayı | 3 |
| Kafedraların sayı | 8 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 11 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 9 (16)<br>MBA: 1 (4) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 16 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı: 2245<br>Bakalavriat: 1772<br>Magistratura: 426<br>Doktorantura: 44<br>Elmlər doktorluğu proqramı üzrə: 3 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 91 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 75 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@atmu.edu.az<br>(+99412) 564 42 33, 564 68 45<br>Fax: (+99412) 564 42 34 |
| Müəssisənin hüquqi ünvanı | Koroğlu Rəhimov küçəsi 822/23 |
| Müəssisənin faktiki ünvanı | Koroğlu Rəhimov küçəsi 822/23 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri

# 1. STRATEJİ İNKİŞAF

### 1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

ATMU-da qısa və ortamüddətli dövr üçün SİP mövcud olmasa da, uzunmüddətli dövr üçün SİP və onun icrasına yönəlmiş qısamüddətli dövrü əhatə edən illik Fəaliyyət Planları (FP)[1] mövcuddur. https://atmu.edu.az/az/inkishaf-strategiyasi

ATMU-da 2021-2025-ci illəri əhatə edəcək SİP-in hazırlanması istiqamətində tədbirlərin görülməsinə AR Dövlət Turizm Agentliyinin 01.03.2021-ci il tarixli məktubu ilə başlanılmışdır. Belə ki, ATMU Elmi Şurasının 30.04.2021-ci il tarixli iclasında “2021-2025-ci illər üzrə ATMU-nun strateji planının hazırlanması barədə müzakirə” məsələsinə baxılmış və “ATMU-nun 5 illik strateji planının hazırlanması məqsədilə müvafiq tərkibdə komissiyanın formalaşdırılması” haqqında qərar qəbul edilmişdir. Daha sonra SİP-in hazırlanması üçün universitet rəhbərliyinin 19.05.2021-ci il tarixli, 113 nömrəli əmri ilə komissiya və komissiyanın işinin faydalılığının artırılması, təkliflərin toplanması və ilkin təhlilinin aparılması, müvafiq istiqamətlər üzrə hədəflərin və indikatorların müəyyənləşdirilməsi məqsədi ilə müxtəlif bölmələr üzrə işçi qrupları formalaşdırılmışdır.

SİP-in hazırlanması istiqamətində komissiyanın 14.06.2021-ci il və 07.09.2021-ci il tarixlərində iclasları təşkil olunmasına baxmayaraq 2021-2025-ci illər üzrə SİP təsdiq edilməmişdir. Daha sonra proses davam etdirilmiş və ATMU Elmi Şurasının 15.07.2022-ci il tarixli iclasının 07 saylı protokolu ilə ATMU-nun 2022-2026-cı illər üçün Strategiyası təsdiq edilmişdir. https://atmu.edu.az/upload/files/2023/12/08//-d17e6bcb170203423722585387010554282.pdf

ATMU-nun strateji sənədində 12 Məqsəd üzrə 75 adda qeyd olunan prioritetlərində (strategiyalar) və uğur göstəricilərində ortaya çıxan müvafiq çatışmazlıqlar əsasında hazırlanmış tövsiyələrlə **Cədvəl 1.1-də** tanış olmaq mümkündür.

| MƏQSƏD | TÖVSİYƏLƏR |
|---|---|
| **Bütün məqsədlər üzrə** | • Prioritetlərə uyğun uğur göstəricilərin əlavə edilməsi;<br>• Uğur göstəricilərinin prioritetlərə uyğun sıralanması, nömrələnməsi və ölçüləbilən formada qeyd olunması. |
| 1. ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi | • 1.6-cı prioritetin daha sadə və başadüşülən formada yazılması;<br>• 1.7-ci prioritetin 1.3-cü prioritetin alt ünsürü olduğu üçün ya 1.3-ün alt ünsürü saxlanılmalı, ya da tamamilə çıxarılmalıdır. |
| 2. Yüksək kvalifikasiyalı kadr potensialının | • 2.4-cü prioritetdə mörtərizədə qeyd olunanların başqa prioritet kimi qeyd edilməsi və ya Məqsəd 6-ya keçirilməsi; |

[1] FP-lərlə bağlı ətraflı məlumat 1.1.6-cı indikatorda verilmişdir.

| | |
|---|---|
| formalaşdırılması | • 2.7-ci prioritetin qısa müddət ərzində həll oluna bilən məsələ olduğunu nəzərə alaraq, SİP-dən çıxarılması və FP-də uyğun prioritetdə görüləcək tədbir kimi qeyd olunması. |
| 3. Təhsilin məzmununun müasirləşdirilməsi | • 3.6, 3.8 və 3.9-cü prioritetlərlə bağlı uğur göstərici kimi statistik dinamikaya xidmət edən göstəricilərin qeyd olunması. |
| 4. Tələbələrin təhsil aldıqları ixtisas proqramı üzrə mənimsəmə səviyyəsinin yüksəldilməsi | • 4.3 və 4.4-cü prioritetlərin eynilik təşkil etdiyi və 4.2-ci prioritetin icrası istiqamətində görüləcək tədbirlər olduğu üçün çıxarılması (uğur göstəricisi kimi formalaşdırıla bilər);<br>• 4.1-ci prioritetlə bağlı statistik dinamikaya xidmət edən “müvafiq bal aralığında ATMU-nu seçən abituriyentlərin statistikası” adlı uğur göstəricisinin qeyd olunması;<br>• “Məzunların məşğulluq səviyyəsi” adlı uğur göstəricisinin daha uyğun olan Məqsəd 3-ə keçirilməsi. |
| 5. Zəruri maddi-texniki bazanın və infrastrukturun yaradılması | • 5.3-cü prioritetlə bağlı statistik dinamikaya xidmət edən uğur göstəricisinin (Yataqxana ilə təmin edilən tələbələrin illər üzrə yerləşdirilmə dinamikası) qeyd olunması. |
| 6. Elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi | • “Elmi dərəcəsi və elmi adı olan heyət üzvlərinin sayı” adlı uğur göstəricisinə uyğun prioritetin (2.4-cü prioritetdə mörtərizədə qeyd olunan məlumat) əlavə edilməsi;<br>• Özünütəhlil Hesabatında 1.1.9-cu indikatorda SİP-in icrası üzrə 2023-cü il üçün təsdiqlənmiş FP-də 6.9 kimi qeyd edilən “Antiplagiat və akademik dürüstlük siyasətinin formalaşdırılması” adlı prioritetin SİP-də öz əksini tapmadığı üçün Məqsəd 6-ya prioritet kimi əlavə edilməsi. |
| 7. Rəqəmsal transformasiya | • 7.1-ci prioritetin 7 alt ünsürü ilə bağlı 2024-cü ilin FP-də 1 adda tədbir nəzərdə tutulduğu üçün həmin prioritet üzrə görüləcək tədbirlərin sürətləndirilməsi. |
| 8. Ali təhsilin beynəlmiləlləşməsi | • Məqsəd 3-də qeyd olunan prioritetlərin əksəriyyəti 8.1-ci prioriteti özündə ehtiva etdiyi üçün həmin prioritetin çıxarılması;<br>• 8.2-ci prioritetin 8.12-ci prioritetin tərkib hissəsi olduğu üçün çıxarılması. |
| 9. Ömürboyu təhsil prinsipi əsasında Universitetin təhsil xidmətlərinin diversifikasiyası | • “Universitetdə təhsil alan əcnəbi tələbə sayı” adlı uğur göstəricisinin müvafiq məqsədə uyğun olmadığı və daha çox Məqsəd 8-ə uyğun olduğu üçün çıxarılması. |
| 10. Uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi | • Prioritetlərə uyğun uğur göstəricilərinin əlavə edilməsi;<br>• Uğur göstəricilərinin prioritetlərə uyğun sıralanması, nömrələnməsi və ölçüləbilən formada qeyd olunması. |
| 11. Universitetin ortaq vizyona və dəyərlərə əsaslanan brendinin yaradılması | |

| | |
|---|---|
| 12. Maraqlı tərəflərlə məhsuldar əməkdaşlıqların qurulması | • 12.1-ci prioritetin ilk ünsürünün FP-lərdə yer almadığı və bu istiqamətdə müvafiq tədbirlərin görüldüyü üçün həmin hissənin 12.1-dən çıxarılması. |

**Cədvəl 1.1 ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasındakı 12 Məqsəd üzrə tövsiyələr**

Yuxarıda qeyd olunanları və həmçinin aşağıda müvafiq indikatorlarda həm missiya, həm də strateji baxışla əlaqədar müvafiq tövsiyələri nəzərə alaraq, ATMU-nun 2022-2026-cı illər üçün Strategiyası bazasında 2025-2030-cu illər üzrə yeni SİP-in formalaşdırılması məqsədəuyğun hesab edilir.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ATMU-nun SİP-də müəyyən edilmiş "ATMU-nu beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevirmək" missiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.08.2022-ci il tarixli 291 nömrəli Qərarı ilə təsdiq edilmiş ATMU Nizamnaməsinin 2.1-ci bəndində "bakalavriat səviyyəsi üzrə genişprofilli ali təhsilli mütəxəssislərin hazırlanması", "magistratura səviyyəsi üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi", "doktorantura səviyyəsində yüksəkixtisaslı elmi kadrların hazırlanması" kimi qeyd olunan fəaliyyət istiqamətləri ilə uyğunluq təşkil edir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

Azərbaycan Respublikası Prezidentinin 02.02.2021-ci il tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı strateji sənəddə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılması nəzərdə tutulan beş Milli Prioritet (1 – dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; 2 – dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3 – rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4 – işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; 5 – təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi) öz əksini tapmışdır.

ATMU-nun Özünütəhlil Hesabatında (ÖH) aşağıda qeyd etdiyi strateji baxışların ölkənin 5 Milli Prioritetinə qismən uyğun olduğunu görmək olar:

- ATMU-nun beynəlxalq səviyyədə rəqabət qabiliyyətli ali təhsil müəssisəsinə çevrilməsi, xüsusilə turizm və menecment sahəsində təhsil, təlim və araşdırma üzrə regionumuzun və dünyanın qabaqcıl ali təhsil müəssisələri arasında yer tutması, ölkəmizin milli dəyərlərə malik və beynəlxalq standartlara cavab verən kadr potensialının mütəmadi gücləndirilməsi prosesinə töhfə verməsi;
- Bu məqsədlərə nail olunması üçün mütəmadi olaraq ATMU-nun maddi-texniki bazanın

təkmilləşdirilməsi, mövcud əməkdaşların bilik və bacarıqlarının yüksəldilməsi, eləcə də heyətdə təhsil və araşdırma sahəsində mütərəqqi beynəlxalq təcrübəyə malik mütəxəssislərin artırılması və beynəlxalq əməkdaşlığın fasiləsiz olaraq genişləndirilməsi.

Ümumiyyətlə, qabaqcıl universitetlərin vizyonuna baxdıqda bir cümlə ilə qısa şəkildə qeyd olunduğunu və daha sonra vizyondan ayrı şəkildə onun əsas elementlərin vurğulandığını görürük.

Yuxarıda qeyd olunanları - “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı strateji sənədi, yerli və beynəlxalq ATM-lərin təcrübəsini nəzərə alaraq, sadə, anlaşılan və beş Milli Prioriteti özündə ehtiva edən yeni strateji baxışın formalaşdırılması məqsədəuyğun hesab edilir.

Bundan əlavə olaraq, ölkənin inkişaf istiqamətlərinə uyğun olaraq ATMU-da hotel sənayesi nümayəndələri arasında təşkil olunan fokus qrup görüşləri müsbət hal kimi qeyd etmək olar ki, həmin görüşlərin də əsas məqsədi sənaye ilə əməkdaşlıqdan yararlanaraq rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi məqsədilə hotel sənayesi tələbatının araşdırılması və məzunlardan olan gözləntilərin müəyyən edilməsidir. Belə ki, 14-15 aprel 2022-ci il tarixlərində ATMU və 17 otelin təmsilçiləri arasında fokus qruplar təşkil olunmuş və ATM-lər tərəfindən turizm ixtisaslı kadrların hazırlanması işində daha səmərəli fəaliyyətin icrasını təmin etmək məqsədilə hotelçilərin təklifləri əsasında 15-dən çox nəticə əldə olunmuşdur. Bununla bağlı Keyfiyyət təminatı şöbəsi tərəfindən 06.09.2022-ci il tarixli hesabat hazırlansa da, həmin hesabatda qeyd olunan nəticələrin ATMU Elmi Şurasında heç bir müzakirəsi aparılmamışdır.

Qeyd olunanları nəzərə alaraq, gələcəkdə müvafiq ixtisas(lar)ın tədrisi aparılan digər ATM-ləri və daha çox sənaye nümayəndələrini dəvət etməklə fokus qrupların əhatə və təsir dairəsinin genişləndirilməsi, görüşlərin nəticələrinə uyğun olaraq Elmi Şurada müzakirələrin aparılması və əsas məqsədə xidmət edən qərarların qəbulu məqsədəuyğun hesab edilir.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

ÖH-də də qeyd olunduğu kimi, ATMU-nun fəaliyyəti onun Nizamnaməsi ilə tənzimlənir və Universitetin bütün fəaliyyət istiqamətlərində, o cümlədən SİP-in qurulmasında Nizamnamədəki müvafiq vəzifə və istiqamətlər nəzərə alınmışdır.

| Hədəf | Məqsəd | Prioritet istiqamətlərin sayı |
|---|---|---|
| Missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri | 1. ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi | 7 |
| | 2. Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması | 7 |
| | 3. Təhsilin məzmununun müasirləşdirilməsi | 9 |
| | 4. Tələbələrin təhsil aldıqları ixtisas proqramı üzrə mənimsəmə səviyyəsinin yüksəldilməsi | 7 |
| | 5. Zəruri maddi-texniki bazanın və infrastrukturun yaradılması | 5 |
| | 6. Elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi | 9 |
| | 7. Rəqəmsal transformasiya | 2 |

| | | |
|---|---|---|
| aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq | 8. Ali təhsilin beynəlmiləlləşməsi | 13 |
| | 9. Ömürboyu təhsil prinsipi əsasında Universitetin təhsil xidmətlərinin diversifikasiyası | 5 |
| | 10. Uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi | 6 |
| | 11. Universitetin ortaq vizyona və dəyərlərə əsaslanan brendinin yaradılması | 3 |
| | 12. Maraqlı tərəflərlə məhsuldar əməkdaşlıqların qurulması | 2 |

**Cədvəl 1.2 SİP-də 12 Məqsəd üzrə 75 Strategiyanın (Prioritetlər) paylanılması vəziyyəti**

Belə ki, SİP-də qeyd olunan məsələ ATMU-nun Nizamnaməsindəki vəzifə və fəaliyyət istiqamətlərini özündə ehtiva edən 12 Məqsəd və 75 Strategiya (Prioritetlər) şəklində **Cədvəl 1.2-də** olan məlumatlarda öz əksini tapmışdır.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

ÖH-də də qeyd olunur ki, ATMU-nun 2022-2026-cı illəri əhatə edən SİP-də universitetin əsas strateji inkişaf istiqaməti "beynəlxalq səviyyədə rəqabət qabiliyyətli ali təhsil müəssisəsinə çevrilmək"dir. Bu məqsədinə nail olunmaq üçün ATM 12 məqsəd müəyyənləşdirmişdir (**Şəkil 1.1**).




**Şəkil 1.1 ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasında qeyd olunmuş 12 Məqsəd**

ATMU yuxarıda qeyd olunan əsas strateji istiqamətinə nail olmaq üçün şəkildə də öz əksini tapan *"Ali təhsilin beynəlmiləlləşməsi", "Rəqəmsal transformasiya"* və *"Təhsilin məzmununun müasirləşdirilməsi"* kimi 12 Məqsəd müəyyənləşdirmişdir.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasının icrası ilə bağlı 2023-cü il üzrə 14.09.2023-cü il tarixində, 2024-cü il üzrə isə 29.12.2023-cü il tarixində təsdiq edilmiş Fəaliyyət Planlarında (FP) SİP-də müəyyən edilmiş məqsəd və strategiyalar (prioritetlər) üzrə qısamüddətli dövr ərzində görüləcək tədbirlər əks olunmuşdur. Hər iki FP təhlil edilərkən bəzi nüanslar meydana çıxmışdır ki, bütövlükdə həmin nüanslar və onlara uyğun təkmilləşdirici tədbirlərlə bağlı məlumatı **Cədvəl 1.3-də** görmək mümkündür.

| **SİP-in icrası ilə bağlı 2023 və 2024-cü illər Fəaliyyət Planlarının təhlili nəticəsində meydana çıxan nüanslar və onlara uyğun təkmilləşdirici tədbirlər haqqında** | |
|---|---|
| **Nüans** | 1. 2024-cü il üzrə FP-lərin tərtib edilməsi zamanı tədbirlərin SİP-dəki “strategiyalar” (prioritetlər) və onların alt ünsürlərinə uyğun olaraq düzgün sıralanmamışdır (SİP-də 3.5; 3.6; 6.7; 6.9; 12.1.2-12.1.4; 6.9; analoji olaraq FP-də 3.4; 3.5; 6.6; 6.10; 12.1.1-12.1.3; 6.10;) |
| ***Tədbir*** | *1a. Qeyd olunan nüansların SİP və FP-nin əlaqələndirilməsi zamanı nəzərə alınması;*<br>*1b. SİP ilə FP arasında əlaqənin asanlıqla başa düşülməsinin təmin edilməsi üçün SİP-dəki strategiyaların (prioritetlər) FP-də qeyd olunduğu kimi “məqsəd” lərə uyğun nömrələnməsi.* |
| **Nüans** | 2. Digər bir məsələ isə SİP-dəki məqsədlər üzrə qeyd olunan "uğur göstəriciləri" ilə FP-dəkı "nəticə göstəriciləri" arasındakı əlaqənin düzgün qurulmamasıdır. FP sənədi SİP-in bir parçası olduğu üçün FP-dəkı "nəticə göstəriciləri" də SİP-dəki "uğur göstəriciləri" ilə əlaqəliliyi qurulmalıdır. |
| ***Tədbir*** | *SİP-dəki “uğur göstəriciləri” ilə FP-dəki “nəticə göstəriciləri” arasındakı əlaqənin optimallaşdırılması* |
| **Nüans** | 3. ATM üçün prioritet məsələlər olmasına baxmayaraq, SİP-dəki 3.9 və 4.1-ci “strategiyalar” (prioritetlər) 2023 və 2024-cü illər üzrə hazırlanmış FP-də öz əksini tapmamışdır. Bu da FP yazılarkən strateji istiqamətlər üzrə prioritetliyin müəyyənləşdirilməsi ilə bağlı icra mexanizmin olmamasından qaynaqlanır. |
| ***Tədbir*** | *ATMU-nun prioritet məsələlərinin nəzərə alınaraq SİP-in icrası üzrə illik FP hazırlanarkən “strategiyalar”ın (prioritetlər) FP-yə əlavə edilməsi prosesi ilə bağlı icra mexanizmin formalaşdırılması* |
| **Nüans** | 4. FP-nin tərtibində tədbirlərin icra müddəti kimi başlanğıc və son tarixin olmamasının SİP-in icrası üzrə dövrü monitorinqin və struktur bölmələrin dövrü hesabatların tərtib edilməsi ilə bağlı çətinliklər yaradır. |
| ***Tədbir*** | ● *SİP-in icrası ilə bağlı FP-də icra müddətləri müəyyənləşdirilməsi prosesində prioritetlər üzrə icrası nəzərdə tutulan 4.2; 4.7; 5.3; 5.5; 6.8; 8.2; 8.4; 8.11; 9.1 və 11.2 kimi tədbirlərin spesifikliyinin, professor-müəllim və inzibati heyətin məzuniyyət qrafikinin və təhsilalanların tətil günlərinin nəzərə alınması;* |

| | |
|---|---|
| | ● *SİP-in icrasına dair FP-də tədbirlər üzrə icraçı və həmicraçıların müəyyənləşdirilərkən nəticəyönümlülük və hesabatlılığın təmin olunması məqsədilə struktur bölmələrin iş yükünün proporsionallığının nəzərə alınması.* |
| **Nüans** | 5. FP-lərlə tanış olduqda 12.1 və 12.2-ci prioritetlərlə bağlı nəzərdə tutulan tədbirlərin ardıcılığı pozulduğu, "nəticə göstəriciləri"nin tədbirə uyğun olmadığı və 2023-cü il üzrə FP-nin illik hesabatında 12.1.1; 12.1.2 və 12.2.2-ci tədbirlərin icra statusunun "Qismən" olmasına baxmayaraq 2024-cü il üzrə FP-də nəzərə alınmadığı məlum olmuşdur. |
| ***Tədbir*** | *SİP-in icrası ilə bağlı 2023-cü il üzrə FP-dəki 12.1.2-ci tədbirin 2 və 3-cü "nəticə göstəriciləri"nin müvafiq tədbirə uyğun olmadığını nəzərə alaraq, 2024-cü il üzrə FP-dəki daha uyğun 12.1.3-cü tədbirin "nəticə göstəricilıəi"nə əlavə edilməsi* |

**Cədvəl 1.3 Fəaliyyət Planlarının təhlili nəticəsində meydana çıxan nüanslar və onlara uyğun təkmilləşdirici tədbirlər**

Bununla yanaşı, ÖH-də *".... cari[2] tədris ilindən etibarən hər bir strukturun iş planında* ***"strategiyanın icrasına dair"*** *hissə müəyyənləşdirilmişdir"* qeyd olunmuş və struktur bölmələrin iş planları təqvim ilinə görə deyil, tədris ilinə görə təsdiq edilmişdir. SİP-in icrası ilə bağlı FP-lərin təqvim ilinə görə təsdiq edilməsi və SİP-in icrası ilə bağlı ortamüddətli dövr ərzində görüləcək tədbirlər əks olunan FP olmadığı üçün struktur bölmələr iş planları hazırlayarkən tədris ilinin II semestri üçün **"strategiyanın icrasına dair"** hissəsinə hər hansı tədbir əlavə edə bilmir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, SİP-in icrası ilə bağlı FP-lərlə struktur bölmələrin iş planları arasında əlaqənin optimallaşdırılması məqsədilə SİP-də müəyyən edilmiş əsas strateji məqsədlər üzrə ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunduğu Fəaliyyət Planının hazırlanması məqsədəuyğun hesab edilir.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

2022-2026-cı illəri əhatə edən SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəriciləri kimi SİP sənədində 39 adda "uğur göstəriciləri" və SİP-in icrası üzrə illik FP-lərdə isə 79 adda "nəticə göstəriciləri" müəyyən edilmişdir.

SİP-dəki "uğur göstəricələri" və 2024-cü il üzrə FP-də "nəticə göstəriciləri"nin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə bölgüsü ilə aşağıdakı qrafik məlumatlarından tanış olmaq olar (**Qarfik 1.1, Qrafik 1.2**).

---

[2] 2023/2024-cü tədris ili nəzərdə tutulur.




**Qrafik 1.1 SİP-dəki “uğur göstəricələri”nin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə bölgüsü**

Qrafik məlumatlarından da göründüyü kimi 39 adda “Uğur göstəricisinin” 46.2%-i, yəni 18-i kəmiyyət göstəricisi, 53.8%-i, yəni 21-i isə keyfiyyət göstəricisidir.




**Qrafik 1.2. SİP-in icrası ilə bağlı 2024-cü il üzrə FP-də “nəticə göstəriciləri”nin kəmiyyət (tam və natamam[3]) və keyfiyyət göstəriciləri üzrə bölgüsü**

Qrafik məlumatlarından da göründüyü kimi 2024-cü il üzrə FP-də qeyd olunan 79 adda “nəticə göstəriciləri”nin 57%-i, yəni 45-i keyfiyyət göstəricisi olduğu halda, 16 (tam) və 18 (natamam) olmaqla 43%-i isə kəmiyyət göstəriciləridir.

Natamam kəmiyyət göstəriciləri dedikdə müvafiq tədbirlər üzrə aşağıdakı formada yazılan “nəticə göstəriciləri” nəzərdə tutulur:

✓ 4.4.2-ci tədbir – “Tələbələrin akademik nailiyyətlərində **artım**”

[3] Natamam kəmiyyət göstəriciləri olaraq 2024-cü il üzrə FP-də 4.4.2; 4.7.2; 6.8.3; 12.2.3-cü tədbirlərin “nəticə göstəriciləri” hissəsində müvafiq formada yazılan göstəricilər nəzərdə tutulur.

- ✓ 4.7.2-ci tədbir – “Psixoloji dəstək xidmətindən yararlanmış tələbələrin **sayı**”
- ✓ 6.8.3-cü tədbir – “Məqalələrin **sayının artması**”
- ✓ 12.2.3-cü tədbir – “İşlə təmin olunmuş məzunların **sayında artım**”

Ümumilikdə FP yuxarıda qeyd olunan tədbirlər və bu qəbildən olan digər tədbirlər üzrə ölçüləbilən “nəticə göstəriciləri”nin olmadığı nəzərə çarpır.

Belə ki, həmin “nəticə göstəriciləri”nin ölçüləbilənliyinin təmin olunması istiqamətində FP-də göstəricilər üzrə müvafiq baza ilinin və həmin baza ilinə uyğun olaraq dinamikanın “nəticə göstəriciləri”ndə faiz və ya ədəd olaraq qeyd olunması məqsədəuyğun hesab edilir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün insan, maliyyə və infrastruktur resurslarının ayrılması vəziyyəti ilə ÖH-ə əlavə təqdim edilən **“ATMU-nun 2022/2026-cı illər üzrə Strategiyasının hazırlanması və icra vəziyyəti”** adlı excel sənəddə tanış olmaq olar.

Belə ki, həmin sənəddə tədbirlərin icrası üçün nəzərdə tutulan **“maliyyə vəsaiti”** sütununda *“Əlavə maliyyəyə ehtiyac yoxdur”* və ya *“ATMU-nun büdcəsi hesabına nəzərdə tutulur”*, **“insan resursu”** sütununda *“müvafiq struktur bölmələrin əməkdaşları hesabına”* və **“infrastruktur resursu”** sütununda isə *“mövcud infrastruktur hesabına”* kimi qeyd edilmişdir.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

ÖH-də müvafiq indikatorla bağlı *“ATMU Strategiyasında illər üzrə nəzərdə tutulan fəaliyyət planına uyğun olaraq tədbirlərin icrası üçün maliyyə vəsaitlərinin ayrılması büdcə planlaşdırılmasında proqnozlaşdırılır. Bu zaman büdcədə proqnozlaşdırma xərc maddələri üzrə təsnifatlaşdırılır”* - qeyd edilmişdir.

Sahə səfəri zamanı təqdim edilmiş sənədə baxış zamanı 12 Məqsəd üzrə yalnız 2, 3, 4, 6, 7, 8, 9 və 11-ci Məqsədlər üzrə bir və ya bir neçə tədbir üzrə maliyyə vəsaitlərinin qeyd edildiyi məlum olmuşdur.

Qeyd olunanları nəzərə alaraq, SİP-in maliyyə təminatının FP-dəki tədbirlər üzrə ATMU-nun illik büdcə planlaşmasında nəzərə alınması vəziyyətini əks etdirən ayrıca maliyyə sənədinin hazırlanması məqsədəuyğun hesab edilir.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasında müvafiq məqamlar **“Keyfiyyət təminatı dəyərləri”** başlığında ***Sosial məsuliyyət*** (universitetin cəmiyyətin ədalətli inkişafına töhfəsi diqqət mərkəzində saxlanılmalıdır), ***Akademik azadlıq*** (universitetdə konvensional baxışları tənqid və təftiş etməyə imkan verən sərbəst fikir mübadiləsi mühiti qorunub-saxlanılmadır), ***Biliyə maraq*** (fərdlərdə intellektual axtarış və müstəqil öyrənmə həvəsini

formalaşdıran mühit yaradılmalıdır) və ***Yenilikçilik*** (təhsil, tədqiqat və digər əlaqədar sahələrdə yenilikçi yanaşmaların, texnoloji nailiyyətlərin fəal istifadəsi təşviq edilməlidir) kimi dəyərlər qismində öz əksini tapmışdır.

Həmçinin, ÖH-də indikatorda qeyd edilən məqamları özündə ehtiva edən aşağıdakı strategiyalar (prioritetləri) qeyd olunmuşdur:

- ✓ 2.6. Heyət üzvlərinin sosial-iqtisadi və psixoloji rifahını yüksəltməyə təminat sisteminin formalaşması;
- ✓ 3.3. "Gələcəyin səriştələri" kimi bilinən, beynəlxalq əmək bazarında sürətlə aktuallıq qazanan yüksək əqli, texnoloji, sosial və emosional bacarıqların mövcud təhsil proqramlarına inteqrasiya edilməsi;
- ✓ 6.1. Elmi-tədqiqat fəaliyyətinin institusional inkişafının təmin edilməsi məqsədilə universitetin nəzdində interdisiplinar elmi-tədqiqat mərkəzinin (institutunun) yaradılması;
- ✓ 6.9. "Web of Science" və "Scopus" bazalarında indeksləşən jurnallarda akademik heyət üzvlərinin dərc olunan məqalələrinin sayının artırılması;
- ✓ 10.4. ATMU-nun ianə fondunun (və ya Dəstək Fondunun) yaradılması;
- ✓ 11.3. Ortaq təcrübələrin formalaşması üçün müxtəlif rəsmi və qeyri-rəsmi fəaliyyətlər vasitəsilə tələbə, əməkdaşlar və akademik heyətin bir araya gətirilməsi, onlara sosiallaşma imkanı verilməsi;
- ✓ 12.1.4. Dövlətin və sənayenin ehtiyacları nəzərə alınaraq birgə tədqiqat layihələrinin həyata keçirilməsi.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

ATMU-nun 2022-2026-cı illər üçün Strategiya sənədinin əvvəlində **"2018-2021-ci illərdə ATMU-da həyata keçirilmiş strateji fəaliyyətlərinin icmalı"** barədə məlumat verilmişdir. Həmin başlıqda *"2018-ci ilin yazında ATMU AR Dövlət Turizm Agentliyinin tabeçiliyinə keçdikdən sonra qısa müddət ərzində universitetin institusional ehtiyacları qiymətləndirilmiş, onun fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə* ***qısamüddətli strategiya və müvafiq fəaliyyət planı*** *hazırlanmışdır".* Həmin strategiya dedikdə isə Dövlət Turizm Agentliyinin təsdiq etdiyi 2018-2022-ci illəri və beş prioritet istiqaməti özündə ehtiva edən *"Azərbaycan Turizm və Menecment Universitetinin inkişaf strategiyası"* adlı sənəd nəzərdə tutulur. Bəhs olunan fəaliyyətlər nəticəsində əvvəlki strategiyanın aşağıda qeyd olunan istiqamətlərinə uyğun görülmüş işlər barədə qısa məlumat da cari SİP-də https://atmu.edu.az/upload/files/2023/12/08//-d17e6bcb170203423722585387010554282.pdf yer almışdır:

1. Tədris və qiymətləndirmə prosesinin şəffaflığı;
2. Təhsilin məzmununun yaxşılaşdırılması;
3. Kadr potensialının gücləndirilməsi;
4. Tədris, öyrənmə və qiymətləndirmənin keyfiyyətinin yüksəldilməsi;
5. Sənaye ilə əlaqələrin gücləndirilməsi;

6. Keyfiyyət təminatı sisteminin formalaşması;
7. Beynəlxalq əməkdaşlıqların gücləndirilməsi.

Yuxarıda qeyd olunan 7 istiqamət cari SİP-dəki 12 Məqsəddə bu və ya digər formada yer almışdır.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasının hazırlanmasından əvvəl GZİT (SWOT) təhlilinin aparıldığı, daha sonra həmin təhlil üzrə imkanlar, güclü və zəif tərəflər ÖH-də qeyd olunsa da, təhlil üzrə təhdidlər qeyd olunmamışdır. Hesabatda qeyd olunmayan “təhdidlər”lə bağlı sahə səfəri zamanı “ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyası hazırlanarkən aparılmış GZİT təhlilin ümumiləşdirilmiş nəticələri” adlı məlumat təqdim edilmişdir.

Müvafiq indikatora uyğun olaraq, SİP-də ATMU-nun güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması ilə bağlı təhlil aparılmışdır. Təhlil əsasən ATMU-nun daxili və xarici amillərinin onun inkişafına daha çox təsir göstərəcək zəif tərəflərinin və təhdidlərinin SİP-də nəzərə alınması istiqamətində aparılmışdır.

Təhlil nəticəsində məlum olmuşdur ki, 6 adda qeyd olunan zəif tərəflər bu və ya digər formada SİP üzrə müvafiq məqsəd (Məqsəd 1 və 4) və prioritetlərdə (1.1; 4.1; 6.9 və 12.2) nəzərə alınmışdır. Lakin təhdidlərə gəldikdə isə 2 adda qeyd olunan təhdidlərdən ilki SİP-də nəzərə alınmamış, digəri isə SİP-də qismən nəzərə alınmışdır. Belə ki, *“Son illərin qəbul statistikasının təhlilinə əsasən ATMU-nun cəlbediciliyinin aşağı düşməsi hər tələbəyə düşən maliyyələşmə imkanlarına mənfi mənada təsir göstərir”* adlı təhdidlə bağlı SİP-də konkret bir prioritet qeyd olunmasa da onu *“Uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi”* – Məqsəd 10-a aid etmək olar.

İkinci təhdid – *“Fors-major vəziyyətlərdə alternativ idarəetmə modelinin olmaması və ya bu cür hallara hazır olmaq üçün müvafiq preventiv risklərin idarəetmə strategiyasının olmaması”* isə ümumiyyətlə 15.07.2022-ci ildə təsdiq edilmiş SİP-də nəzərə alınmamışdır. Daha sonra 14.09.2023-cü ildə ATMU-da “Risk və imkanların idarəedilməsinin təşkili proseduru” adlı sənəd təsdiq edilmişdir. Həmin sənədin III Maddəsində risk və imkanın müəyyən edilməsi üçün həyata keçiriləcək ilk addım olaraq, 3.1-ci bənddə *“Risk və imkanın müəyyənləşməsinin əsas üsulu kimi GZİT analizdən istifadə edilir”*. 26.11.2021-ci il tarixində təsdiqlənmiş Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsinin 3.1-ci bəndində şöbənin əsas vəzifələrindən biri kimi 3.1.16-cı yarımbənddə *“ATMU-nun fəaliyyət istiqamətlərinə uyğun olaraq illik risk əsaslı müəyyən təhlillər (GZİT, PESTEL və s.) aparır”* qeyd olunmasına baxmayaraq sahə səfəri zamanı Keyfiyyət təminatı şöbəsinin 2022/2023-cü tədris ili üçün İş Planındakı 9-cu fəaliyyətin nəticəsi olaraq yalnız 2 fakültə üzrə hazırlanmış GZİT təhlil təqdim edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, ATMU-da 14.09.2023-cü ildə təsdiq edilmiş “Risk və imkanların idarəedilməsinin təşkili proseduru”na uyğun GZİT təhlillərin aparılaraq gələcəkdə yeni strateji sənəd hazırlanarkən həm risklərin idarəedilməsi ilə bağlı məsələlərin, həm də təhlillərin bütövlükdə SİP-də nəzərə alınması məqsədəuyğun hesab edilir.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ÖH-də *“Strategiyanın hazırlanması üçün ATMU rektoru tərəfindən 19 may 2021-ci il tarixində* ***“2022-2026-cı illər üzrə ATMU-nun Strategiyasının hazırlanması üçün komissiyanın yaradılması”*** *haqqında 113 nömrəli əmr imzalanmışdır. Komissiyanın tərkibində istiqamətlər üzrə vəzifələrin bölgüsü göstərilmiş və sənayə nümayəndələrinin (Dövlət Turizm Agentliyi, Azərbaycan Hotel Assosiasiyası, Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası), təhsilalanların təmsilçiliyi təmin olunmuşdur”* qeyd olunmuşdur. Sahə səfəri zamanı həmin əmrlə tanış olduqda məlum olmuşdur ki, müvafiq komissiya *2021-2025-ci illər üzrə SİP-in* hazırlanması[4] üçün yaradılmışdır.

Digər tərəfdən isə Komissiyanın tərkibinə baxdıqda işəgötürənlərin cəlb olunduğu, lakin təhsilalanların cəlb olunmadığı görünür. Əmrdə təhsilalanların yalnız *“Karyera, kommunikasiya, tələbələr və məzunlara işin təşkili məsələləri”* bölməsi üzrə işçi qrupuna cəlb edildiyi məlum olmuşdur. SİP-in hazırlanması istiqamətində komissiyanın keçirdiyi 14.06.2021-ci il tarixli iclasının 01 saylı protokoluna və 07.09.2021-ci il tarixli iclasının 02 saylı protokolunda prosesdə maraqlı tərəflər qismində yalnız universitetin rektoru, prorektoru, dekan, kafedra müdiri, struktur bölmə rəhbərləri və işəgötürənlərin iştirakı öz əksini tapmışdır.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

2022-2026-cı illər üzrə SİP sənədinin icrası üzrə ATMU-nun struktur bölmələri illik fəaliyyət planı hazırlanarkən müəyyən edilmişdir. Təsdiqedici fakt:
https://atmu.edu.az/upload/files/2024/02/26//-3e98410c170892924549749949410928815.pdf

Belə ki, SİP-in icrası üçün hazırlanmış 2024-cü il üzrə FP-nin tərkib hissəsi kimi aşağıdakı cədvəldən müvafiq başlıqları və indikatoru özündə ehtiva edən *“Əsas icraçı”* və *“Digər icraçılar”* adlı başlıqları görmək mümkündür.

| Məqsəd | Prioritetlər | Tədbirlər | Ay | Nəticə göstəriciləri | Əsas icraçı | Digər icraçılar |
|---|---|---|---|---|---|---|

**Cədvəl 1.4 2024-cü il üzrə FP-nin məlumatlarının müvafiq başlıqları**

Cədvəl məlumatlarından da göründüyü kimi, ATMU-da SİP-in icrası üzrə hazırlanmış 2024-cü il üzrə fəaliyyət planında hər bir məqsədin icrası üçün nəzərdə tutulan tədbirlər və onlara uyğun əsas və digər icraçılar müəyyən edilmişdir. Bu da öz növbəsində struktur bölmələrin nəticəyönümlü fəaliyyətini və hesabatlılığını asanlaşdırır.

[4] Ətraflı məlumat 1.1.1-ci indikatorda qeyd edilmişdir

## 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının icrası təqvim illərinə görə fəaliyyət planı qurulmaqla həyata keçirildiyi üçün 2023-cü ilin sonunda strukturların strategiyaya dair hesabatları təqdim ediləcəyi ÖH-də qeyd edilmişdir.

Sahə səfəri zamanı ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının 2023-cü il üzrə FP-nin yarımillik və illik icrasına dair tərtib edilmiş hesabatlar təqdim edilmişdir. ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının 2023-cü il üzrə FP-nin yarımillik və illik icrasına dair tərtib edilmiş hesabatların məlumatlandırılması ATMU-nun Elmi Şurası səviyyəsində aparılmışdır. Daha sonra isə maraqlı tərəflər üçün 10.01.2024-cü il tarixində ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının icrası müzakirəsi haqqında press-reliz (https://atmu.edu.az/az/web/post/933) paylaşılmışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, SİP-in icrası üzrə dövrü (yarımillik, illik) hesabatların maraqlı tərəflər üçün əlçatanlığının tam təmin olunması məqsədilə hesabatların müzakirə edildiyi iclaslardan press-reliz şəklində ətraflı məlumatlandırılmanın[5] həyata keçirilməsi məqsədəuyğun hesab edilir.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının 2022-2023-cü tədris ili üzrə strukturların ümumi illik hesabatlarında strategiyaya dair bəzi məsələlərin öz əksini tapdığı, 2023-cü təqvim ilinin ilk yarım ilinin hesabatının verildiyi, 2023-cü ilin sonunda isə strategiyanın növbəti yarım illik hesabatının verilməsinin planlaşdırıldığı ÖH-də qeyd edilmişdir. Belə ki, ATMU-nun Elmi Şurasının 03.11.2023-cü il tarixli, 02 saylı iclasında IX məsələ kimi qeyd edilən *“Strategiyanın 2023-cü ilin ilk 6 ayına dair fəaliyyət planının icrasına dair hesabat”*la bağlı məlumat Keyfiyyət təminatı şöbəsi tərəfindən verilmişdir.

Həmçinin, 2023-cü ilin sonunda yekun hesabatın Elmi Şurada struktur bölmələr üzrə illik dinlənilməsi və müzakirəsi nəzərdə tutulduğu ÖH-də öz əksini tapmışdır. Lakin Elmi Şuranın 29.12.2023-cü il tarixli, 04 saylı iclasının protokoluna əsasən IV məsələ olan *“SİP-in yerinə yetirilməsi vəziyyəti və növbəti il üçün nəzərdə tutulan məsələlər barədə”* hesabatla bağlı məlumat yalnız Strateji məsələlər üzrə prorektor tərəfindən verilmişdir. Həmin Elmi Şurada struktur bölmələr üzrə illik dinlənilmə və müzakirə aparılmamışdır.

Hər iki Elmi Şurada ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının 2023-cü il üzrə FP-lərin yarımillik və illik icrasına dair hesabatların yalnız dinlənilməsi baş tutmuşdur. Belə ki, müvafiq protokollarda müzakirəyə dair qeydlərə rast gəlinməmiş və qərar kimi isə yalnız müvafiq “hesabat qəbul edilsin” qeyd olunmuşdur. Qəbul edilən hesabatların sonunda *“Qeyd: "İcradadır" və "icrasına başlanılmayıb" statuslu məsələlərin icra müddəti üçün müəyyən edilmiş tarixə strukturlar tərəfindən əməl olunmamışdır”* qeyd edilmişdir. Gələcəkdə yarım illik hesabatların

[5] Konfidensiallıq qorunmaqla qısa şəkildə görülmüş işlər və qəbul edilən qərarlar haqqında məlumat verilə bilər.

vaxtında təqdim edilməsi və illik hesabat təqdim edilənədək müvafiq çatışmazlıqların aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlərin aparılması məqsədəuyğun hesab edilir.

ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının 2023-cü il üzrə Fəaliyyət Planının illik icrasına dair hesabatın təhlili aparılmış və Fəaliyyət Planındakı adı çəkilən 85 tədbir üzrə "İcra statusu" ilə bağlı məlumatları Cədvəl 1.5-də qeyd olunmuşdur:

| № | İCRA STATUSU | TƏDBİR SAYI |
|---|---|---|
| 1 | İcra olunmuş | 30 |
| 2 | İcradadır | 12 |
| 3 | Qismən | 37 |
| 4 | İcrasına başlanılmayıb | 6 |
| | ***Cəmi:*** | **85** |

**Cədvəl 1.5 2023-cü il üzrə FP-nin illik hesabatındakı tədbirlərin "İcra status"larının statistikası**

Cədvəl məlumatlarından da göründüyü kimi, statusu *"İcrasına başlanılmayıb"* olan 6 adda tədbir ATMU Elmi Şurasının 29.12.2023-cü il tarixli iclasında təsdiq edilmiş *"2022-2026-cı illər üzrə Strategiyasının 2024-cü il üzrə icrasına dair Fəaliyyət Planı"*nda öz əksini tapdığı halda, statusu "*Qismən*" qeyd olunan 37 adda tədbir həmin FP-də yer almamışdır.

İcra statusu *"İcra olunmuş"* qeyd olunan 30 adda tədbirdən ilki olan *"1.1.1. Təşkilati Strukturun optimallaşdırılması ilə bağlı təhlilin aparılması"* adlı tədbirin "Nəticə göstəricisi" kimi *"Təsdiqlənmiş təşkliati struktur"* qeyd olunmuşdur. Burada keyfiyyət göstəricisi olaraq struktur bölmələr üzrə 17.04.2023-cü ildə təsdiqlənmiş vəzifə təlimatlarından bəhs edildiyi və nümunə kimi fakültə əməkdaşlarının vəzifə təlimatlarına baxdıqda bəzi nüanslar ortaya çıxmışdır.

Belə ki, ATMU-nun 3 fakültəsi üzrə akademik məsləhətçiləri – tyutorları ilə görüş zamanı fakültə əməkdaşlarının vəzifə təlimatları sənədində qeyri-dəqiq formada tyutorların vəzifəsi olaraq *"Tələbələrin akademik maraqlarını qoruya və müdafiə edə bilər"* cümləsi yazılmışdır. Tyutorun digər vəzifələrində də cümlələrin sonu *"edə bilər"* kimi qeyri-dəqiq ifadələrlə yekunlaşmışdır. Analoji hal dekan müavinin də vəzifələrində öz əksini tapmışdır. Bu da öz növbəsində həm dekan müavinin, həm də tyutorların vəzifə öhdəliklərinin konkretliyini sual altına qoyur.

Qeyd olunanları nəzərə alaraq, fakültə əməkdaşlarının vəzifə təlimatlarına yenidən baxılması, müvafiq dəyişikliklərin edilməsi və eyni zamanda gələcəkdə analoji halların qarşısının alınması üçün "İcra olunmuş" tədbirlərin nəticələrinin, xüsusilə də 17.04.2023-cü ildə təsdiq olunmuş vəzifə təlimatlarının yenidən nəzərdən keçirilməsi və ehtiyac yarandığı təqdirdə müvafiq düzəlişlərin edilməsi məqsədəuyğun hesab edilir.

ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının 2023-cü il FP-nin illik icrasına dair hesabatın qrafik məlumatları aşağıdakı kimidir.




**Qrafik 1.3 2023-cü il üzrə FP-dəki tədbirlərin illik icrasına dair statistika**

Qrafik məlumatlarından da görmək olar ki, 85 adda tədbirin yalnız 35%-i tam icra olunmasına baxmayaraq, 51%-i tam icra olunmamışdır.

Yuxarıda qeyd olunan cədvəl və qrafik məlumatlarına əsasən belə nəticəyə gəlmək olar ki, SİP-in icrası üçün 2023-cü il üzrə FP-nin İllik Hesabatı qənaətbəxş hesab edilə bilməz. Qeyd olunanları nəzərə alaraq, SİP-in icrası üçün 2024-cü ilin FP-si üzrə statistik göstəricilərin yüksəldilməsi istiqamətdə görülən tədbirlərin intensivləşdirilməsi məqsədəuyğun hesab edilir.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

ATMU-da 15.07.2022-ci il tarixində təsdiq edilmiş SİP sənədinin icrasının illik monitorinqi 24.05.2023-cü il tarixində təsdiq edilmiş “Strategiyanın monitorinq planı” və onun 1№-li Əlavəsinə – “Fəaliyyət planının icrasına dair hesabat”a (Cədvəl 1.6) uyğun olaraq aparılır.

| Prioritetin №-si | İcra olunmuş tədbir | Göstərici (planlaşdırılmış və faktiki) | Əyani əsaslandırma | İcra müddəti (planlaşdırılmış və faktiki) | İcraçı | Qeyd |
|---|---|---|---|---|---|---|
| | | | I Məqsəd | | | |
| | | | | | | |
| | | | II Məqsəd | | | |
| | | | | | | |
| Tərtib etdi (əsas icraçı): | | | | İmza: | | |
| | | | | Tarix: | | |
| Razılaşdırdı (digər icraçı): | | | | İmza: | | |
| | | | | Tarix: | | |

**Cədvəl 1.6 “Fəaliyyət planının icrasına dair hesabat” nümunəsi**

Cədvəl məlumatlarından da göründüyü kimi, struktur bölmələr tərəfindən nümunəyə uyğun hazırlanmış hesabat müvafiq başlıqlara uyğun məlumatları özündə ehtiva etməlidir. Lakin

sahə səfəri zamanı müvafiq struktur bölmələrin hesabatları ilə tanış olduqda bəzi çatışmazlıqlar aşkar edilmişdir. Belə ki, Karyera və kommunikasiya şöbəsinin Hesabatında nümunəyə uyğun məlumatlar tam təmin edilməmiş və sonda əsas, digər icraçı hissəsində struktur bölmələrin adları qeyd edilməmişdir. Karyera və kommunikasiya şöbəsinin Hesabatında həmin sturukturun əsas icraçı olduğu bütün tədbirlərlə bağlı məlumat əks olunmasına baxmayaraq, əsas icraçısı Tədris-metodiki şöbə olan Hesabatda isə yalnız bir tədbirlə bağlı məlumat əks olunmuşdur. Bundan əlavə Hesabatlar Keyfiyyət təminatı şöbəsinə fərqli vaxtlarda (06.11.2023 və 27.12.2023) təqdim edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, SİP-in icrasının illik monitorinqinin effektiv şəkildə aparılması üçün struktur bölmələr tərəfindən "Fəaliyyət planının icrasına dair hesabat"ın nümunəyə uyğun tərtibində və təhlillərin aparılmasına görə vaxtında təqdim olunmasında vahid yanaşmanın tətbiq edilməsi məqsədəuyğun hesab edilir.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

Müvafiq indikatorla bağlı, ÖH-də SİP-in icrasına dair cari ilin ilk altı ayı üzrə monitorinq aparılaraq yarımillik hesabatın Elmi Şurada müzakirə edildiyi və təqvim ilinin sonunda isə Strategiyanın icrasına dair illik monitorinqin aparılmasının və yekun hesabatın Elmi Şuraya təqdim edilməsinin nəzərdə tutulduğu qeyd olunmuşdur.

Yuxarıda qeyd olunanlarla bağlı, sahə səfəri zamanı SİP-in icrasının dövrü monitorinqinin nəticələrinin öz əksini tapdığı Hesabatın ATMU Elmi Şurasında gündəlikdəki məsələ olduğunu təsdiqləyən 29.12.2023-cü il tarixli iclasın 04 nömrəli protokolu təqdim edilmişdir.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

ATMU-da SİP-in icrasının dövrü monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi ilə bağlı, SİP-in icrası ilə bağlı illik FP üzrə Hesabat təqdim olunduqdan sonra aparılmış monitorinq nəticələrinə əsasən Strategiyanın icrasına dair həllini tapmayan məsələlərlə bağlı tədbirlər planının hazırlanacağı və ya onların növbəti təqvim ili üzrə fəaliyyət planına əlavə ediləcəyi ÖH-də qeyd olunmuşdur.

Bununla[6] bağlı 2023-cü il üzrə FP-nin illik Hesabatının təhlili aparılarkən məlum olmuşdur ki, ATMU Elmi Şurasının 29.12.2023-cü il tarixli iclasında təsdiq edilmiş *"2022-2026-cı illər üzrə Strategiyasının 2024-cü il üzrə icrasına dair Fəaliyyət Planı"*nda icrasına başlanılmayan 6 tədbir öz əksini tapdığı halda, icrası tamamlanmayan 37 tədbir isə həmin FP-də yer almamışdır.

SİP-in icrasının dövrü monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti ilə bağlı, ÖH-də monitorinqin yekunununa dair hesabatın maraqlı tərəflər üçün əlçatanlığının korporativ e-mail və canlı görüşlər, həmçinin universitetin rəsmi veb-saytı vasitəsilə təmin olunması nəzərdə tutulduğu qeyd edilsə də, sahə səfəri zamanı yalnız daxili qaydada e-maillər vasitəsilə universitet heyəti üçün əlçatanlığın təmin edildiyi bildirilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, monitorinq nəticələrinin maraqlı tərəflər üçün

---

[6] Bu abzasda qeyd olunan təhlillə bağlı ətraflı məlumat 1.2.2-ci indikatorda qeyd edilmişdir.

əlçatanlığının tam təmin olunması məqsədilə monitorinq nəticələrinin müzakirə edildiyi iclaslardan press-reliz şəklində məlumatlandırılmanın[7] həyata keçirilməsi məqsədəuyğun hesab edilir.

# 2. KEYFİYYƏT TƏMİNATI

## 2.1 Keyfiyyət təminatı siyasəti

### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

ÖH-də qeyd edildiyi kimi, ATMU-da ilk Keyfiyyət təminatı siyasəti sənədi 2018-ci ildə İSO 9001:2015 auditinin keçirilməsi zamanı hazırlanmış, lakin həmin siyasət sənədi keyfiyyət təminatı ilə bağlı məsələləri tam əhatə etmədiyi və 2022-ci ildə yeni akkreditasiya meyarları təsdiqləndiyi üçün müvafiq siyasət sənədinin təkmilləşdirilməsinə ehtiyac yaranmışdır.

Belə ki, yeni Keyfiyyət təminatı siyasəti (KTS) sənədinin hazırlanması və müzakirəsi ilə bağlı Rektoryanı Şuranının 10.03.2023-cü il tarixində 03 saylı iclası olmuş və KTS sənədinin hazırlanması və Elmi Şurada müzakirəyə çıxarılması ilə bağlı qərar qəbul edilmişdir. Daha sonra ATMU Elmi Şurasının 14.09.2023-cü il tarixli 01 saylı protokolu ilə KTS sənədi təsdiqlənmişdir.

Təsdiqedici fakt:
https://atmu.edu.az/upload/files/2023/11/21//-dc91cc9b1700554283311495174107861 28.pdf

Elmi və Rektoryanı Şuranının protokolları ilə tanış olduqda maraqlı tərəflər kimi yalnız struktur bölmə rəhbərləri və təhsilalanların (TEC və TGT sədrləri) prosesdə iştirakı məlum olmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Keyfiyyət təminatı siyasəti sənədinin yenidən təkmilləşdirilməsi zamanı bütün maraqlı tərəflərin iştirakının təmin edilməsi məqsədəuyğun hesab edilir.

### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Ali təhsildə daxili və xarici keyfiyyət təminatı üzrə standartlar toplusu hesab edilən və beynəlxalq sənəd kimi qəbul edilmiş ESG-nin "Daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar" adlı I Hissənin 1.1 bəndində "Keyfiyyət təminatı siyasəti"nin standartında universitetlərin malik olduğu KTS-in onların strateji idarəetməsinin bir hissəsini təşkil etdiyi qeyd edilmişdir. Belə ki, KTS sənədində "ATMU-da keyfiyyət siyasətinin əhatə dairəsi və prinsipləri" adlı VIII maddəsi Strategiyada qarşıya qoyulan məqsədləri əsas tutaraq hazırlanmış 18 prinsipi özündə ehtiva edir. Lakin 3-cü (*prinsipin sonunda hansı beynəlxalq standartlar nəzərdə tutulur?*), 5-ci (*prinsipin icrası ilə bağlı hansı mexanizm nəzərdə tutulur?*), 7-ci (*prinsipdə "məqsədlərin müntəzəm yenilənməsi" əvəzinə FP-də prioritetlər üzrə tədbirlərin illik yenilənməsi ola bilər*), 12-ci (*bu prinsiplə bağlı mexanizmin qeyd edilməsi*), 13-cü (*prinsipin daha sadə və anlaşılan*

[7] Konfidensiallıq qorunmaqla qısa şəkildə görülmüş işlər və qəbul edilən qərarlar haqqında məlumat verilə bilər.

*formada yazılması*) və 18-ci (*prinsipin icrasının hansı kriteriyalara ya da mexanizmə uyğun aparılması?*) prinsiplərin indikatora uyğunluq formasına diqqət yetirdikdə onların yenidən yazılması faydalı olar.

Eyni zamanda ATMU-nun 14.09.2023-cü il tarixində təsdiq edilmiş 10 başlıqdan ibarət KTS sənədi aşağıdakı yerli və beynəlxalq normativ-hüquqi sənədlər nəzərə alınmaqla hazırlanmışdır:

➔ Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi;
➔ Ali təhsil müəssisəsinin institusional akkreditasiya üzrə qiymətləndirmə meyarları;
➔ Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təmin olunması üzrə Avropa Standartları və Tövsiyələri (ESG);
➔ ATMU-nun Nizamnaməsi və Strategiyası;
➔ EQAC layihəsi - "Daxili keyfiyyət təminatı üzrə metodik tövsiyə".

Yuxarıda qeyd olunanları nəzərə alaraq, KTS sənədinin indikatora uyğun olaraq sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyətini əsasən uyğundur kimi qiymətləndirmək olar.

Təsdiqiedici fakt:
https://atmu.edu.az/upload/files/2023/11/21//-dc91cc9b170055428331149517410786128.pdf

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

Rektoryanı Şuranın 10.03.2023-cü il tarixli iclasında KTS sənədinin hazırlandıqdan sonra əlçatanlığının təmin olunması haqqında qəbul edilmiş qərarı ATMU heyətinin KTS barədə məlumatlı olması və bu siyasəti bölüşməsi istiqamətində rəhbərlik tərəfindən atılan ilkin addım kimi qiymətləndirmək olar.

ÖH-də də qeyd edildiyi kimi, müvafiq indikator KTS sənədinin təsdiqləndikdən sonra rəsmi veb-sayta yerləşdirilməsi, korporativ e-maillər və ATMU daxili elektron monitorlar vasitəsilə maraqlı tərəflərə çatdırılması ilə təmin edilmişdir.

Eyni zamanda KTS sənədinin VIII maddəsinin ayrıca 1 səhifə həcmində Keyfiyyət siyasəti Bəyannaməsi (KSB) olaraq 14.09.2023-cü il tarixində təsdiq edilməsini və daha sonra KSB-nin həm ATMU-nun rəsmi veb-saytında (https://atmu.edu.az/upload/files/2023/10/06/-ec1c5914169659264096606593410611431.pdf) yerləşdirilməsini, həm də tədris binasında hər mərtəbədə məlumat lövhəsindən asılmasını müvafiq indikator üzrə məlumatlılığın artırılması və siyasətin bölüşülməsi məqsədilə görülmüş tədbir kimi dəyərləndirmək olar.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

Müvafiq indikatorla bağlı ÖH-də də qeyd edildiyi kimi, 14.09.2023-cü ildə təsdiq edilmiş KTS sənədində ATMU-nun tarixi, idarəçiliyi, missiyası, gələcəyə baxışı, hədəf və məqsədləri, dəyərləri, bilik mənbəyi, keyfiyyət mədəniyyəti, keyfiyyət siyasətinin əhatə dairəsi, prinsipləri, keyfiyyət təminatı sisteminin sxem təsviri, resursların idarəedilməsi kimi məsələlər öz əksini tapmışdır.

Eyni zamanda KTS sənədində "ATMU-da Keyfiyyət siyasətinin əhatə dairəsi və prinsipləri" adlı VIII bəndin müvafiq indikatora uyğunluğu ilə bağlı özündə ehtiva etdiyi aşağıdakı prinsipləri görmək mümkündür:

- Təhsilalanların ali təhsillə yanaşı, sənayenin (əmək bazarının) tələblərinə uyğun, yüksək keyfiyyətdə yetişdirilməsi məqsədilə təhsil proqramlarının daimi təkmilləşdirilməsi və optimallaşdırılması;
- Təhsilalanların, təhsilverənlərin, eləcə də, bütün ATMU heyətinin təhsil mühitinin səmərəliliyinin arıtırılması məqsədilə təhsil, maliyyə resurslarının artırılması, infrastrukturun təkmilləşdirilməsi və tədricən beynəlxalq standartlara çatdırılması;
- Keyfiyyət idarəetmə sisteminə bütün strukturların cəlb edilməsi və hər bir fərdin məsuliyyət daşıması;
- Təhsilalanların və təhsilverənlərin keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və hesabatlılığı.

## 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

ATMU-nun daxili keyfiyyət təminatı sisteminin mövcudluğunu aşağıdakı xronoloji ardıcılıqda görmək mümkündür:

İlkin olaraq 27.03.2012-ci il tarixində bütün fəaliyyət sahələrində görülən işlərin qiymətləndirilməsi, keyfiyyətin yüksəldilməsi, müasir tələblərə cavab verən formada qurulması və professor-müəllim heyətinə və əməkdaşlara təlimlərin keçirilməsi məqsədi ilə 42 nömrəli əmrlə **"Keyfiyyət komissiyası"** yaradılmışdır. Həmin komissiyanın 17.04.2012-ci il tarixli yığıncağında qəbul edilən həm "Keyfiyyət komissiyası haqqında Əsasnamə", həm də "Keyfiyyət komissiyasının 2012/2013-cü tədris ili üçün İş planı" 20.04.2012-ci il tarixində rəhbərlik tərəfindən təsdiq edilmişdir.

Yuxarıda qeyd olunanlara baxmayaraq, Keyfiyyət Komissiyasının 27.03.2012-ci il tarixindən 23.10.2023-cü il tarixinə – yeni tərkibdə formalaşana qədər yalnız bir tədris ilinə görə iş planı olmasına baxmayaraq nə həmin ilin hesabatı nə də digər tədris illəri üzrə iş planları və hesabatları mövcud olmamışdır.

Daha sonra ÖH-də də qeyd edildiyi kimi, daxili keyfiyyət təminatı məsələlərinin tənzimlənməsi məqsədilə 29.12.2017-ci il tarixli, 196K saylı əmrlə Keyfiyyət təminatı və akkreditasiya şöbəsi yaradılmışdır. Həmin şöbə 15.09.2021-ci il tarixli, 98K saylı əmr ilə

**Keyfiyyət təminatı şöbəsi** adı ilə fəaliyyətini davam etdirir. Keyfiyyət təminatı şöbəsinin 26.11.2021-ci il tarixli Əsasnaməsi (https://atmu.edu.az/az/keyfiyyet-teminati-shobesi-esasname), tədris illəri üzrə təsdiqlənmiş İş planları (https://atmu.edu.az/az/keyfiyyet-teminati-shobesi-ish-plani) və 17.04.2023-cü il tarixində təsdiqlənmiş işçilərinin vəzifə təlimatları mövcuddur.

Ümumiyyətlə, həm müvafiq fəaliyyət və iş planları ilə, həm də sahə səfəri zamanı Keyfiyyət təminatı şöbəsinin fəaliyyəti ilə tanış olduqda həmin şöbənin məsuliyyətinin onun insan resursları ilə düz mütənasib olmadığı məlum olmuşdur. Belə ki, cari vəziyyətdə (sahə səfəri çərçivəsində) şöbənin insan resursu 4 nəfərdən ibarətdir. Bu da həm əməkdaşların potensiallarından düzgün istifadə edilməməsinə, həm də görüləcək işlərin keyfiyyətinə deyil kəmiyyətinə fokuslanmağa gətirib çıxarır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Keyfiyyət təminatı şöbəsinin insan resurslarının optimallaşdırılması məqsədəuyğun hesab edilir.

İndikatora uyğun növbəti mərhələdə isə, ATMU Elmi Şurasının 14.09.2023-cü il tarixli Qərarı ilə müvafiq tərkibdə **Keyfiyyət təminatı komissiyasının (KTK)** yaradılması təklif edilmiş və 23.10.2023-cü il tarixində həmin tərkibdə KTK yaradılmışdır. Eyni tarixdə KTK-nin Əsasnaməsi və 2023/2024-cü il üzrə Fəaliyyət Planı da təsdiq edilmişdir. KTK Əsasnaməsinin sonunda *"Hazırki Əsasnamə 14.09.2023-cü il tarixli Elmi Şura iclasında 01 №-li protokolla təsdiq olunmuşdur"* qeyd olunsa da müvafiq protokolda bununla bağlı heç bir qərar öz əksini tapmamışdır. KTK yeni yarandığı üçün ilk fəaliyyəti olaraq 10.01.2024-cü il tarixində birinci iclası keçirilmiş və sonda komissiyanın normativ sənədlərinin, akkreditasiya meyarlarının, ÖH-nin və "Tədris prosesinin monitorinq qaydaları"nın KTK üzvlərinə göndərilməsi ilə bağlı qərar qəbul edilmişdir.

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

"Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları"na müvafiq olaraq tədrisin və idarəçiliyin keyfiyyətinin, eləcə də səmərəliliyin artırılması məqsədilə keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsinə və çatışmazlıqların aradan qaldırılmasına nəzarəti həyata keçirmək üçün 23.10.2023-cü il tarixli əmrlə 14 nəfər tərkibdən ibarət Keyfiyyət Təminatı Komissiyası yaradılmışdır. Komissiyanın tərkibinə maraqlı tərəflər qismində 1 nəfər təhsilalan, 5 nəfər işəgötürən və 8 nəfər isə universitet heyətindən cəlb olunmuşdur.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Müvafiq indikatorla bağlı, ÖH-də *"bütün strukturların illik iş planlarına "strategiyanın icrasına dair" bənd ayrılmaqla onunla bağlı görüləcək işlər öz əksini tapmışdır"* fikri qeyd edilmişdir. Bununla bağlı KT şöbəsinin 14.09.2023-cü il tarixində 2023/2024-cü tədris ili üçün təsdiq edilmiş 35 tədbirdən ibarət İş planında (https://atmu.edu.az/upload/files/2023/11/02//-bf5d232e169892758114893149510686161.pdf) *"Strateji inkişaf planının icrasına dair"* adlı

başlıqda ətraflı şəkildə görülmüş işlər (13 ədəd) öz əksini tapmışdır. Digər tərəfdən isə KTK-nin 14.09.2023-cü il tarixində 2023/2024-cü tədris ili üçün təsdiq edilmiş FP-də 11 adda görüləcək iş nəzərdə tutulmuşdur ki, onlardan biri kimi *"Strategiyada qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsinin izlənilməsi"* adlı proses qeyd olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, keyfiyyət təminatı komissiyasının yeni fəaliyyət planı təsdiq edilərkən müvafiq indikatora uyğun, icra edilə bilən, sadə və anlaşılan şəkildə yenidən formalaşdırılması məqsədəuyğun hesab edilir.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

ATMU-nun 14.09.2023-cü il tarixində təsdiq edilmiş Keyfiyyət təminatı siyasətinin *"Keyfiyyət təminatı sisteminin sxem təsviri"* adlı IX hissəsində *"Keyfiyyət təminatı sisteminin tətbiqində Planlaşdır – İcra et – Nəzarət – Tədbir gör (PİNT – PDCA) modelindən istifadə edilir"* cümləsi və **Şəkil 1.dəki** məlumatlar qeyd edilmişdir.




**Şəkil 2.1 Keyfiyyət təminatı sistemi *( PDCA modelinə əsasən hazırlanıb)***

Müvafiq indikatorla bağlı, prosesin tənzimlənməsinin KTK-nin fəaliyyət planı və Keyfiyyət təminatı şöbəsinin illik iş planları əsasında həyata keçirilməsi qeyd olunmuşdur. PİNT tsikli yalnız model olaraq KTS sənədində yer alsa da, onun işləkliyi ilə bağlı məlumat daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş, nə KT şöbəsinin iş planlarında, nə də KTK-nin fəaliyyət planında öz əksini tapmamışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, ATMU-nun Keyfiyyət təminatı siyasətindəki PİNT tsiklinin səmərəli və effektiv işləkliyinin təmin edilməsi məqsədilə həmin modelin Keyfiyyət Təminatı Komissiyasının və SİP-in icrası üzrə illik Fəaliyyət Planlarına, KT şöbəsinin və digər struktur bölmələrin illik iş planlarına tətbiq edilməsi üçün icra mexanizminin hazırlanması məqsədəuyğun hesab edilir.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

ATMU-da daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyənləşdirilməsi və səlahiyyət bölgüsünün aparılması bir neçə istiqamətdə təmin edilmişdir. Belə ki, ilkin olaraq indikatora dair məlumatların SİP-in icrası ilə bağlı illik fəaliyyət planlarında və struktur bölmələrin illik iş planlarında öz əksini tapdığını qeyd etmək olar.

Müvafiq indikatorla bağlı, ATMU-nun 14.09.2023-cü il tarixində təsdiq edilmiş Keyfiyyət təminatı siyasətinin *"Keyfiyyət təminatı sisteminin sxem təsviri"* adlı IX hissəsində *"Sistemin tətbiqində rəhbərlik, keyfiyyət təminatı komissiyası, tələbə təşkilatları ilə birlikdə bütün struktur bölmələrin iştirakı və prosesin Keyfiyyət təminatı şöbəsi tərəfindən koordinasiya edilməsi"* qeyd edilmiş və **Şəkil 2.2-də** göstərildiyi kimi strukturlararası əlaqə formalaşdırılmışdır.




**Şəkil 2.2 Keyfiyyət təminatı sistemində strukturlararası əlaqə**

Şəkil 2.2-dəki məlumatlardan da göründüyü kimi KT şöbəsi birbaşa rektora tabe və Elmi Şura qarşısında hesabat verən qurum olaraq qeyd olunmuşdur. Sahə səfəri zamanı isə Keyfiyyət təminatı şöbəsinin 20.12.2023-cü il tarixli 3-46-3/3-1-233/K/2023 nömrəli əmrlə birbaşa strateji inkişaf üzrə prorektora tabe edilməsi məlum olmuşdur. Belə bir halın olması isə öz növbəsində KT şöbəsinin digər struktur bölmələrlə effektiv koordinasiyasına, KTS-də strukturlar üzrə məsul şəxslərin müəyyən edilməsinə və səlahiyyət bölgüsünün aparılmasına potensial təhlükə formalaşdırır.

Yuxarıda qeyd olunan məsələlərin təşkilati-struktur baxımından icrası bir sıra yerli və beynəlxalq universitetlərin təcrübəsində də olduğu kimi rektora tabe, mərkəzləşdirilmiş Keyfiyyət təminatı şöbəsi tərəfindən həyata keçirildiyini nəzərə alaraq, ATMU-da effektiv keyfiyyət mədəniyyətinin formalaşdırılması və digər struktur bölmələrlə əlaqələrin optimal qurulması üçün Keyfiyyət təminatı şöbəsinin birbaşa rektora tabe struktur bölmə kimi fəaliyyətini davam

etdirməsi məqsədəuyğun hesab edilir.

**2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

ATMU-nun daxili keyfiyyət təminatı sistemi üzrə Keyfiyyət təminatı Komissiyanın 14.09.2023-cü il tarixində təsdiq edilmiş fəaliyyət planının əhatəlilik vəziyyəti ilə bağlı indikatora uyğun olaraq fəaliyyət planında öz əksini tapan aşağıdakı tədbirləri qeyd etmək olar:

- Təhsil proqramlarının qiymətləndirilməsi mexanizminin formalaşdırılması və onun təşkili işinə dəstək göstərilməsi;
- Tədris prosesinin qiymətləndirilməsinin aparılmasına dəstək göstərilməsi
- Tədris prosesinin monitorinqinin nəticəsində tövsiyələrin hazırlanması;
- ATMU-da daxili auditin nəticələrinə dair təkliflərin irəli sürülməsi;
- Tədrisin keyfiyyətinin artırılması üçün təhsilalanlar arasında aparılan sorğuların nəticələrinin təhlil edilərək tövsiyələrin verilməsi;

ÖH-də də qeyd edildiyi kimi, eyni zamanda KT şöbəsinin də illik iş planı müxtəlif fəaliyyətləri özündə ehtiva edir.

**2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

ATMU-da 2023-cü ildə keyfiyyət təminatı siyasətini də özündə ehtiva edən "*Azərbaycan Turizm və Menecment Universitetinin fəaliyyətinin tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurlar toplusu"* adlı keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) universitetin rəsmi veb-saytına yüklənilməsi ilə daxili keyfiyyət təminatı sisteminin bütün maraqlı tərəflər üçün əlçatanlığı təmin edilmişdir. Universitetin 45 adda normativ-hüquqi sənədlərini özündə ehtiva edən və 296 səhifədən ibarət həmin keyfiyyət təminatı bələdçisi – qaydalar toplusu ilə linkə https://atmu.edu.az/upload/files/2024/01/26//-8860e834170627349348378662710781158.pdf daxil olmaqla tanış olmaq mümkündür. 2024-cü ilin yanvarından isə həmin qaydalar toplusu çap edilərək bütün struktur bölmələrə paylanılmışdır.

Müvafiq indikatorla bağlı, hər il təhsilalanlar üçün "Tələbənin məlumat kitabçası" hazırlanıraq tələbələrə təqdim edilməsi, eyni zamanda "Azərbaycan Turizm və Menecment Universitetinin daxili fəaliyyət qaydaları", "Azərbaycan Turizm və Menecment Universitetinin işçilərinin etik davranış qaydaları" adlı kitabçaların da mövcudluğu ÖH-də qeyd edilmişdir.

**2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

ATMU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi bir neçə istiqamətdə aparılır. Belə ki, ilkin olaraq SİP-in icrası üzrə illik fəaliyyət planlarının dövrü

hesabatlarını qeyd etmək olar.

ÖH-də də qeyd edildiyi kimi, ATMU-da ISO 9001:2015, ISO 21001:2018 standartlarının tələblərinə müvafiq olaraq audit prosesi hər biri ildə minimum bir dəfə olmaqla daxili və xarici formada həyata keçirilir. Keçirilmiş həmin auditlərin nəticəsində "Audit qeydləri üzrə tədbirlər planı" formalaşdırılır. Belə ki, ATMU-da 24.01.2024-cü il tarixli 3-46-3/3-1-8/2024 nömrəli əmrlə ISO standartlarının tələblərinin fakültə dekanlığı, habelə müvafiq kafedralar tərəfindən icra vəziyyətinin qiymətləndirilməsi, daxili auditin keçirilməsi və Yekun Hesabatın hazırlanması məqsədilə Daxili Audit Komissiyası yaradılmışdır.

Müvafiq indikatora uyğun daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirilmənin başqa bir istiqaməti kimi, KT şöbəsinin koordinasiyası ilə 2022/2023-cü tədris ilindən etibarən "Təlim prosesinin monitorinqinin təşkili qaydaları"na (https://atmu.edu.az/upload/files/2023/11/21//-fa60438a170055406186997979410627162.pdf) müvafiq olaraq tədris prosesinin monitorinqinin aparılması da ÖH-də qeyd olunmuşdur. Lakin sahə səfəri zamanı bəzi sənədlərlə tanış olduqda müvafiq monitorinq 2022/2023-cü tədris ilindən etibarən deyil, 2023/2024-cü tədris ilinin payız semestrində aparıldığı məlum olmuşdur. Sözügedən qayda 2022/2023-cü tədris ilinin II semestrində təsdiqlənmiş və yeni tədris ili olaraq 2023/2024-cü ildə icrasına başlanılmışdır.

Belə ki, "Təlim prosesinin monitorinqinin təşkili" qaydaları 2022/2023-cü tədris ilinin II semestrinin başlanğıcında, yəni ATMU Elmi Şurasının 04 nömrəli Qərarı ilə 14.02.2023-cü il tarixində təsdiq edilməsinə baxmayaraq, "ATMU-da tədris prosesinin monitorinqi komissiyası"nın tərkibi 2023/2024-cü tədris ilinin payız semestri başladıqdan sonra, yəni 25.10.2023-cü il tarixində 3-46-3/3-1-294/2023 nömrəli əmrlə təsdiq edilmişdir. 2023/2024-cü tədris ilinin payız semestri üzrə monitorinq müvafiq komissiya tərəfindən "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarına əsasən 04.11.2023-cü il tarixindən 06.12.2023-cü il tarixinə qədər aparılmışdır. "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarının 3.1-ci bəndinə əsasən həyata keçirilmiş monitorinq üzrə hesabat ATMU Elmi Şurasının 29.12.2023-cü il tarixli iclasında 04 nömrəli protokolla təsdiq edilmişdir.

Təlim prosesinin monitorinqi ilə bağlı təsdiq edilmiş 3 adda sənədlə (Qaydalar, Komissiyanın əmri və Hesabatı) tanış olduqda aşağıdakı çatışmazlıqlar meydana çıxmışdır:

- "ATMU-da tədris prosesinin monitorinqi komissiyası"nın tərkibinin professor-müəllim heyətindən ibarət olması;
- Qaydaların 4.8-ci bəndinə əsasən "tədris prosesinin monitorinqi komissiyası"nın səlahiyyət müddətinin 25.10.2023-cü il tarixli əmrdə müəyyən edilməməsi;
- Qaydaların 4.7-ci bəndinə əsasən monitorinq bitdikdən (06.12.2023) sonra 15 iş günü ərzində hesabatın Tədris-metodiki Şuraya təqdim edilməməsi və Elmi Şurada təsdiq edilməsi;
- "Təlim prosesinin monitorinqinin təşkili" qaydaları 14.02.2023-cü il tarixində təsdiq edilməsinə baxmayaraq monitorinq hesabatında həmin qaydaların təsdiq tarixinin 01.02.2023-cü il qeyd olunması;
- ATMU-da 3 fakültənin fəaliyyət göstərməsinə baxmayaraq hesabatda 8 fakültənin qeyd olunması;
- 04.11.2023-06.12.2023-cü il tarixlərində təşkil edilmiş monitorinqin bütövlükdə 23 iş

günü davam etməsi və 166 nəfər akademik heyətdən cəmi 18 nəfərin yəni təqribi 11% müəllimin dərsi üzrə aparılması.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirmənin əhatəliliyinin genişləndirilməsi üçün aşağıdakı tövsiyələr məqsədəuyğun hesab edilir:

- ✓ ATMU Elmi Şurasının 14.02.2023-cü il tarixli 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarının 2.2-ci bəndində qeyd edilən vəzifələrin daha dolğun həyata keçirilməsi məqsədilə 25.10.2023-cü il tarixli 3-46-3/3-1-294/2023 nömrəli əmrlə yaradılmış ATMU-da tədris prosesinin monitorinqi komissiyasının qaydaların 4.8-ci bəndinə əsasən səlahiyyət müddətinin müəyyənləşdirilməsi və tərkibinin sədr, müavin, katib və inzibati heyətdən də əməkdaşların cəlb edilməsi ilə yenidən təsdiq edilməsi;
- ✓ 2.2.8-ci indikatorda qeyd olunan çatışmazlıqlar nəzərə alınmaqla "Tədris prosesinin monitorinqi komissiyası"nın işinin qaydaların 4.7-ci bəndinə uyğun yenidən təşkil edilməsi;
- ✓ Monitorinq zamanı dərsində iştirakı nəzərdə tutulan müəllimlərin sayının artırılması;
- ✓ "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarının 2.2-ci bəndinin və daha çox dərsdə iştirakın təmin edilməsi məqsədilə monitorinqin hər tədris ili üzrə 01 oktyabr və 01 mart tarixlərindən gec olmayaraq başlanılması.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30.09.2022-ci il tarixli KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları"na əsasən ATMU-nun daxili keyfiyyət təminatı üzrə fəaliyyətinə dair illik ÖH hazırlanmışdır. ÖH-də qeyd edildiyi kimi, 2022/2023-cü tədris ilinin sonunda – avqust ayında, strukturların ümumi fəaliyyəti ilə bağlı hazırlanmış ÖH ATMU Elmi Şurasının 14.09.2023-cü il iclasında təsdiq edilmişdir.

Əlavə olaraq ATMU-da 24.01.2024-cü il tarixli əmrlə İSO 9001:2015 – Keyfiyyət İdarəetmə Sistemi, İSO 21001:2018 – Təhsilin İdarəedilməsi standartlarının tələblərinin icrası ilə bağlı vəziyyətin mütəmadi monitorinq olunması, fakültənin fəaliyyətində keyfiyyət təminatı prosedurlarının tətbiqi vəziyyətinin diqqətdə saxlanılması, daxili auditin keçirilməsi və Yekun Hesabatın hazırlanması məqsədilə yaradılmış Daxili Audit Komissiyasını da qeyd etmək olar.

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

ATMU-da sonuncu akkreditasiyası Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin 02.06.2016-cı il tarixli 02 saylı əmri ilə yaradılmış AK tərəfindən həyata keçirilmiş və Akkreditasiya Şurasının 22.12.2017-ci il tarixli 448 nömrəli qərarı ilə ATMU 5 il müddətinə akkreditasiya edilmişdir.

ATMU tərəfindən 02.03.2022-ci il tarixli 008Ş2/KTŞ/66 nömrəli məktubla Akkreditasiya Komissiyasının Yekun Hesabatında qeyd olunmuş təklif (1 ədəd) və iradların (9 ədəd) icrasına dair hesabat TKTA-ya təqdim edilmişdir. Hesabatda təklif və iradlarla bağlı universitetdə müvafiq işlərin görüldüyü qeyd olunmuşdur. Lakin sahə səfəri zamanı təsdiqedici sənədlərlə tanış olduqda müvafiq çatışmazlıqların olduğu aşkarlanmışdır. Belə ki, **İrad 3**-lə (*2015/16-cı tədris ilinin qış imtahan sessiyasının nəticələrinə görə ayrı-ayrı fakültələr üzrə müvəffəqiyyət və keyfiyyət göstəriciləri aşağı olmuşdur.)* bağlı Hesabatda "*...ATMU-nun bütün fakültələrində tələbələrin müvəffəqiyyət və keyfiyyət göstəricilərində müsbət dinamika mövcud olmuşdur*" qeyd edilmişdir.

2016/2017–2022/2023-cü illər üzrə müvafiq göstəricilərlə tanış olduqda qış imtahan sessiyasının nəticələrinin yay imtahan sessiyasına nisbətən daha aşağı olduğunu diaqram məlumatlarından da görmək mümkündür. ATMU-da bakalavriat və magistratura səviyyələrində tədris həyata keçirilən 3 fakültədəki (Turizm və qonaqpərvərlik fakültəsi (TQF), Biznes idarəçiliyi fakültəsi (BİF) və Sosial menecment fakültəsi (SMF)) son 5 tədris ili üzrə həm müvəffəqiyyət, həm də keyfiyyət göstəriciləri ilə bağlı müqayisəli qrafikləri özündə ehtiva edən qrafik və təhlil məlumatları aşağıda təqdim edilmişdir.

İlkin olaraq bakalavriat səviyyəsi üzrə müvəffəqiyyət göstəricilərindən (**Qrafik 2.1**) aydın olur ki, son 2 tədris ili üzrə müsbət dinamika digər 2 fakültəyə nisbətən SMF-də qeydə alınmışdır.




**Qrafik 2.1 Bakalavriat səviyyəsində 5 tədris ili üzrə müvəffəqiyyət göstəricilərinin müqayisəsi**

Qrafik 2.1-də qeyd olunan məlumatlarından da göründüyü kimi, TQF-də qış imtahan sessiyası üzrə müvəffəqiyyət göstəriciləri 2020/2021-ci tədris ilinin göstəricilərini nəzərə almasaq 2018/2019-cu tədris ilindən etibarən azalan dinamikadadır.

ATMU-da bakalavriat səviyyəsində tədris həyata keçirilən 3 fakültədəki (TQF, BİF və SMF) 5 tədris ili üzrə keyfiyyət göstəriciləri ilə bağlı müqayisəli qrafiki özündə ehtiva edən məlumatlar **Qrafik 2.2-də** qeyd olunmuşdur.




**Qrafik 2.2 Bakalavriat səviyyəsində 5 tədris ili üzrə keyfiyyət göstəricilərinin müqayisəsi**

Qrafik 2.2-dəki məlumatlardan da göründüyü kimi 5 tədris ili üzrə ən yüksək göstərici TQF-də (41.13), ən aşağı göstərici isə BİF-də (6.00) qeydə alınmışdır. Ümumilikdə 3 fakültə üzrə keyfiyyət göstəricilərinin təhlil nəticələrinə əsasən, SMF və BİF-də 2018/2019-cu tədris ilinin qış imtahan sessiyasından etibarən azalma dinamikası başlamışdır.

ATMU-da magistratura səviyyəsində tədris həyata keçirilən 3 fakültədəki (TQF, BİF və SMF) 5 tədris ili üzrə müvəffəqiyyət göstəriciləri ilə bağlı qrafik məlumatı aşağıdakı kimidir (**Qrafik 2.3**).




**Qrafik 2.3[8] Magistratura səviyyəsində 5 tədris ili üzrə müvəffəqiyyət göstəricilərinin müqayisəsi**

[8] Diaqramda sol tərəfdəki göstəricilər (norma 0-100) təhlilin daha dəqiq aparılması məqsədilə tədris illəri üzrə yuxarı və aşağı həddə əsasən qeyd edilmişdir.

ATMU-da magistratura səviyyəsindəki müvəffəqiyyət göstəricilərinin bakalavriat səviyyəsinə nisbətən daha yuxarı olduğu Qrafik 2.3-də qeyd olunan məlumatlardan aydın görünür. Ümumilikdə magistratura səviyyəsindəki göstəricilərin yüksək olmasına baxmayaraq fakültələr üzrə məlumatlarda ayrı-ayrılıqda müəyyən çatışmazlıqların olduğu görünür. Belə ki, SMF üzrə göstəricilər son 3 semestrdə müsbət dinamikada olmasına baxmayaraq, BİF üzrə göstəricilərin son 7 semestrdə – 2019/2020-ci tədris ilinin yay imtahan sessiyasından etibarən azalan tendensiyada olması diqqəti çəkmişdir. TQF üzrə göstəricilər isə bizə həmin fakültədə qış və yay imtahan sessiyasının nəticələri arasında kəskin fərqin olduğunu deməyə əsas verir.

Aşağıdakı qarafik məlumatında ATMU-da magistratura səviyyəsində tədris həyata keçirilən 3 fakültədəki (TQF, BİF və SMF) 5 tədris ili üzrə keyfiyyət göstəriciləri göstərilmişdir (**Qrafik 2.4**).




**Qrafik 2.4 Magistratura səviyyəsində 5 tədris ili üzrə keyfiyyət göstəricilərinin müqayisəsi**

Qrafik 2.4-dəki məlumatlardan da göründüyü kimi, magistratura səviyyəsində digər fakültələrə nisbətən SMF üzrə keyfiyyət göstəricilərinin daha yüksək olmasına baxmayaraq, 2019/2020-ci tədris ilinin yay imtahan sessiyasının nəticələrindən sonra həmin fakültədə nəticələrin azalan tendensiyada olduğu nəzərə çarpır. Sonuncu (2022/2023 yay) imtahan sessiyasını nəzərə almasaq, TQF üzrə keyfiyyət göstəricilərinin 2020/2021-ci tədris ilinin qış imtahan sessiyasından etibarən müsbət dinamikada olduğu görünür. Digər fakültədə – BİF-də isə son 2 tədris ili üzrə keyfiyyət göstəricilərinin azalan tendensiyada olması qrafik məlumatlarında öz əksini tapmışdır.

ATMU-da bakalavriat və magistratura səviyyələrində tədris həyata keçirilən 3 fakültədəki (TQF, BİF və SMF) 5 tədris ili üzrə həm müvəffəqiyyət, həm də keyfiyyət göstəriciləri ilə bağlı yuxarıda qeyd olunan müqayisəli qrafik məlumatlarının təhlili müvafiq nəticələrə gəlməyə əsas vermişdir. Belə ki, ATMU-da 5 tədris ili üzrə qış və yay imtahan sessiyasındakı nəticələr arasındakı kəskin fərqin aradan qaldırılması (azaldılması) və təhsilalanların semestrlər üzrə

tədris yükünün proporsional bölgüsünün təmin olunması məqsədilə tədris planındakı fənlərin semestrlər üzrə bölgüsünə yenidən baxılması məqsədəuyğun hesab edilir.

Bundan əlavə keyfiyyət və müvəffəqiyyət göstəricilərinin yüksəldilməsi üçün aşağıdakı tövsiyələrin icrası məqsədəuyğun hesab edilir:

1. "ATMU-nun 2022-2026-cı illər üçün Strategiyası" adlı sənədin 2024-cü il üzrə Fəaliyyət Planında Məqsəd 4-də 4.2-ci prioritetə *(4.2. Tələbə nəticələrinin semestr boyunca monitorinqinin aparılması, nəticələrin təhlil olunması və zəif nəticə göstərən tələbələrə semestr müddətində müvafiq metodiki dəstəyin göstərilməsi*) görə qeyd olunan tədbirlərlə bağlı işlərin sürətləndirilməsi;

2. ATMU Elmi Şurasının 14.02.2023-cü il tarixli 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarının 2.2-ci bəndində qeyd edilən vəzifələrin daha dolğun həyata keçirilməsi məqsədilə *"ATMU-da tədris prosesinin monitorinqi komissiyası"*nın tərkibinin yenidən təsdiq edilməsi və komissiyanın işinin isə qaydalara uyğun yenidən təşkil edilməsi.

Digər bir iradla (***İrad 6.** Azərbaycan Turizm və Menecment Universitetində 050811 – Nəqliyyat servisi (nəqliyyat növləri üzrə) və 060804 – "Nəqliyyat servisi" (nəqliyyat növləri uzrə- "Aviasiya nəqliyyatında servis xidmətinin təşkili" (əyani) və "Dəmiryolu nəqliyyatında servis xidmətinin təşkili" (əyani)) bakalavriat və magistratura səviyyələrində mütəxəssis hazırlığının "İnformasiya texnologiyaları və təbiət elmləri" kafedrasına həvalə edilməsi məqsədəuyğun hesab edilməmiş və kafedranın adı ilə ixtisasın adındakı uyğunsuzluq göstərilmişdir.)* bağlı Hesabatda *(Ötən akkreditasiya zamanı göstərilən irad nəzərə alınaraq kafedranın adının "Nəqliyyat, İnformasiya kommunikasiya texnologiyaları və təbiət elmləri" adlandırılması məsələsi kafedranın 02 mart 2018-ci il tarixində keçirilən iclasında müzakirə olunmuş və qəbul edilmişdir.)* qeyd olunmuşdur.

Sahə səfəri zamanı həmin iradla bağlı təsdiqedici sənəd olaraq "İnformasiya texnologiyaları və təbiət elmləri" kafedrasının adının dəyişdirilərək "Nəqliyyat, İnformasiya, kommunikasiya texnologiyaları və təbiət elmləri" kafedrası adlandırılması haqqında ATMU Elmi Şurasının 30.04.2018-ci il tarixli Qərarını əsas tutaraq 04.05.2018-ci il tarixində imzalanmış 74-K nömrəli əmr təqdim edilmişdir. Hesabatda adı çəkilən 2 ixtisasla bağlı qəbulun 2021/2022-ci tədris ilindən etibarən dayandırılması faktı müvafiq illər üzrə qəbul planlarında öz əksini tapmasına baxmayaraq, həmin məlumatlara nə kafedranın (https://atmu.edu.az/az/neqliyyat-ikt-ve-tebiet-elmleri-kafedrasi-haqqinda), nə də kafedranın tabe olduğu fakültənin (SMF) (https://atmu.edu.az/az/sosial-menecment-fakultesi-umumi-melumat) saytında rast gəlinməmişdir.

Qeyd olunanları nəzərə alaraq, bu kimi hallarla bağlı ictimaiyyətin məlumatlandırma işinin yaxşılaşdırılması[9] və kafedranın adının tədrisi nəzərdə tutulan ixtisaslara uyğun olaraq yenilənməsi məqsədəuyğun hesab edilir.

Əvvəlki akkreditasiyada bildirilən **İrad 7** ilə *(Universitetin bir sıra kafedralarında dərs yükünün əsas hissəsi kənardan dəvət olunmuş əvəzçi və əmək haqqı saathesabı qaydada ödənilən müəllimlər tərəfindən yerinə yetirilir.)* bağlı hesabatda *(......ATMU-da dərs yükünün əsas hissəsinin universitetimizdə daimi əsaslarla fəaliyyət göstərən pedaqoji heyətə verilməsi*

---

[9] ATMU-nun saytında müvafiq dəyişikliklərin aparılması

*istiqamətində müsbət irəliləyiş əldə edilmişdir.)* qeyd olunmuşdur. Müvafiq iradla bağlı sahə səfəri zamanı 3.7.9-cu indikatora əsasən tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70%-dən çoxunun əsas iş yerinin ATMU olması vəziyyəti ilə tanış olduqda, əsas iş yeri ATMU olan əməkdaşların sayının 91, yəni 52% təşkil etdiyi məlum olmuşdur. Bu da həmin iradın aradan qaldırılması istiqamətində tədbirlərin görülməsində çətinlik yaradır.

Adı çəkilən iradın aradan qaldırılması və 3.7.9-cu indikatorun tələblərinə cavab vermək məqsədilə əsas iş yeri ATMU olan əməkdaşların sayının 52%-dən 70%-ə yüksəldilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi məqsədəuyğun hesab edilir.

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

ATMU-nun fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti ilə bağlı ÖH-də təhsilalanların rəylərinin öyrənilməsi məqsədilə ildə iki dəfə hər semestrin sonunda “Fənnin qiymətləndirilməsi sorğusu”nun və bununla yanaşı, müxtəlif strukturlar tərəfindən təcrübəçi tələbələrlə, müəssisələrdə təcrübə haqqında, strateji planlaşdırma ilə əlaqədar maraqlı tərəflərlə (tələbə, məzun, akademik heyət), təhsil proqramları və imtahanların təşkili ilə əlaqədar sorğuların keçirildiyi qeyd edilmişdir. Bundan əlavə, Keyfiyyət təminatı şöbəsi tərəfindən müxtəlif istiqamətlərdə maraqlı tərəflərlə sorğuların təşkil edildiyi və nəticələrinin təhlil edilərək hesabat verildiyi də ÖH-də qeyd edilmişdir.

ATMU tərəfindən ÖH-ə əlavə olaraq təqdim edilmiş “ATMU-da sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi” adlı 2 №-li excel fayldakı məlumatlarla tanış olduqda bəzi çatışmazlıqlar meydana çıxmışdır. Belə ki, həmin excel faylda yer alan 6 istiqamət üzrə 14 sorğudan ATMU-da 4 istiqamət üzrə 10 sorğu keçirildiyi qeyd olunmuşdur. Excel fayl təhlil edilərkən aydın olmuşdur ki, keçirilmiş 10 sorğudan cəmi 5-i üzrə tələb olunan məlumatlar tam təmin olunmuşdur. Keçirilmiş sorğu sayı ilə bağlı məlumatda isə yalnız akademik və inzibati heyət arasında keçirilmiş sorğu sayı ilə bağlı məlumatın “0” olduğu məlum olmuşdur (**Qrafik 2.5**).



**Qrafik 2.5 ATMU-da maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**[10]

Qrafik məlumatlarından da göründüyü kimi, hesabat dövründə 7 istiqamətdə cəmi 17 dəfə sorğu keçirilmişdir ki, bu da öz növbəsində sorğuların keçirilmə tezliyinin aşağı olduğunun göstəricisidir.

Bundan əlavə həm excel sənədində, həm də sahə səfəri zamanı bəzi sorğuların nəticələrinin dinlənildiyi Elmi və Rektoryanı Şuraların protokollarında sorğuda iştirak edən respondent sayının azlığı diqqət çəkən məqamlardan biri olmuşdur. Belə ki, yuxarıda da qeyd edildiyi kimi, ildə iki dəfə hər semestrin sonunda bakalavriat və magistratura səviyyəsindəki təhsilalanlar arasında keçirilən "Fənnin qiymətləndirilməsi sorğusu"nun 2021/2022-ci tədris ilinin payız semestri üzrə nəticələri ilə bağlı həm ATMU Elmi Şura 15.04.2022-ci il tarixli 05 saylı protokoluna, həm də KT şöbəsinin illik hesabatına əsasən 1841 nəfər təhsilalandan cəmi 285 nəfər iştirak etmişdir ki, bu da ümumi kontingentin 15.5%-i deməkdir. Diqqət yetiriləcək digər bir məqam isə  müvafiq sorğu ilə bağlı Elmi Şurada müzakirə zamanı respondent sayının azlığının optimal qərar verməyə mane olduğu və sorğunun nəticələrinin düzgün hesab edilmədiyi vurğulansa da yekun qərar olaraq sorğu nəticələri qəbul edilmişdir.

Yuxarıda qeyd olunları nəzərə alaraq, ATMU-nun fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi istiqamətində aparılacaq sorğuların hazırlanmasında *"Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi"* adlı excel sənədindəki məlumatların nəzərə alınması, sorğuların keçirilmə tezliyinin və sorğuda iştirak edəcək respondent sayının artırılması məqsədəuyğun hesab edilir.

## 2.3 Keyfiyyət təminatı mədəniyyəti

### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

ÖH-də də qeyd edildiyi kimi, ATMU-da qərarların qəbulu Elmi Şura vasitəsilə təsdiqləndiyi üçün rəhbərliyin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata  keçirən məsul şəxslərin universitetdə qəbul olunan qərarlarla bağlı məlumatlılığı, həmin qərarların icrasına nəzarəti və qərarların icra proseslərində iştirakı qaçılmazdır. Bundan əlavə, tədris prosesinin keyfiyyətinin artırılması, qarşıya çıxan məsələlərin operativ şəkildə həll olunması, universitetdaxili tapşırıqların icrasına nəzarət etmək məqsədilə 14.07.2022-ci il tarixli 126 nömrəli əmrlə yaradılmış, ATMU rektorunun sədrlik etdiyi və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin üzv olduğu Rektoryanı Şura da fəaliyyət göstərir.

ATMU-da akademik və inzibati heyətlə əlaqə korporativ e-maillər vasitəsilə aparılır. Həmçinin, Keyfiyyət təminatı üzrə Komissiyanın tərkibində bütün strukturlardan nümayəndələrin təmsilçiliyi təmin edilir. Bu məlumatlılıq, nəzarət və kommunikasiyanın qurulmasına dəstək olur.

[10] Müvafiq sorğuların hesabat dövründə ən azı 5 tədris ili üzrə hər semestrdə minimum 1 dəfə keçirilmə imkanı nəzərə alınaraq sorğuların maksimum say həddi 10 müəyyən edilmişdir.

Strukturlararası sənəd dövriyyəsi və səmərəli kommunikasiya şəbəkəsi Elektron Sənəd Dövriyyəsi vasitəsilə Ümumi şöbə tərəfindən tənzimlənməklə icra edilir.

### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

ATMU-da keyfiyyət təminatı sahəsində əks-əlaqə və keyfiyyətin müşahidəsi ilə bağlı aşağıda qeyd olunanlara uyğun olaraq bir neçə istiqamətdə fəaliyyətlər aparılmışdır:

- Maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi istiqamətində sorğuların keçirilməsi;
- Keyfiyyət təminatı prosedurlarının tətbiqi vəziyyətinin diqqətdə saxlanılması, daxili auditin keçirilməsi və Yekun Hesabatın hazırlanması məqsədilə Daxili Audit Komissiyasının yaradılması;
- Hotel sənayesi nümayəndələri arasında fokus qrup görüşlərin təşkil olunması;
- SİP sənədinin icrasının FP üzrə illik monitorinqi ilə bağlı "Strategiyanın monitorinq planı" təsdiq edilməsi;
- "ATMU-da tədris prosesinin monitorinqi komissiyası" tərəfindən "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarına əsasən monitorinqlərin keçirilməsi.

Yuxarıda qeyd olunanlara uyğun olaraq müxtəlif istiqamətdə aparılmış fəaliyyətlərin nəticəsi ilə əlaqəli digər indikatorlarda (1.1.3; 1.2.4; 2.2.8; 2.2.10; 2.2.11) müvafiq çatışmazlıqların olduğunu nəzərə alaraq, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması istiqamətində görülən işlər qənaətbəxş hesab edilmir. Buna görə də, 2.3.2-ci indikator üzrə gözləntilərin tam təmin edilməsi üçün adı çəkilən indikatorlardakı çatışmazlıqlara əsasən verilmiş tövsiyələrin icra edilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi məqsədəuyğun hesab edilir.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

ATMU-da keyfiyyətin təmin olunmasında rəhbərliyin töhfəsi və institusional dayanıqlılıqla bağlı Elmi və Rektoryanı Şurada aparılan müzakirələrin və qəbul edilən qərarların nəticəsində görülən iş və fəaliyyətləri qeyd etmək olar.

Müvafiq indikatorla bağlı, keyfiyyət təminatı ilə əlaqədar görüləcək bütün işlərin əvvəlcədən Elmi Şurada müzakirə edilməklə həyata keçirilməsi ÖH-də qeyd edilmişdir. Bu da ATM rəhbərliyinin qeyd edilən məsələyə öz töhfəsini vermək və institusional dayanıqlılığı təmin etməyə hesablanmış addım sayıla bilər.

Eyni zamanda ATMU-nun bütün sahələrdəki fəaliyyəti ilə bağlı qərarların vaxtında qəbulunu və optimallığını təmin edən rektor yanında operativ-məşvərətçi orqan olaraq, 25.05.2010-cu il tarixli 90-K nömrəli əmrlə təsdiq edilmiş Əsasnaməyə uyğun Rektoryanı Şura fəaliyyət göstərir ki, həmin Şuranın da sədri universitetin rektorudur.

Yuxarıda qeyd olunanları və hər iki Şuranın iş prosesini nəzərə alaraq, indikator üzrə gözləntilərin tam təmin edildiyi görülür.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

ATMU-da keyfiyyətin təmin olunmasında strukturlararası fəaliyyətin koordinasiyası bir neçə istiqamətdə aparılır. Belə ki, Keyfiyyət təminatı şöbəsi müvafiq struktur bölmələrlə birlikdə akademik və inzibati heyətin ehtiyaclarının müəyyənləşməsi üçün “Ehtiyacların müəyyənləşdirilməsi sorğusu”, eləcə də “Fənnin qiymətləndirilməsi”, “İctimaiyyətin məlumatlandıırlması” və “ATMU-da tələbə və müəllim məmnuniyyəti” sorğuların keçirilməsini təşkil edir.

Eyni zamanda ATMU-da İSO 9001:2015 – Keyfiyyət İdarəetmə Sistemi, İSO 21001:2018 – Təhsilin İdarəedilməsi standartları və TedQual sertifikatlaşmalarından keçərkən beynəlxalq tələblərə uyğun olaraq struktur bölmələrlə birlikdə vaxtaşırı daxili auditlər keçirilir. Həmiçinin strukturlararası fəaliyyətin koordinasiyası SİP-in monitorinq qaydalarına əsasən struktur bölmələrdən KT şöbəsinə hesabatların təqdim edilməsi ilə də həyata keçirilir.

Müvafiq indikatorla bağlı, struktur bölmələr arasında sənəd dövriyyəsinin ATMU-nun Ümumi şöbəsi tərəfindən sənədlərin skan edilərək e-maillər vasitəsilə göndərilməsi ilə həyata keçirildiyi və ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının məqsədlərindən olan idarəetmənin səmərəliliyinin yüksəldilməsi, universitetin ortaq vizyona, dəyərlərə əsaslanan brendinin yaradılması və digər məqsədlərə nail olunması üçün strukturlararası koordinasiyanın təkmilləşdirilməsi işi aparıldığı da ÖH-də qeyd edilmişdir.

# 3. TƏLİM VƏ TƏDRİS

## 3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

### 3.1.1. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ATMU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin illər üzrə ayrı-ayrı ixtisaslar üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin, digər nazirlik, komitə və təşkilatların tabeliyində olan ali təhsil səviyyələrinə tələbə qəbulunun təsdiq edilməsi haqqında qərarına, “Tələbə qəbulu üzrə proqnoz yerlərinin layihəsinin hazırlanması” daxili Qaydalara əsasən tənzimlənir. Belə ki, universitetdə Rektoryanı Şuranın 30 aprel 2018-ci il tarixli iclasında struktur rəhbərlərindən ibarət komissiya yaradılması təklif edilmiş, 07 sentyabr 2018-ci il tarixli iclasında tələbə qəbulu proqnozlarının hazırlanması üçün struktur rəhbərlərindən və əmək bazarı nümayəndələrindən ibarət Komissiya yaradılmış və proqnozların hazırlanma mərhələlərinin sxemi təsdiqlənmişdir. Sözügedən komissiya illər üzrə ayrı-ayrı ixtisaslar üçün tələbə qəbulunun təsdiq edilməsi və müvafiq plan yerlərin ayrılması ilə məşğul olur. Təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti mövcud standartlara əsasən uyğun olub, təhsilalanların əsas ehtiyaclarını qarşılamaqdadır.

Hər il avqust-sentyabr aylarında ATMU-nun Elmi Şurasında müzakirələr aparılaraq proqnozların təsdiqlənməsi üçün AR Dövlət Turizm Agentliyinə və AR Elm və Təhsil Nazirliyinə məktublar ünvanlanır.

Təhsilalanların ali təhsilin müxtəlif səviyyələrinə qəbulu prosesi Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş qaydalara əsasən aparılır. Sözügedən prosesin tənzimlənməsi müvafiq komissiya tərəfindən həyata keçirilir. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblər nəzərə alınır.

Universitetə sahə səfəri çərçivəsində sənədlərin verifikasiyası zamanı əvvəlki kvalifikasiyaların tanınması ilə bağlı qeyri-müəyyənliklərin olduğu komissiya tərəfindən müəyyən edilmişdir.

### 3.1.2. ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

ATMU-da tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi nəticəsində son 5 tədris ilində qəbul göstəriciləri aşağıdakı qrafiklərdə əks olunmuş, 2023-2024-cü tədris ili üçün bakalavriat üzrə 100%, magistratura üzrə 98% nəticə əldə edilmişdir.




**Şəkil 3.1** ATMU-da Bakalavriat səviyyəsi üzrə son 5 tədris illəri üçün tələbə qəbulu nəticələri (faizlə)




**Şəkil 3.2 ATMU-da Magistratura səviyyəsi üzrə son 5 tədris illəri üçün tələbə qəbulu nəticələri (faizlə)**

Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi müvafiq komissiya tərəfindən təmin olunur. Komissiyaya Tədris-metodik şöbə, aidiyyəti kafedra, Karyera və kommunikasiya şöbəsi, Xidmət şöbəsi və Kitabxana-informasiya mərkəzinin məsul əməkdaşları

daxildir. ATM sahə səfərləri zamanı əmək bazarının tələblərinin araşdırılması ilə bağlı sənədlər təqdim olunmuşdur.

Universitetdə son 5 tədris illəri üzrə tələbə qəbulunun orta nəticəsi bakalavriat səviyyəsində 93,4%, magistratura səviyyəsində isə 92,6% olmuşdur. Hər iki ali təhsil səviyyəsi üzrə son illərdə müsbət dinamika müşahidə olunmaqdadır.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Universitetdə tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşması üçün Rektoryanı Şuranın qərarı ilə yaradılmış komissiyada əmək bazarı nümayəndələrinin də təmsilçiliyinin olması nəzərdə tutulması ÖH-də qeyd olunmuşdur.

Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı nəzərdə tutulsa da, müvafiq komissiyanın tərkibində daimi sənaye nümayəndələri yoxdur. Sözügedən işgüzar tədbir və toplantılarda aparılan fikir mübadiləsi tövsiyə xarakteri daşıyır. Əmək bazarının və işəgötürələrin tələblərinə uyğun qəbul yerlərinin planlaşdırılmasını təsdiq edən statistik məlumatlar mövcud deyildir.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

ATMU-ya qəbul olunan subbakalavrların əvvəlki təhsilinin və kreditlərinin tanınması AR Nazirlər Kabinetinin "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydalarının təsdiq edilməsi" haqqında 20 may 2019-cu il tarixli 230 saylı Qərarının 5-ci bəndinə əsasən tənzimlənir və Elmi Şuranın 14 sentyabr 2022-ci il tarixli Qərarı ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinə qəbul olunan subbakalavrların kreditlərinin tanınması" Qaydalarına uyğun həyata keçirilir.

Universitetə qəbul olunan əlavə (ikinci) təhsil tələbələrinin əvvəlki təhsilinin və kreditlərinin tanınması Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən aparılır. Kreditlərin tanınmasında fərqlər yarandıqda təhsilalanlar üçün fərdi tədris planları tərtib olunaraq, həmin kreditin toplanması üçün şərait yaradılır. Sözügedən prosedur həmçinin Universitetin ikili diplom proqramı çərçivəsində də yaranmış kredit fərqlərinin aradan qaldırılması üçün tətbiq olunur.

Universitetə sahə səfəri çərçivəsində sənədlərin verifikasiyası zamanı əvvəlki kvalifikasiyaların tanınması ilə bağlı qeyri-müəyyənliklərin olduğu komissiya tərəfindən müəyyən edilmişdir.

## 3.2 Təhsil proqramları

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

ATMU-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na (https://e-qanun.az/framework/41438), 2011-ci il 14 iyun tarixli 95 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na (https://e-qanun.az/framework/21781), 2012-ci il 15 mart tarixli 65 saylı Qərarı ilə təsdiq edilmiş Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na (https://e-qanun.az/framework/23253) və 2018-ci il 18 iyul tarixli 311 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin (https://e-qanun.az/framework/39622) səviyyələrinə uyğun olaraq hazırda hər 3 səviyyədə (6-bakalavriat, 7-magistrtatura, 8-doktorantura (fəlsəfə doktoru və elmlər doktoru) kadr hazırlığı aparılır. Belə ki, hazırda universitetin profilinə uyğun AR Təhsil Nazirliyinin **bakalavriat** (əyani, qiyabi) səviyyəsi üzrə F-386 nömrəli əmri ilə təsdiq edilmiş Təhsil proqramları üzrə mövcud 10 ixtisas qrupunun 5-i üzrə 13 ixtisas olmaqla, **magistratura** səviyyəsi üzrə mövcud 10 ixtisas qrupunun 5-i üzrə 10 ixtisas, 13 ixtisaslaşma, **MBA proqramı** üzrə "Biznesin idarə edilməsi" ixtisası, Biznesin təşkili və idarə edilməsi ixtisaslaşması üzrə 4 istiqamət, **doktorantura** (əyani, qiyabi) səviyyəsi üzrə mövcud 25 elm sahəsinin 8-i üzrə 14 ixtisas olmaqla kadr hazırlığı həyata keçirilir.

| № | İxtisas qrupu | | İxtisasın şifri | İxtisasın adı | Şöbə |
|---|---|---|---|---|---|
| **1.** | 1. Humanitar və sosial | **1.** | 050201 | Beynəlxalq münasibətlər | əyani |
| | | **2.** | 050215 | Tərcümə (ingilis dili – Azərbaycan dili) | əyani |
| **2.** | 2. Mədəniyyət və incəsənət | **3.** | 050310 | Muzey, arxiv işi və abidələrin qorunması | əyani, qiyabi |
| **3.** | 3. İqtisadiyyat və idarəetmə | **4.** | 050404 | Dövlət və bələdiyyə idarəetməsi | əyani |
| | | **5.** | 050406 | Maliyyə | əyani |
| | | **6.** | 050407 | Marketinq | əyani |
| | | **7.** | 050408 | Menecment | əyani |
| | | **8.** | 050409 | Mühasibat | əyani |
| **4.** | 4. Texniki və texnoloji | **9.** | 050635 | Qida mühəndisliyi | əyani, qiyabi |
| **5.** | 5. Səhiyyə, rifah və xidmət | **10.** | 050806 | Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) | əyani |
| | | **11.** | 050807 | Sosial iş | əyani, qiyabi |
| | | **12.** | 050809 | Turizm bələdçiliyi | əyani, qiyabi |
| | | **13.** | 050810 | Turizm işinin təşkili* | əyani, qiyabi |

**Cədvəl 3.1 ATMU-da bakalavriat səviyyəsi üzrə kadr hazırlığının əhatəliliyi (2020/2021-2023/2024-cü tədris illəri)**

*** Müvafiq ixtisas üzrə üç tədris dilində (Azərbaycan, rus, ingilis) kadr hazırlığı həyata keçirilir.**

| № | İxtisas Qrupu | İxtisasın şifri | İxtisasın adı | № | İxtisaslaşmanın adı |
|---|---|---|---|---|---|
| **1.** | 1. Humanitar və sosial | 060213 | Beynəlxalq münasibətlər | **1.** | Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi |
| | | 060216 | Dövlət və ictimai münasibətlər | **2.** | İctimai siyasət |
| **2.** | 2.Mədəniyyət və incəsənət | 060301 | Muzeyşünaslıq, arxiv və abidələrin qorunması | **3.** | Muzeyşünaslıq* |
| | | | | | Arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi |
| **3.** | 3.İqtisadiyyat və idarəetmə | 060403 | Maliyyə | **4.** | Maliyyə nəzarəti və audit |
| | | | | | Maliyyə menecmenti |
| | | 060404 | İqtisadiyyat | **5.** | Turizmin iqtisadiyyatı |
| | | 060407 | Menecment | **6.** | Menecment (sahələr üzrə) |
| | | 060409 | Biznesin idarə edilməsi (MBA proqramı) | **7.** | Biznesin təşkili və idarə edilməsi:<br>- Turizm və otelçiliyin idarə edilməsi üzrə;<br>- Bank və sığortanın idarə edilməsi üzrə;<br>- Sosial işin texnologiyası üzrə;<br>- Ərzaq məhsullarının keyfiyyətinin idarə edilməsi üzrə |
| **4.** | 4. Texniki və texnoloji | 060642 | Qida məhsulları mühəndisliyi | **8.** | Qida təhlükəsizliyi |
| **5.** | 5. Səhiyyə, rifah və xidmət | 060803 | Turizm və otelçilik | **9.** | Turizm işi* |
| | | | | **10.** | Otelçilik |
| | | | | **11.** | Beynəlxalq turizm və ölkəşünaslıq* |
| | | 060805 | Sosial iş | **12.** | Əhalinin sosial müdafiəsi |
| | | | | **13.** | Əhalinin əmək və həyat şəraitinin yaxşılaşdırılması |

**Cədvəl 3.2 ATMU-da magistratura səviyyəsi üzrə kadr hazırlığının aparıldığı ixtisaslaşmalar (2022/2023-2023/2024-cü tədris illəri)**

Müvafiq ixtisaslaşmalar üzrə iki tədris dilində (Azərbaycan, ingilis) kadr hazırlığı həyata keçirilir.

| № | Elm sahələri | № | İxtisasın şifri | İxtisasın adı |
|---|---|---|---|---|
| **1.** | 53. İqtisad elmləri | **1.** | 5304.01 | İqtisadi fəaliyyət növləri |
| | | **2.** | 5308.01 | Ümumi iqtisadiyyat |
| | | **3.** | 5311.01 | Müəssisələrin təşkili və idarə olunması |
| | | **4.** | 5312.01 | Sahə iqtisadiyyatı |

| | | | | |
|---|---|---|---|---|
| **2.** | 54. Coğrafiya | **5.** | 5402.01 | Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası |
| **3.** | 56. Hüquq elmləri | **6.** | 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları |
| **4.** | 57. Filologiya elmləri | **7.** | 5708.01 | German dilləri |
| **5.** | 58. Pedaqogika | **8.** | 5802.01 | Təhsilin təşkili və planlaşdırılması |
| **6.** | 59. Siyasi elmlər | **9.** | 5901.01 | Beynəlxalq münasibətlər |
| | | **10.** | 5909.01 | Dövlət idarəçiliyi |
| **7.** | 62. Sənətşüşaslıq | **11.** | 6219.01 | Kulturologiya və onun ümumi məsələləri |
| | | **12.** | 6220.01 | Muzeyşünaslıq |
| **8.** | 63. Sosiologiya | **13.** | 6307.01 | Sosial dəyişiklik və inkişaf |
| | | **14.** | 6310.01 | Sosial problemlər |

**Cədvəl 3.3 ATMU-da doktorantura (dissertantura) üzrə kadr hazırlığının aparıldığı ixtisaslar (2020/2021-2023/2024-cü tədris illəri)**

Həmçinin, ATMU-da ali təhsilin müvafiq səviyyələri üzrə qazanılmış kompetensiyaların (səriştələrin) yeniləşdirilməsini, təkmilləşdirilməsini və şaxələndirilməsini təmin edən əlavə təhsil üzrə də (mövcud bakalavr ixtisasları üzrə) kadr hazırlığı həyata keçirilir. Yuxarıda göstərilənlərə əsasən qeyd etmək olar ki, ATMU-da kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi universitetin profilinə uyğun “Azərbaycan Respublikasının ömürboyutəhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin 6,7,8-ci səviyyələri üzrə optimal həyata keçirilməkdədir.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

ÖH-də və sahə səfərləri zamanı ATMU təhsil proqramlarının əmək bazarına və cəmiyyətin tələblərinə uyğunluğunu təmin etmək üçün yeni hazırlanan proqramlarda indikatorun tələbinə uyğun işlərin görüldüyü öz təsdiqini tapmışdır. Bir sıra ixtisaslar üzrə tədris olunan təcrübi fənlərin otel şəbəkələrində və qida təhlükəsizliyi müəssisələrində tədrisi həyata keçirilməsi komissiya tərəfindən verifikasiya olunmuşdur. Tədris planlarının və seçmə fənlərin tədrisində əmək bazarına uyğunluğun təmin olunması Akkreditasiya Komissiyası tərəfindən tövsiyə olunur.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

ATMU-da kadr hazırlığı aparılan ixtisasların müvafiq səviyyələr üzrə (6, 7, 8) “Azərbaycan Respublikasının ömürboyutəhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə uyğun aparılır. Eyni zamanda, maraqlı tərəflər üçün məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələrinin əlçatanlığı müxtəlif üsullarla (rəsmi sayt, sosial şəbəkələr, korporativ e-maillər, yaddaş kitabçaları və s.) təmin edilir.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

ATMU-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə uyğun olaraq 6, 7 və 8 səviyyələr üzrə aparılır.

ATMU-da tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu fənlərin təlim nəticələrində və proqramlarında öz əksini tapmış və ATM-in rəsmi internet saytı https://atmu.edu.az/az/tedris-metodiki-sobe-11111 vasitəsilə əlçatanlığı təmin edilmişdir. Təhsil proqramına daxil olan fənlər üzrə gözlənilən təlim nəticələri proqram və sillabuslarda öz əksini tapmışdır.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

ATMU-da tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunun təmin edilməsi məqsədilə ixtisaslar üzrə kompetensiya xəritələri, fənlərin təlim nəticələrinin proqramın təlim nəticələrinə (ümumi və peşə kompetensiyaları ayrılıqda nəzərə alınmaqla) uyğunluğunun matrisi hazırlanmış və Universitetin rəsmi saytı https://atmu.edu.az/az/tedris-metodiki-sobe-11111 vasitəsi ilə əlçatanlığı təmin edilmişdir. Təhsil proqramına daxil olan fənlər üzrə gözlənilən təlim nəticələri proqram və sillabuslarda təmin olunmuşdur. ATM-də ixtisaslar üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğun təyin edilməsi məqsədilə təhsil proqramlarının özünütəhlili aparılır.

Bununla yanaşı, Akkreditasiya Komissiyası tərəfindən bəzi təhsil proqramlarında oxşarlıq və təkrarçılığın olması müşahidə edilmişdir.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Universitetdə kadr hazırlığı aparılan ixtisaslar üzrə dərs saatlarının bölgüsü AR Təhsil Qanunvericiliyinin tələblərinə və AKTTS-nin prinsiplərinə uyğun olaraq həyata keçirilir. Sahə səfəri zamanı təhsil proqramları üzrə həm bakalavr, həm magistratura səviyyələri üzrə tədris planı (Forma 1), Tədris qrafiki (Forma 2), ixrisas üzrə illik işçi tədris planlarına (Forma 3) baxılmışdır. Belə ki, ATMU-da bakalavr səviyyəsi üzrə kadr hazırlığı aparılan təhsil proqramları üzrə ümumi fənlər üzrə (30 kredit), ixtisas fənləri (120 kredit), ATMU tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) (60 kredit) olaraq 3 qrupa, təcrübə blokunda yer alan fənlər üzrə 30 kredit olmaqla cəmi 240 kredit olaraq müəyyənləşdirilmişdir. Magistratura səviyyəsi üzrə isə 120 kredit olaraq müəyyənləşmişdir.

Nümunə; Bakalavr Forma 1 https://atmu.edu.az/upload/magazine/2023/12/26//-e8e5f712170359513063795315310122787.pdf

Nümunə; Magistratura Forma 1

https://atmu.edu.az/upload/magazine/2024/01/25//-842424a1170617978911496544210893585.pdf

Dərs saatları beş günlük iş rejimində təyin olunmuşdur. Həftəlik auditoriyadankənar və auditoriyada ümumi dərs yükünün həcmi 45 saat təşkil edir. Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-ni aşmır. Akademik dərs saatı 45 dəqiqə təşkil edir. Bütün növ dərslər üçün 2 akademik saat 90 dəqiqə təşkil edir. Tələbələrə təcrübə və magistr dissertasiyasına ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. Bu da Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə tam uyğundur.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Akkreditasiya Komissiyasına təqdim olunmuş ÖH-də ATMU-da tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il 75 saylı Qərarının (https://e-qanun.az/framework/19531) 8.4. bəndinə və Azərbaycan Respublikası Təhsil Nazirliyinin müxtəlif ixtisas qrupları üçün təsdiq etdiyi təhsil proqramlarının 3-cü bəndinə əsasən tənzimlənməsi müəyyən edilmişdir. Həmçinin təhsil proqramlarının tələblərinə əsasən bakalavriat ixtisasları üzrə tərtib olunan Tədris planlarında ümumi fənlər, ixtisas fənləri, ali təhsil müəssisəsi tərəfindən təyin olunan fənlər, təcrübə və yekun attestasiya işləri, magistratura ixtisasları üzrə isə ixtisas (ixtisaslaşma) fənləri bölümü və elmi-tədqiqat işləri bölümü ayrılmış, kreditlər təhsil proqramında göstərilmiş şəkildə tənzimlənmişdir.

Komissiya tərəfindən "Ali təhsil müəssisəsi tərəfindən təyin olunan fənlər" bölümündə yer alan fənlərin ixtisasların təhsil proqramında göstərilən kompetensiyalarla uyğunsuzluğu eləcə də oxşarlığın olduğu müəyyən edilmişdir. Bu fənlərin bir neçəsi aşağıda qeyd olunub: Məsələn, "Turizm bələdçiliyi" ixtisasında "Turizm məhsulunun hazırlanması", "Turizmdə vasitəçilər", "Turizm marşrutları və ekskursiya işinin təşkili" fənn proqramlarında "Azərbaycanın regionlar üzrə turizm marşrutları və bölgələr üzrə turizm imkanları" fənləri üzrə təkrarların olduğu ekspertlər tərəfindən müəyyən edilib.

Bundan əlavə "Turizm işinin təşkili" ixtisasında "İnformasiya texnologiyaları və "İnformasiyanın idarə edilməsi" fənlərindən oxşarlıq, "Turizm hüququ" ilə "Turizm siyasəti və planlaşdırılması" fənni üzrə oxşarlıq, Otellərə bağlı olan fənlərdə də eyni oxşarlıq halları müəyyən olunub. "Qonaqpərvərlik sənayesində dizayn və idarəetmə" fənni ilə "Qonaqpərvərlik sənayesində innovasiya" fənlərinin proqramlarında da oxşarlıq halları aşkar edilmişdir.

"Müalicə sağlamlıq turizmi" ilə bağlı olan fənn proqramı isə ADTA hesabatı olsa da, plagiat olaraq istifadə edilir.

Təəssüf ki, ATMU-nun veb səhifəsində otellərlə bağlı və eləcə də bəzi fənlərin qısa icmalı yoxdu.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

ATMU-da həm bakalavriat, həm magistratura ixtisasları üzrə hazırlanmış tədris planlarında həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarı təhsil proqramlarının tələblərinə uyğunlaşdırılmışdır. Belə ki, bir semestrə, tədrisə tam cəlb olunan (fulltime) tələbəyə 30 (tələbənin prerekvizit fənn və ya fənlərdən akademik borcu qaldığı halda, kreditlərin sayı az ola bilər) kredit müəyyənləşdirilir.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

ATMU-da təhsil proqramı və onun icrası nəticəsində əldə olunan təlim nəticələri ictimaiyyət və maraqlı tərəflərin əlçatanlığı rəsmi sayt (https://atmu.edu.az/az/) vasitəsilə təmin olunmuşdur (https://atmu.edu.az/az/tedris-metodiki-sobe-11111). Belə ki, qeyd olunan internet resurslarından kadr hazırlığı, təlimin nəticələri və matrisi, fənlərin təsviri və sillabuslar kafedralar üzrə yerləşdirilmişdir. ATMU-nun qəbul qaydaları, kadr hazırlığı, ixtisaslar üzrə əldə olunacaq təlim nəticələri kollec və ümumtəhsil məktəblərində görüşlər keçirilməklə təbliğ olunduğu müəyyən edilmişdir.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Təqdim olunan ÖH-də ATMU təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin və maraqlı tərəflərin iştirakının təmin olunması qeyd olunur. ATM-ə sahə səfəri zamanı təhsil proqramlarının hazırlanmasında əmək bazarının tələbləri nəzərə alınmaqla yanaşı, sənaye nümayəndələrinin iştirakının təmin olunduğu müəyyənləşdirilmişdir. Eyni zamanda, əmək bazarı nümayəndələrinin tədris prosesinə cəlb olunduğu və bəzi ixtisas üzrə dərslərin otellər və qida sənayesi müəssisələrində keçirildiyi müəyyən olunmuşdur.

Eyni zamanda, bəzi tədris proqramlarının və seçmə fənlərin əmək bazarının tələblərinə uyğunsuzluğu müşahidə edilmişdir. Bu qeydlə bağlı 3.2.7 saylı indikatorda məlumat yer almışdır. Bununla bağlı linklər yerləşdirilmişdir.

## 3.3 Tədrisin təşkili

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

ATMU-da tərtib edilən Tədris Planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının 3.1.2.1. yarımbəndinə əsasən ali təhsilin müvafiq səviyyələrində ixtisas

(ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris olunan fənlərə və auditoriyadankənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəddir.

Həmçinin bütün səviyyələr üzrə tərtib olunan tədris planları ATMU-nun rəsmi səhifəsində yerləşdirilmiş, maraqlı tərəflər üçün əlçatanlığı təmin edilmişdir.

Tədris planları mövcud kredit sistemi qaydalarına uyğun tərtib edilir. Tədris planlarının tərtib edilməsində və kreditlərin bölgüsündə təhsilalanların auditoriya və auditoriyadankənar fəaliyyəti ilə yanaşı, digər amillər də nəzərə alınır.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

ATMU-da ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri üzrə bölgüsünü əks etdirən ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının 3.1.2.2-ci yarımbəndi rəhbər tutularaq hər bir ixtisas (ixtisaslaşma) üzrə Tədris Planlarına müvafiq hazırlanmışdır. İxtisasın (ixtisaslaşmanın) tədris qrafikinin strukturu AR Təhsil Nazirliyinin 21 yanvar 2014-cü il tarixli 40 nömrəli əmri ilə təsdiq etdiyi formalara uyğun tənzimlənmişdir.

İxtisaslar (ixtisaslaşmalar) üzrə tədris planına daxil olan fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki mövcuddur. Lakin, tədris planlarının Elmi Şurada təsdiq olunmasını təsdiq edən sənədlər tam deyildir.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

ATMU tərəfindən tərtib edilən tədris planlarında fənlərin bölgüsü müvafiq ixtisaslar (ixtisaslaşmalar) üzrə AR Təhsil Nazirliyinin Kollegiyası tərəfindən təsdiq edilmiş təhsil proqramlarındakı bölmələr üzrə tələb olunan ümumi kreditlərin sayına uyğunlaşdırılmışdır.

ATM-də məcburi və seçmə fənlərin bölgüsü mövcud qanunvericiliyin tələblərinə əsasən aparılır.

Fənlərin məzmununun mənimsənilmə ardıcıllığı gözlənilməklə tədris planları üzrə qruplaşdırılması həyata keçirilir.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

ÖH-də ATMU-da tədris planlarında ümumi və ixtisas fənlərinin bölgüsü müvafiq ixtisaslar (ixtisaslaşmalar) üzrə AR Təhsil Nazirliyinin Kollegiyası tərəfindən təsdiq edilmiş təhsil proqramlarındakı bölmələr üzrə tələb olunan ümumi kreditlərin sayına uyğunlaşdırılmış və fənlərin məcburiyyəti, məntiqi ardıcıllığı nəzərə alınaraq tərtib edilməsi qeyd olunmuşdur.

ATMU-da ali təhsilin magistratura səviyyəsində isə ixtisas (ixtisaslaşma) fənlər bölümünün kredit miqdarı artırılmışdır. Bu, təhsilalanların ixtisas bacarıqlarına yiyələnməsində mühüm rol oynamasına baxmayaraq, ümumi və ixtisas (ixtisaslaşma) fənləri arasındakı balansı qismən pozulmuşdur.

**3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti**

ATMU-da fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi üçün ixtisaslar üzrə kompetensiya xəritələri, AR Təhsil Nazirliyinin Kollegiyasının 2020-ci ildə təsdiq etdiyi Təhsil Proqramlarının Əlavələrinə (1, 2, 3) uyğun olaraq Tədris Planlarında yer alan hər bir fənnə müvafiq sənədlər hazırlanmış və Universitetin Tədris-metodiki Şurasında müzakirə olunaraq, qiymətləndirilərək təsdiq edilmişdir.

ATM-də fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi təhsil proqramı və fənlər üzrə təlim nəticələri cədvəli, matrisi və qiymətləndirmə üsulları cədvəli əsasında aparılır. Prosesin monitorinqi Tədris-metodik şöbə tərəfindən həyata keçirilir.

**3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti**

Universitetin Tədris-metodiki Şurasının qərarına əsasən ixtisasın (ixtisaslaşmanın) tədris planında yer alan bütün fənlərin sillabuslarında müvafiq bölmələrin yer almasına kafedralar tərəfindən nəzarət olunur. Hər tədris ilində müəllimlər tərəfindən tərtib edilən sillabuslar kafedralarda fəaliyyət göstərən Fənn Komissiyaları tərəfindən müzakirə edilir, fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi yoxlanılır, uyğun olmayan təlim nəticələri müəyyən edilərsə düzəliş edilərək müzakirə və təsdiq üçün Fakültə Tədris-Metodiki Şurasına təqdim edilir.

Fənnin təlim nəticələri fənn sillabuslarında öz əksini tapır. Sözügedən prosesə aidiyyəti kafedralar nəzarət edir və sillabusların yenilənməsi fakültə tədris-metodiki şuralarında həyata keçirilir.

**3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

ATMU-da tərtib olunan tədris planlarında həftəlik dərs yükünün miqdarı “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il 75 saylı Qərarının 8.7-ci bəndinə və 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının 3.2.2-ci

yarımbəndinə əsasən tənzimlənir və universitetdə tələbələrin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi cəmi 45 saat təyin olunur ki, onun da aktiv (auditoriyadaxili) hissəsi ümumi saatların 50%-ni aşmır.

ATM-də tədris planları tərtib olunarkən semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına nəzarət mexanizmi mövcuddur. Sözügedən proses Nazirlər Kabinetinin təsdiqlədiyi müvafiq qaydalara uyğun təşkil olunur.

Sahə səfəri zamanı komissiya tərəfindən dərs cədvəlləri ilə tanış olunmuş, günlük dərs yükünün 6 akademik saatı keçmədiyi və dərslərin ardıcıl təşkil olunduğu faktları təsdiqini tapmışdır.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

ATMU-da tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən tələbənin fərdi tədris planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının 3.1.2.4-cü yarımbəndi rəhbər tutularaq hər tədris ilində tələbələr üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında akademik məsləhətçilərin (tyutorlar) köməyi ilə tərtib edilir.

ATM-də tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planları mövcuddur və müvafiq qaydada təsdiq olunmuşdur. Fərdi tədris planları tələbələrin iştirakı ilə tərtib olunur və onların imzası ilə təsdiqlənir.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

ATMU-da ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının 3.1.2.3-cü yarımbəndi rəhbər tutularaq hər bir ixtisas (ixtisaslaşma) üzrə tədris planlarına müvafiq hazırlanmışdır. ATM-də ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planları mövcuddur. İşçi tədris planları ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari

tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirir.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

ATMU-da müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının 3.1.2.5-ci yarımbəndi rəhbər tutularaq hər bir ixtisas (ixtisaslaşma) üzrə tədris planlarına və tələbələrin fərdi tədris planlarına müvafiq hazırlanmışdır. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planı mövcuddur. Müəllimin illik işçi tədris planı Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun hazırlanır və təsdiq olunur.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

ATMU-da tədris və öyrənmə mühiti tələbələrin müvafiq təhsil proqramlarında nəzərdə tutulan təlim nəticələrinə yiyələnməyinə cavab verir. Belə ki, ixtisasların təhsil proqramlarında nəzərdə tutulmuş fənlər üçün tətbiq edilən tədris və öyrənmə metodları fənni tədris edən akademik heyətin sillabuslarında aydın şəkildə təsvir edilmişdir. Tədris növləri üzrə təqdim edilən metodlar keyfiyyət təminatı sisteminin bir hissəsi olaraq kafedra iclaslarında, tədris-metodiki şuralarda müntəzəm olaraq müzakirə edilərək innovativ təcrübələrin nəticələrinə uyğun təkmilləşdirilir.

Tədrisin təşkili tədrisin növünə uyğun sillabusda göstərilmiş tədris metodları əsasında həyata keçirilir. Tədris növünə uyğun dərslərin təşkilində müasir tədris metodları və innovasiyalar tətbiq olunur. Tədrisin təşkilində təhsilalanların araşdırma bacarıqlarının və təhliletmə qabiliyyətlərinin təşviq edilməsinə önəm verilir.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

Univerisitetdə məsləhət xidməti tələbə mərkəzli təhsil sisteminin prinsipləri və “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 5-ci fəsli əsas götürülərək təşkil edilir.

ATM-də tədris prosesi ilə əlaqədar məsləhət xidməti akademik məsləhətçilər (tyutorlar) tərəfindən təşkil olunur. İmtahanqabağı tələbələrin hazırlıq səviyyəsinin yüksəldilməsi və əlavə məşğələlərin təşkili məqsədi ilə fənn müəllimləri tərəfindən məsləhət saatları təşkil olunur.

Yekun Dövlət Attestasiyasına hazırlıq məqsədi ilə son kursda təhsil alan tələbələr üçün yaz semestrində müvafiq fənlər üzrə icmal mühazirələr təşkil olunur.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

ATMU-da 2021-2022-ci tədris ilindən etibarən ATMU-nun "Qiymətləndirmə və imtahan qaydaları əsasnaməsi"nə əsasən imtahanaqədərki qiymətləndirmədə dəyişiklik edilmiş, sərbəst işlərin əlavə qiymətləndirilməsi aparılmasa da, seminar qiymətləndirilməsi zamanı müəllimlər tərəfindən tələbələrin sərbəst işləməsi üçün müxtəlif üsullardan (tapşırıq, qrup işi, keys üsulu, layihə hazırlığı, təqdimat, məlumatların analizi və s.) istifadə edilir. Sərbəst işlərin hazırlanması müxtəlif üsullarla (tapşırıq, qrup işi, keys üsulu, layihə hazırlığı, təqdimat, məlumatların analizi və s.) həyata keçirilir. Tapşırıqlar üzrə toplanmış ballar yekun qiymətləndirməyə təsir edir. Sərbəst işlərin təqdimatı üçün müasir avadanlıqlardan istifadə olunur.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

ATMU-da "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"yə əsaslanaraq fakültələr və ixtisas kafedralarının birgə təşkilatçılığı ilə istehsalat təcrübəsi prosesi həyata keçirilir.

Bütün müəssisələr ilə istehsalat təcrübəsi üzrə (yaz semestri başlananadək) müqavilələr imzalanır. Tələbələr təcrübəsini yekunlaşdırdıqdan sonra sənədlər toplanılır. Yekun qiymətləndirmə ixtisas kafedralarında aparılır.

Təcrübələr universitetdən kənarda müxtəlif elmi-tədqiqat institutlarında, o cümlədən hotel, turizm agentlikləri və s. sənaye müəssisələrində təşkil olunur. Magistrantların elmi-tədqiqat və elmi-pedaqoji təcrübəyə cəlb olunması məqsədi ilə AMEA-nın və digər ATM-lərin müvafiq elmi-tədqiqat institutları və mərkəzləri ilə əlaqələr mövcuddur.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

ATMU-da stajkeçmənin təşkilini tənzimləmək məqsədilə "Akademik Heyətin Təkmilləşdirilməsi Proseduru" 22 dekabr 2022-ci ildə təsdiq edilmiş və büdcə planlamasında akademik heyətini təkmilləşdirilməsi üçün illik vəsaitlərin ayrılması nəzərdə tutulmuşdur.

| Tədris ili | Stajkeçmə və ixtisasartırma kurslarında iştirak edənlərin sayı |
|---|---|
| 2017/2018 | 1 |
| 2018/2019 | 13 |
| 2019/2020 | 18 |

| | |
|---|---|
| 2020/2021 | 4 |
| 2021/2022 | 8 |
| 2022/2023 | 60 |
| 2023/2024 | 120 |
| **CƏMİ** | **224** |

**Cədvəl 3.4 Stajkeçmə və ixtisasartırma kurslarında iştirak edənlərin sayı**

Stajkeçmə və ixtisasartırma kurslarına cəlb olunanların sayında müsbət dinamika müşahidə olunur. Xüsusi ilə postpandemiya dövründə bu kurslara cəlb olunanların sayında proqressiv artım müşahidə olunmuşdur. Hesabat dövründə stajkeçmə və ixtisasartırma kurslarında iştirak edənlərin 80%-dən çoxu məhz son iki ildə bu prosesə qoşulanlardır.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

ATMU-da ixtisaslar üzrə tədris planlarına əsasən tələbələrə kurs işi layihələri verilir, onların mövzuları və rəhbərləri kafedra iclasında və fakültə şurasında təsdiq edilir və kafedrada təşkil olunan komissiya qarşısında müdafiələri həyata keçirilir.

ATM-ə sahə səfəri zamanı tələbələrin yerinə yetirdikləri kurs işləri ilə tanışlıq həyata keçirilmişdir.

Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi mövcud qaydalara və universitetin təyin etdiyi daxili normalara əsasən aparılır. Təhsilalanlara kurs işlərini və digər tədqiqat layihələrinin hazırlanması məqsədi ilə kitabxanaya elektron giriş imkanı və kompüterlərdən istifadə şəraiti yaradılmışdır. Lakin, kurs işlərinin adında və məzmununda bir sıra tərcümə, metodoloji və elmi boşluqlar vardır.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

ATMU-da buraxılış işi və magistrlik dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikasının təhsil nazirinin 1997-ci il 27 yanvar tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavriat səviyyəsində Dövlət Attestasiyası haqqında Əsasnamə” və Azərbaycan Respublikasının təhsil nazirinin 1998-ci il 20 aprel tarixli 202 nömrəli əmri ilə təsdiq edilmiş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydası haqqında Əsasnamə” ilə tənzimlənir.

Magistr dissertasiyaları antiplagiat sistemi vasitəsi ilə yoxlanılır və müsbət rəy alan işlər müdafiəyə buraxılır. Lakin, buraxılış işi və magistr dissertasiyalarının adlarında ümumi xarakterli qüsurlar (tərcümə səhvləri, metodoloji xətalar və s.) vardır.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

ATMU-da imtahan prosesinin təşkili Təhsildə qiymətləndirmə şöbəsinin koordinasiyası ilə həyata keçirilir. Təhsildə qiymətləndirmə şöbəsi (TQŞ) ATMU Elmi Şurasının 15 fevral 2022-ci il tarixli iclasında təsdiq olunmuş Əsasnaməyə uyğun olaraq ATMU-da imtahan sessiyası

təşkilinin ümumi koordinasiyasını həyata keçirir. ATMU-da imtahan sessiyasından öncə hazırlıq prosesi universitetin Elmi Şurasında müzakirə edilir və imtahan sessiyasının təşkili ilə bağlı müvafiq strukturlara tapşırıqlar verilir.

ATMU-da imtahan sessiyasının təşkili elektronlaşdırılmışdır. İmtahanlar universitetin 2 saylı tədris korpusunda həyata keçirilir. İmtahanların nəticələri barədə Elmi Şura səviyyəsində müzakirələr aparılır və müvafiq qərarlar qəbul edilir.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

ATMU-da yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarının 3.4-cü bəndinə əsasən tənzimlənir.

Yay semestri yaz semestri başa çatdıqdan sonra nəzəri təlimlər, imtahanlar daxil olmaqla 6 həftə ərzində ödənişli əsaslarla təşkil olunur. Bu zaman yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditlərin cəminin 10-dan artıq olmamasına diqqət yetirilir. Yay semestrində iştirak edəcək tələbələr və onlara tədris aparacaq müəllimlər haqqında təqdimat fakültələr tərəfindən hazırlanaraq əmrləşir. Yay semestrinin təşkili mövcud qanunvericiliyin tələblərinə uyğun aparılır. Kredit borcu yaranmış tələbələrə yay məktəbi hesabına kredit borclarını bağlamaları üçün imkan yaradılır.

### 3.3.20 Akademik borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Hər imtahan sessiyasının sonunda Təhsildə qiymətləndirmə şöbəsi tərəfindən göndərilən imtahan nəticələri kafedra iclaslarında, Elmi Şurada müzakirə olunur və fakültələr tərəfindən təqdim olunmuş müvafiq göstəricilər əsasında Elm və Təhsil Nazirliyinə, Dövlət Turizm Agentliyinə təqdim olunması üçün hesabat hazırlanır. Bu hesabatlarda kredit borcu olan tələbələrin müvafiq tədris ili üzrə aşağıdakı göstəriciləri öz əksini tapır:




**Şəkil 3.3 ATMU üzrə kredit borcu olan tələbələrin son 5 tədris illəri üzrə dinamikası (nəfər, bakalavriat)**




**Şəkil 3.4 ATMU üzrə kredit borcu olan tələbələrin son tədris illəri üzrə dinamikası (nəfər, magistratura)**

Akademik borcu yaranmış tələbələrin statistikası mövcuddur. Post-pandemiya dövründə akademik borcu olan tələbələrin sayında artım müşahidə edilmişdir.

### 3.3.21 Akademik borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Hər tədris ilinin imtahan sessiyasından sonra fənlər üzrə yaranmış akademik borclar barədə kafedra iclaslarında müntəzəm müzakirələr təşkil edilir, fənlər üzrə keyfiyyət və müvəffəqiyyət göstəricilərinin nəticələri kafedra əməkdaşlarının diqqətinə çatdırılır və problemlərin həlli yönündə təkliflər verilərək qərarlar qəbul olunur.

2022-2023-cü tədris ilindən başlayaraq Təhsildə qiymətləndirmə şöbəsi tərəfindən kafedralardan fənlər üzrə kəmiyyət və keyfiyyət göstəriciləri əldə olunaraq bu istiqamətdə ümumi hesabatlar hazırlanmaqdadır. “2022/2023-cü tədris ilinin payız semestri qış imtahan sessiyasının yekun hesabatı: Kafedralar tərəfindən təqdim olunmuş Yekun hesabat sənədləri”, “2022/2023-cü tədris ilinin yaz semestri yay imtahan sessiyasının Yekun hesabatı: Kafedralar tərəfindən təqdim olunmuş yekun hesabat sənədləri” əsasında kredit borcu yaranmış fənlərin ümumi həcminin 2022-2023-cü tədris ili üzrə dinamikası aşağıdakı kimi əldə olunmuşdur:




**Şəkil 3.5 ATMU-da kafedralar üzrə 2022/2023-cü tədris ilində kredit borcu yaranmış fənlərin dinamikası (ədəd)**

Akademik borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikasını əks etdirən məlumatlar mövcuddur. Akademik borcu yaranmış fənlər barədə mütəmadi müzakirələr aparılır.

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATMU-da bütün strukturlar üzrə aparılan fəaliyyətlərə dair müvafiq prosedur sənədlər (qayda, təlimat, prosedur və s.) hazırlanmışdır. Hazırlanan sənədlər "Azərbaycan Turizm və Menecment Universitetinin fəaliyyətinin tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurlar toplusu" şəklində ümumiləşdirilmiş və özündə 45 adlı proseduru birləşdirmişdir. Müvafiq prosedur sənədi daxilində ATMU-da tədris prosesilə bağlı tətbiq edilən normaları əhatə edir. Sözügedən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi məqsədi ilə daxili və kənar audit təşkil olunur. Bununla əlaqədar beynəlxalq standartlara əsaslanan audit yoxlamaları aparılır.

## 3.4 Tədris metodları və üsulları

### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

ATMU-ya sahə səfəri çərçivəsində iştirak edilən dərslərin əksər hissəsində innovativ, yaradıcı, interaktiv metodlardan istifadə edildiyi, mövzular üzrə təqdimatların hazırlandığı, tələbələrin təlim və tədris prosesində iştirakı, yazılı tapşırıqlar, sorğular və açıq mühazirə metodlarının tətbiq edildiyi müşahidə edilmişdir. Fənlərin tədrisində mühazirə və prezentasiya üsulları ilə yanaşı, mövzu ilə əlaqəli müzakirələr və fikir mübadiləsi aparılır. Universitetin turizm işinin təşkili və otelçilik ixtisasları üzrə təhsil alan tələbələri üçün daha interaktiv dərslərin təşkil edilməsi məqsədi ilə resurs mərkəzində hotelin qəbul və qeydiyyat xidmətinin göstərilməsi üçün iş masası və bar quraşdırılmışdır.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Düzgün tədris metodlarının seçilməsi tələbələrin yaradıcı düşünmə bacarıqlarının inkişaf etdirilməsi, mövzuların analiz edilməsi ilə müstəqil fikir bildirmə bacarıqlarının artırılması olduqca vacib amillərdəndir. ATMU-da sahə səfəri zamanı müşahidə edilən, baxış keçirilən bəzi dərslərdə tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyətini qənaətbəxş hesab etmək olar.

Dərslərdə tələbənin aktivliyini təmin etmək üçün müəllimlər müxtəlif üsullardan istifadə edirlər. Dərsdə iştirak edən tələbələr müzakirələrə cəlb olunur, praktikada iştirak edən tələbələrin fikri dinlənilir və fikir mübadilələri aparılır.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ATMU-ya sahə səfəri və dərslərdə iştirak zamanı ixtisaslar üzrə innovativ, interaktiv, tələbəyönümlü metodlardan istifadə edildiyi müşahidə edilmişdir. Müəllimlər həm bakalavriat, həm də magistratura səviyyələri üzrə müxtəlif tədris metodlarından istifadə edərək mövzuların mühazirə, təqdimat, müzakirə və s. formada tələbələrə çatdırılmasını həyata keçirir. Fənlərin spesifikliyi nəzərə alınaraq otelçilik ixtisasında təhsil alan tələbələr “Excelsior” Hotel, “Badamdar” Hotel və “New Baku” Oteldə tədris prosesi çərçivəsində hotelin müxtəlif şöbələrinin iş prinsipi ilə tanış olaraq praktiki biliklərə yiyələnirlər.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

Öyrənmə, maraqlanma, motivasiya olunma təlim-tədris prosesinin məhsuldarlığını müəyyən edən amillər arasında aparıcı yer tutur. Tələbələrin öyrənmə prosesinə daha aktiv qoşulmasında və öyrənməni daha maraqlı, effektiv və yaddaqalan etmək məqsədi ilə bu yanaşma önəmli amillərdən biridir. Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi, tədris zamanı interaktiv və texnoloji üsullardan istifadə edilir, mövzu ilə əlaqədar müzakirələr və fikir mübadilələri aparılır. Həmçinin tələbələrin sənaye nümayəndələri ilə görüşünün təşkil olunması, istehsalat təcrübəsi zamanı yüksək nəticə göstərmiş tələbələrin müəssisələr tərəfindən işlə təmin olunması onların motivasiyasının artmasına səbəb olur.

Sahə səfəri zamanı iştirak edilən dərslərdə tələbələrin tədris və öyrənmə prosesinə aktiv cəlb edildiyi müşahidə edilmişdir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

ATMU-da “Xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün tədbirlər planı” hazırlanmış və 28 aprel 2023-cü il tarixində Elmi Şuranın 06 saylı protokolu ilə təsdiqlənmişdir. Bununla yanaşı, ATMU rektoru tərəfindən 30 may 2023-cü il tarixində ATMU-da “Xüsusi ehtiyacı olan təhsilalanların işləri üzrə imtahanın təşkili ilə əlaqədar komissiyanın yaradılması” haqqında 120 saylı əmr verilmişdir. Proqramın əsas məqsədi Universitetdə xüsusi ehtiyacları olan, həmçinin sağlamlıq imkanları məhdud şəxslərin təhsil almaq və əmək fəaliyyəti ilə məşğul olmaq hüquqlarını digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan və münbit şəraitin dəstəklənməsindən ibarətdir.

Sahə səfəri zamanı məlum olmuşdur ki, nitq qüsurları, autizm xəstəliyi olan tələbələrə münasibətdə fərdi uyğunlaşdırılmış tədris metodlarından və üsullarından istifadə olunmuşdur.

Lakin qeyd olunan tədbirlərin inkişaf etdirilməsinə ehtiyac vardır. Belə ki, görmə məhdudiyyətli təhsilalanlar üçün dərs vəsaitlərinin hazırlanması, imtahan otaqları daxil olmaqla hər auditoriyada əlil arabaları üçün yerin ayrılması, veb-sayt və ümumi istifadədə olan kompüterlərdə vizual informasiyanın səsləndirilməsi imkanının yaradılması, qiymətləndirmənin təşkilində sağlamlıq imkanları məhdud olan şəxslərə müvafiq şəraitin yaradılması prosesinin

artırılmasına ehtiyac vardır. Bununla yanaşı, fiziki məhdudiyyətli şəxslərin rahat hərəkəti və fəaliyyəti üçün infrastruktur imkanları artırılmalıdır.

Sahə səfəri zamanı sanitar qovşaqlarında, auditoriyalarda, dəhlizlərdə, mərtəbələrarası pilləkənlərdə, yeməkxanada sağlamlıq imkanları məhdud şəxslər üçün şəraitin olmadığı müşahidə edilmişdir.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

ATM-ə sahə səfəri zamanı bütün auditoriyaların proyektor və ekran ilə təmin olduğu, 2 auditoriyada ağıllı lövhənin mövcud olduğu müşahidə edilmişdir. Bu vasitələrdən istifadə üçün kafedralarda noutbuklar mövcuddur və ehtiyac yarandığı təqdirdə müəllimlərin istifadəsi üçün uyğundur. Lakin müəyyən auditoriyalarda bu avadanlıqların çalışmadığı məlum olmuşdur. Tədris olunan fənlər üzrə elektron materiallar bazasının genişləndirilməsi və daim yenilənməsi, həmçinin universitetdə mövcud olan kitabxanada materialların rəqəmsallaşdırılma prosesinin artırılması tövsiyə olunur.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

ATMU-ya sahə səfəri zamanı iştirak edilən dərslərin bəzilərində yeni təlim və tədris metodlarından istifadə olunaraq dərslərin interaktiv keçirildiyi müşahidə edildi. Müəllimlərin interaktiv öyrənməni təşviq etməsi tələbələrin dərslərdə fəallıq göstəricilərinin artmasına dəstək olur. Eyni zamanda interaktiv öyrənməni təmin etmək məqsədi ilə kafedra müəllimlərinin və sahə nümayəndələrinin iştirakı ilə tələbələr üçün ənənəvi və onlayn qaydada seminarlar və təlimlər təşkil olunur.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATMU-da tədris metod və üsullarının dövrü olaraq monitorinqi hər semestrdə təşkil olunan açıq dərslər vasitəsi ilə aparılır. Bu monitorinqlər əsasında sillabuslarda qeyd edilən mövzulara uyğunluq, mühazirə mətnləri, interaktiv tədris vəsaitləri, müəllimlər tərəfindən dərs prosesinin optimal şəkildə idarə edilməsi, seminar dərslərin təşkili və yeni metodların tətbiqi məsələlərinə baxılır və nəticələrə əsasən aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar preventiv tədbirlər hazırlanır və nöqsanlar aradan qaldırılır. Hər semestrin sonunda ATMU-da "Rəy sorğularının təşkili" proseduruna uyğun olaraq tələbələrin tədris olunan fənnin metoduna dair rəylərin öyrənilməsi nəzərdə tutulmuşdur.

Lakin son 5 ildə 3 sorğu keçirilmişdir ki, bu göstərici də çox aşağıdır. Bu sorğuların plana uyğun olaraq mütəmadi keçirilməsi və nəticələrin analiz edilməsi və əvvəlki sorğular ilə müqayisədə dinamikanın öyrənilməsi tövsiyə olunur.

## 3.5 Təlim və tədris resursları

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

ÖH-də tədrisin elektron idarəetmə sistemi kimi EDUMAN platformasından istifadə edilməsi haqqında məlumat verilmişdir. Adı çəkilən platforma dərs cədvəli, elektron jurnal, tədris planı, təqvim planı, akademik qrup, fənn kataloqu, fənn üzrə qruplar, fənn üzrə yarımqruplar, tələbələr, arxiv, qaydalar, xəbərlər, sənəd şablonları, akademik təqvim, təşkilati struktur, əməkdaşlar, istifadəçilər, hesabat, müəllim kabineti və tələbə kabineti kimi bölmələri özündə birləşdirir.

Sahə səfəri və keçirilən görüşlər zamanı EDUMAN platformasının hal-hazırda istifadə edilmədiyi məlum olmuşdur. Səbəb olaraq platformanın tələblərə cavab verməməsi qeyd edilmişdir. Həmçinin bildirilmişdi ki, gələcəkdə yeni platformanın istifadə edilməsi üçün danışıqlar aparılır və yaxın zamanda həmin platformaya keçid baş tutacaqdır.

Onlayn dərslərin keçirilməsi üçün pandemiya dövründə universitetdə “Microsoft TEAMS” platformasından istifadə olunmuşdur. ATMU-dakı qiymətləndirmə prosesinin həyata keçirilməsi üçün elektron imtahan sistemi qurulmuşdur (moodle.az/atmu). Bu sistem vasitəsi ilə elektron imtahan otaqlarının qurulması, elektron sual bazasının yaradılması, burada müəllim və tələbələrin profillərinin yaradılması mümkündür.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Universitetdə tədris prosesinin təşkili məqsədilə 43 otağın hamısı proyektor və internetlə təmin olunmuşdir, 2 otaqda ağıllı lövhə mövcuddur. Həmçinin, proyektorlara çıxışı və dərs prosesinin səmərəliliyini təşkil etmək üçün hər kafedra və dekanlıqlarda müəllim-professor heyəti üçün ayrılmış noutbuklar mövcuddur. Həmçinin, tələbələrin və digər heyətin istifadəsi üçün “Wi-Fi” şəbəkəsi fəaliyyət göstərir. Lakin, qeyd olunan avadanlıqların bir qismi hazırda işlək vəziyyətdə deyildir. “Wi-Fi” şəbəkəsi üzərindən internet zəifdir.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

ATMU-da tələbələrin təlim prosesində iştirakını və aktivliyini qeydə alan tam funksional elektron tədris platforması və elektron jurnal mövcud deyil. Daha öncə istifadə edilən EDUMAN platforması hazırda bu məqsədlə istifadə edilmir.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Sahə səfəri zamanı müşahidələr göstərdi ki, təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, elektron kitabxana sisteminə çıxışı təmin edilmişdir. Universitetdə

mövcud olan 43 auditoriyanın hamısı proyektor və internetlə təmin olunub, 2 otaqda ağıllı lövhə mövcuddur. Bütün otaqlarda tələbələrin dərs zamanı noutbuk və digər elektron vasitələrdən istifadəsi üçün elektrik yuvaları mövcuddur. Tədris prosesində akademik heyətin istifadəsinə 42 ədəd noutbuk, 8 ədəd CD pleyer verilmişdir.

Bununla bərabər, universitetin kitabxana resurslarının rəqəmsallaşdırılması prosesinin davam etdiyi və elektron materiallar bazasının formalaşdırılması işlərinin sürətlə getdiyi müşahidə edilmişdir. Tədris prosesində aktiv öyrənməni təşviq etmək məqsədi ilə video və təqdimat əsaslı materiallardan istifadə edilir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

ATMU-da 250 ədəd aktiv istifadə olunan kompüter mövcuddur. Onlardan hər birinin internetə çıxışı vardır. Həmçinin tələbələrin imtahan verməsi üçün 100 kompüterlik və lazımi texniki avadanlıqlarla təchiz olunmuş 2 imtahan zalı fəaliyyət göstərir. Texniki baxışa və təmirə ehtiyacı olan kompüter, noutbuk və digər avadanlıqlar, habelə müəllimlər üçün korporativ e-mail açılması ilə bağlı məsələlər İKT əməkdaşları tərəfindən müraciət əsasında həll edilir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

ATMU-ya sahə səfəri zamanı keçirilən görüşlər nəticəsində məlum olmuşdur ki, burada auditoriya fondunun ($m^2$) onun tələbə sayına uyğunluğu ilə bağlı çətinliklər mövcuddur. Belə ki, hazırda ATMU-da təlim-tədris prosesi iki tədris binasında, eləcə də müqavilə ilə sənaye müəssisələrində həyata keçirilir. Əsas 1-ci tədris korpusu üzrə auditoriya fondunun dərs prosesi üçün ayrılmış ümumi sahəsi 1431.2 $m^2$ olan 36 dərs otağından ibarətdir. İkinci tədris korpusu üzrə auditoriya fondu ümumi sahəsi 623.4 $m^2$ olan 15 dərs otaqlarından ibarətdir. ATMU-da dərslər növbəli (3 növbə) təşkil olunur, praktik və laborator dərslərin bir qismi birbaşa sənaye müəssisələrində aparılır. Həmçinin, qiyabi şöbə üzrə təhsilalanların tədris günləri əyani şöbə üzrə təhsilalanların imtahan sessiyası ərəfəsinə salınmaqla auditoriya fondundan səmərəli istifadə edilir.

Fiziki mühitin normativlərə uyğunluğunun təhlili nəticəsində müəyyənləşdirilib ki, universitetdə tədris prosesinin təşkili üçün auditoriya fondu yetərli deyildir. Həmin hesabata əsasən (ATMU-XŞ_XM(FMNUT)-01, 19.05.2023) auditoriyalarda çatışmazlıq mövcuddur, kitabxanada normativlərə uyğun olaraq bir tələbəyə düşən sahə 0.6 $m^2$ olduğu halda, hazırda bir tələbəyə düşən faktiki sahə 0.1 $m^2$-dir.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

ATMU-da akademik və inzibati heyətin fəaliyyətini təmin etmək üçün 1-ci tədris binası üzrə ümumi sahəsi 1027 $m^2$ olan 33 işçi otağı mövcuddur. Onlardan 6-ı akademik (kafedra otaqları), 27-i (onlardan biri rektorun kabineti və qəbul otağı, 3-ü prorektorların, 2-i rektor

müşavirələrinin, 2-i dekanların kabinetləri, 2-i dekanlıqlar, 13-ü digər şöbələrin, komendant, psixoloq otağı, anbar otağı və s.) isə inzibati heyətin fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur (ştatda olan 1 müəllim üçün 8,4 $m^2$). İkinci tədris binası üzrə isə ümumi sahəsi 175.8 $m^2$ olan 6 işçi otaqlarından ibarətdir. Onlardan 3-ü akademik (kafedralar), 3-ü isə inzibati heyətin (tibb məntəqəsi, dekanın kabineti və dekanlıq) fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur. Fiziki mühitin normativlərə uyğunluğunun təhlili nəticəsində müəyyən edilmişdir ki, ATMU-da fəaliyyət göstərən strukturların sayına görə normativlərlərdə otaq sayının çatışmazlığı mövcuddur.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

ATMU-da sahə baxışı zamanı hal-hazırda kitabxana bazasının genişləndirilməsi və elektron kitabxananın təkmilləşdirilməsi ilə əlaqədar işlərin aparıldığı müşahidə edilmişdir. Kitabxana tam təmir olunmuş, oxu zalı genişləndirilmiş, oxucular üçün rahat şərait yaradılmış və müasir elektron avadanlıqla təchiz olunmuşdur. Kitabxana-İnformasiya mərkəzinin ümumi sahəsi 207.7 $m^2$-dir. Kitabxanada normativlərə uyğun olaraq bir tələbəyə düşən sahə 0.6 $m^2$ olduğu halda, hazırda bir tələbəyə düşən faktiki sahə 0.1 $m^2$-dir, uyğunsuzluq göstəricisi hər tələbəyə görə 0.5 $m^2$-dir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

ATMU-nun Kitabxana-İnformasiya Mərkəzinə daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası aşağıdakı cədvəldə qeyd edilmişdir:

| İllər | Dərslik | Dərs vəsaiti | Elektron nəşr | CƏMİ |
|---|---|---|---|---|
| **2019** | 28 | 174 | 0 | **202** |
| **2020** | 110 | 155 | 0 | **265** |
| **2021** | 12 | 9 | 0 | **21** |
| **2022** | 22 | 30 | 0 | **52** |
| **2023** | 6 | 2 | 514 | **522** |
| **CƏMİ** | **178** | **370** | **514** | **1062** |

**Cədvəl 3.5 Son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaiti**

Sahə səfəri zamanı kitabların elektron sürətinin çıxarılması prosesi tərəfimizdən müşahidə edilmişdir. Hazırda elektron nəşrlərə olan ehtiyac səbəbindən elektron nəşrlərin dinamikası artmaqdadır.

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

ATMU-da tədris üç dildə aparılır. Bunlar Azərbaycan, rus və ingilis dilləridir. Sahə baxışı zamanı ATMU-nun Kitabxana-İnformasiya Mərkəzində sözügedən dillərdə kitabların

mövcudluğu təsbit olunmuşdur. Pandemiyaya qədərki dövrdə tədris aparılan dillərdə kitabların sayında artım müşahidə olunmuşdur. Sonrakı mərhələdə xüsusi ilə rus və ingilis dillərində olan kitabların sayının azalması müvafiq tədris dillərində qəbul planının aşağı salınması ilə əlaqələndirilmişdir. Elektron dərsliklərin hazırlanması istiqamətində fəaliyyət planları mövcuddur.

ATMU-nun Kitabxana-İnformasiya Mərkəzində olan tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və dinamikası aşağıdakı cədvəldə illər üzrə qeyd edilmişdir:

| İllər | Azərbaycan dilində | Rus dilində | İngilis dilində | Türk dilində | Alman dilində |
|---|---|---|---|---|---|
| **2017** | 404 | 644 | 35 | 0 | 0 |
| **2018** | 560 | 94 | 0 | 16 | 0 |
| **2019** | 81 | 37 | 4 | 0 | 0 |
| **2020** | 20 | 3 | 38 | 0 | 3 |
| **2021** | 296 | 70 | 5 | 0 | 0 |
| **2022** | 64 | 25 | 0 | 0 | 0 |
| **2023** | 46 | 2 | 0 | 0 | 0 |

**Cədvəl 3.6 Kitabxana-İnformasiya Mərkəzindəki tədris dillərinə uyğun kitab fondu**

Cədvəldən də məlum olduğu kimi, 2020-ci ilə qədər ənənəvi formada dərslik və dərs vəsaitinin artım dinamikası müşahidə edilmişdir. 2022 və 2023-cü illərdə isə ingilis, türk və alman dillərində dərslik və dərs vasaitlərinin artım dinamikası olmamışdır. Hazırda kitabxananın ümumi kitab fondu 19954 ədəddir, onlardan 2596 ədədi rus, 526 ədəd ingilis, 111 ədədi türk, 137 ədədi alman, 72 ədədi fransız, 116 ədədi ispan, 8 ədədi isə ərəb dilindədir. Elektron kitabxana bazasının zənginləşdirilməsi prosesi davam etdirilir.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

ATMU-da dərsliklərin və elmi ədəbiyyatların alınması və elmi bazalardan istifadə üçün ayrılan maliyyə vəsaitinin həcmində artım dinamikası aşağıdakı kimi müşahidə olunmaqdadır:

| İllər | Dərsliklərə və elmi ədəbiyyatlara ayrılan vəsait (AZN) | Elmi bazalardan istifadə üçün ayrılan vəsait (AZN) | Dövrü mətbuata ayrılan vəsait (AZN) |
|---|---|---|---|
| **2017** | - | 2000 | - |
| **2018** | - | 3859 | Qəzet və jurnal-567.85<br>Qəzet və jurnal-582.05 |
| **2019** | Ensiklopediya (çox cildli)-2440 | 2000 | Qəzet və jurnal-810<br>Qəzet və jurnal-893.60 |
| **2020** | - | 2175 | Jurnal-792.80<br>Qəzet-1854.60 |
| **2021** | 120 | 3859 | Qəzet-1754<br>Qəzet-717.20 |
| **2022** | 300 | 4459 | Qəzet-1622 |

| | | | |
|---|---|---|---|
| | | | Qəzet və jurnal-807.20 |
| **2023** | 150 | 4958 | Qəzet və jurnal-1336<br>Qəzet-115.20 |

**Cədvəl 3.7 Dərslik və elmi ədəbiyyatların alınması və elmi bazalardan istifadə üçün ayrılan maliyyə vəsaitinin həcmi**

Cədvəldən də göründüyü kimi, dərslik və elmi ədəbiyyatlara 2017, 2018 və 2020-ci illərdə vəsait ayrılmamışdır. 2022-ci il ilə müqayisədə isə 2023-cü ildə ayrılan vəsait 2 dəfə azaldılmışdır. Elmi bazalardan istifadə, həmçinin dövrü mətbuata ayrılan vəsaitlərin illər üzrə müsbət artım dinamikası müşahidə edilməkdədir.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

ÖH-də qeyd edildiyi kimi, professor-müəllim heyəti tərəfindən fənn proqramları, dərslik və dərs vəsaitləri, eləcə də mühazirə materiallarının tərtib olunması və qiymətləndirilməsi universitetinin Elmi Şurasında təsdiq edilmiş “Təhsil proqramlarının tərtibi, təsdiqi və tədris-metodik təminatı haqqında” Qaydaların V-X müddəalarının tələblərinə uyğun olaraq hazırlanır. Tərtib edilmiş tədris vəsaitləri kafedra iclaslarında, TMŞ-lərdə müzakirə edilir, təlim və tədris resurslarının mövcudluğu və yenilənməsi ilə bağlı məsələlər mütəmadi olaraq müzakirə olunur.

Fənn proqramlarının və fənn sillabuslarının təsviri, təlim nəticələri müasir dövrün tələblərinə, təhsilalanların ümumi və peşə kompetensiyalarına yiyələnmələrinə imkan yaratması prioritet kimi qəbul olunur.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

ATMU-da təlim və tədris resurslarının həm nəşr, həm də elektron formada olması, eləcə də təhsilverənlər tərəfindən tələbələrin korporativ e-maillərinə göndərilməsi onların təhsilalanlar üçün əlçatan olduğunu deməyə əsas verir. Təhsilalanlar üçün əlçatan olması məqsədilə dərsliklərin PDF variantları, sillabuslar, tərcümə materialları tələbələrə korporativ e-mail vasitəsilə göndərilir. Universitetin kitabxana resurslarının rəqəmsallaşdırılması və dərsliklərin PDF variantlarının elektron kitabxana bazasında mövcudluğu tələbələrə rahatlıq gətirir. Həmçinin, ATMU Ümumdünya Turizm Təşkilatının qoşulmuş üzvü olduğundan təşkilatın kitabxana fonduna giriş icazəsi vardır ki, bu da öz növbəsində resurslardan istifadəyə imkan yaradır.

Təlim və tədrisin səmərəli təşkili üçün bütün auditoriyalar zəruri infrastrukturla təchiz olunmuşdur. Sözügedən resursların keyfiyyət və kəmiyyət monitorinqi onların bütün auditoriyalarda quraşdırıldığını, işlək və funksional olduqlarını, habelə tədris prosesində aktiv istifadə edildiklərini deməyə əsas verir. Dərslərin monitorinqi zamanı təhsilalanların hər birinin keyfiyyətli təlim və tədris resursları ilə təmin olunduqları, habelə təhsilalanların sözügedən vasitələrə əlçatanlığının yüksək səviyyədə təşkil olunması öz təsdiqini tapmışdır. Təlim və tədris resurslarının keyfiyyətinə müvafiq kafedralar və universitet tərəfindən nəzarət olunur, onlar dövrün yeniliklərinə uyğun mütəmadi təkmilləşdirilir. ATM-in hər iki tədris korpusunda

kitabxananın mövcudluğu təhsilalanların və akademik heyətin təlim-tədris resursları ilə qısa zamanda təmin olunmasına imkan yaradır. Tədris auditoriyalarında quraşdırılmış kompüter, proyektor və s. texniki avadanlıqlar ATM-in ümumi şəbəkəsi ilə inteqrasiya olunmaqla hər biri işlək vəziyyətdədir və mütəmadi olaraq sazlanma işləri aparılır.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

ATMU-nun ÖH-də qeyd edildiyi kimi xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün tədbirlər planı hazırlanmış və Elmi Şuranın 06 saylı protokolu ilə 28 aprel 2023-cü il tarixində təsdiqlənmişdir. Daha sonra, ATMU rektorunun 30 may 2023-ci il tarixli 120 saylı əmri ilə ATMU-da "Xüsusi ehtiyacı olan təhsilalanların işləri üzrə imtahanın təşkili ilə əlaqədar komissiya" yaradılmışdır. Xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi planı üzrə bir çox işlər nəzərdə tutulsa da tədris infrastrukturu baxımından bir çox məsələlər (sanitar qovşaqları, parklanma, yeməkxana, mərtəbələrarası hərəkət və s.) öz həllini tapmamışdır.

Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resursları qismən mövcuddur.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

ATMU-da tədris ilinin hər semestrində keçirilən dərslər üzrə monitorinqlər keçirilir. Monitorinq nəticələri ümumləşdirilməklə tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aidiyyəti üzrə tədbirlər görülür. Davamlı olaraq təlim və tədris resurslarının məzmun baxımından müasir tələblərə və əmək bazarının ehtiyaclarına cavab verməsi, məzmununda əsaslı dəyişiklik tələb olunan təlim və tədris resurslarının yenidən işlənib hazırlanması, dərs prosesində istifadə edilən dərslik və dərs vəsaitlərinin, mühazirə mətnlərinin, sillabus və fənn proqramlarının təkmilləşdirilməsi üçün TMŞ-lərdə müzakirələr aparılır.

### 3.5.16 Tələbə klubların, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

ATMU-ya sahə səfəri zamanı keçirilən görüşlər zamanı məlum olmuşdur ki, universitetdə tələbələrin asudə vaxtının səmərəli təşkili, tələbələr arasında maarifləndirmə işinin aparılması, təhsilə marağın artırılması, tələbələrin hüquqlarının təmin edilməsi, ölkə daxilində və xaricində keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi, universitet daxilində tələbələrin könüllülük fəaliyyətini genişləndirmək məqsədilə Tələbə Gənclər Təşkilatı (TGT), Tələbə Həmkarlar Təşkilatı (THT) və digər klublar mövcuddur. Təhsilalanların sosial, mədəni və idman fəaliyyətləri ilə bağlı cari tədris ilinin əvvəlində illik iş planı TGT tərəfindən tərtib olunaraq dekanlıq ilə razılaşdırılır. Tədris ilinin sonunda razılaşdırılmış iş planına əsasən görülən işlərin hesabatı TGT sədri tərəfindən dekanlığa təqdim edilir.

Tədbirlərin təşkilində resurs kimi THT-nin büdcəsindən istifadə edilir. Universitetdə bu qurumların fəaliyyəti üçün bütün zəruri şərait yaradılmışdır.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

ATMU-da psixoloji xidmət mərkəzi 3 aprel 2023-cü ildən etibarən fəaliyyətə başlamışdır. Sahə səfəri zamanı ATMU-da ixtisas profilinə uyğun bir psixoloqun olduğu müəyyən edilmişdir. Xidmətin məqsədi təhsilalanların psixoloji vəziyyətini, təhsil fəaliyyətini, sosial-mənəvi problemlərini öyrənmək və onlara psixoloji dəstəyin göstərilməsi, onların proqressiv psixi inkişafını, meyl, maraq və potensialının reallaşdırılması, habelə mümkün psixi pozuntuların profilaktikasını təmin etməkdir. Psixoloqun fəaliyyətə başladığı dövrdən bu günədək müraciət etmiş 35 tələbəyə fərdi psixoloji dəstək xidməti göstərilmişdir, bununla yanaşı mütəmadi olaraq qruplarla da görüşlər təşkil edilməkdədir.

## 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

ATMU-nun Elmi Şurasının qərarı ilə təsdiq edilmiş “Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında” əsasnamə universitetdə imtahanlara hazırlıq, təşkili prosesi üçün vahid qaydaları və onların tətbiqini müəyyən edir. Əsasnamə həmçinin, ATMU-da keçirilən aralıq qiymətləndirmə və imtahanlara hazırlıq mərhələsi, imtahan prosesi, apellyasiya qaydaları, eyni zamanda imtahanların keçirilməsinə məsul şəxslərin səlahiyyət və vəzifələrini əhatə edir.

Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi məqsədi ilə prosedur sənədləri və qaydalar işlənib hazırlanmış və Elmi Şura səviyyəsində təsdiq olunmuşdur. ATM-də qaydalara uyğun qiymətləndirilmənin aparılmasına Təhsildə qiymətləndirmə, Tədris-metodik şöbə ilə yanaşı, digər struktur bölmələri də nəzarət edir.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ATMU-da fənlər üzrə aralıq və yekun imtahan sualları fənn müəllimi tərəfindən öncədən verilmiş meyarlar əsasında tərtib edilir. Belə ki, qiymətləndirmələrdə qazanılmış bilik və bacarıqların fənnin mənimsəmə nəticələrinə uyğun olaraq ölçülməsinə imkan verən qiymətləndirmə üsullarından istifadəyə üstünlük verilir.

Qiymətləndirmə meyarları və imtahan qaydaları haqqında ATM-in Əsasnaməsi mövcuddur. Qiymətləndirmə prosesi imtahana qədər və imtahan qiymətləndirməsi olmaqla iki hissəyə ayrılır. Birinci hissəyə digər qiymətləndirmə meyarları da daxildir. Qiymətləndirmə meyarlarına tələbələrin əlçatanlığının təmin edilməsi üçün universitetin internet saytında link https://atmu.edu.az/upload/files/2023/06/22//-daaaf136168742031039922217210326011.pdf yerləşdilmişdir.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

ATMU-da qiymətləndirmə ixtisaslar üzrə müxtəlif illərdə təsdiq olunmuş təhsil proqramlarında qeyd olunan tələblərə və Elmi Şuranın qərarı ilə təsdiq edilmiş "Qiymətləndirmə və imtahan qaydaları haqqında" Əsasnamədə göstərilən qaydalara əsasən yazılı, test, şifahi, təqdimat (layihə), nümunə iş, laboratoriya, nümayiş, tədqiqat və qarışıq kimi müxtəlif formalarda, texnoloji (kompüter, proyektor, maqnitafon, CD player və s.) və ənənəvi (imtahan blankları, test blankları və s.) vasitələrdən istifadə edilməklə aparılır. ATM-də müxtəlif qiymətləndirmə formalarından aktiv istifadə olunur. Qiymətləndirmə formalarının maddi-texniki təchizat və effektivliyi ilə əlaqədar mütəmadi monitorinqlər aparılır, müvafiq çatışmazlıqlar müəyyən edilərək Elmi Şurada müzakirə olunur.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

ATMU-da tələbə biliyinin qiymətləndirilməsi zamanı AR Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, AR Prezidentinin fərman və sərəncamları, AR Nazirlər Kabinetinin qərar və sərəncamları, AR Elm və Təhsil Nazirliyinin, AR Dövlət Turizm Agentliyinin əmr, təlimat və Kollegiya qərarları, ATMU-nun Nizamnaməsi, digər müvafiq qanunvericilik aktları, təhsil, elm və innovasiyalar, inzibat-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ hüquqi aktları, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatları" (ESG), ATMU-nun Elmi Şurasının qərarları, rektorunun əmr və göstərişləri, TQŞ-nin əsasnaməsi və "Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında" Əsasnamə əsas tutularaq qiymətləndirmə proseslərinin təşkili həyata keçirilir. Qiymətləndirmənin şəffaflığının təmin olunması məqsədi ilə İmtahan Qərargahı və Apellyasiya Komissiyası yaradılır. Sillabuslarda qiymətləndirmə rubrikləri mövcuddur və təhlil olunub.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Hər tədris ilinin başlanğıcında tələbə rəyləri və təhsildə yenilikləri nəzərə alaraq kafedralarda məlumatlandırma tədbirləri təşkil olunur. Universitet müəllimlərinin iştirakını nəzərdə tutan tədbirdə qiymətləndirmə prosesinin daha səmərəli formada təşkili, təhsilalanların sərbəst öyrənmə istəyinin yaradılması və təlim nəticələrinin ölçülməsi keyfiyyətinin yüksəldilməsi məqsədi ilə tərtib olunan layihə, nümunə iş, laboratoriya, nümayiş, tədqiqat kimi yeni qiymətləndirmə formaları haqqında təqdimatlar yer alır. Təlimin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə hər semestrin sonunda "Fənnin qiymətləndirilməsi sorğusu" təşkil olunaraq təhsilalanların fənn və onun tədrisi ilə bağlı fikirləri öyrənilir və müvafiq tədbirlər görülür. Tədris materiallarında tələbələr üçün özünüyoxlama sualları təqdim edilir. Sərbəst öyrənmənin təşviq edilməsi ilə müxtəlif sərbəst və qrup işləri verilir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

ATMU-dakı qiymətləndirmə prosesinin təşkilində informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə edərək elektron imtahan sisteminin qurulması (Azərbaycan Turizm Və Menecment Universiteti (moodle.az)), elektron imtahan otaqlarının qurulması, elektron sual bazasının yaradılması, elektron imtahan sistemində müəllim profillərinin yaradılması, elektron imtahan sistemində tələbə profillərinin yaradılması, elektron imtahan sistemi təlimatının hazırlanması kimi bir sıra işlər yerinə yetirilmişdir. ATM-də imtahan prosesinin təşkili və qiymətləndirilməsi elektronlaşdırılmışdır.

Təhsilalanlar imtahanlar prosesi ilə əlaqədar bütün məlumatları elektron əldə edirlər. Lakin, gündəlik qiymətləndirmənin aparılması üçün işlək proqram təminatı mövcud deyildir. Cari platformada texniki nasazlıqların olması ATM-in məsul şəxsləri tərəfindən də qeyd olunmuşdur.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

ATMU-da xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi məqsədilə tədbirlər planı hazırlanmış və Elmi Şuranın 06 saylı protokolu ilə 28 aprel 2023-cü il tarixində təsdiqlənmişdir.

Sahə səfəri zamanı bildirilmişdir ki, sağlamlıq imkanları məhdud olan şəxslər üçün imtahanlarda köməkçi, o cümlədən audio və video materiallardan aktiv istifadə olunur.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Universitetdə tələbə biliyinin qiymətləndirilməsi ATMU-nun Nizamnaməsi, Elmi Şuranın qərarları, rektorun əmr və göstərişləri, TQŞ-nin Əsasnaməsi və “Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında” Əsasnamə əsas tutularaq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında həyata keçirilir.

İmtahan sessiyası sonunda ATMU-da qiymətləndirmənin təşkili ilə bağlı vəziyyət Elmi Şurada müzakirə olunur, təklif və iradlar dinlənilir.

Fənlərin spesifikliyi nəzərə alınaraq cari və aralıq qiymətləndirmədə müxtəlif metodlardan istifadə olunur. Sözügedən qiymətləndirmənin təşkilinə müvafiq strukturlar nəzarət edir və şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsiplərinə uyğun qiymətləndirmənin aparılmasının monitorinqi həyata keçirilir.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və / və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

ATMU-da buraxılış işlərinin hazırlanması və müdafiəsinin, Yekun Dövlət Attestasiyasının təşkili AR TN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında

Əsasnamə"yə, magistr dissertasiyasının hazırlanması AR NK-nın 12.05.2010-cu il tarixli 88 saylı qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na əsasən tənzimlənir.

Buraxılış işi və magistr dissertasiyalarının müdafiəsi üçün İxtisaslaşdırılmış Şuralar təşkil olunur. Yekun Dövlət Qiymətləndirilməsi ilə əlaqədar hesabatlar Dövlət Turizm Agentliyinə təqdim olunur.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATMU-da Təhsildə qiymətləndirmə şöbəsi tərəfindən Elmi Şuraya təqdim olunan imtahan sessiyasının yekun hesabatında bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti ilə bağlı məlumatlar yer alır.

Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə aparılmış təhlillər və monitorinq nəticələri hesabat şəklində Elmi Şuraya təqdim olunur. Həmçinin, sözügedən proseslərin təkmilləşdirilməsi məqsədi ilə akademik heyət üçün təlimlər təşkil olunur.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

ATMU-da tədrisin təşkili və tələbənin məzun olması üçün keçməli olduğu tədris prosesi "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na və "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyanın aparılması Qaydaları"na uyğun olaraq təşkil edilir.

Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri ATM-in rəsmi saytında yerləşdirilmiş və tələbələr üçün əlçatandır. Akademik məsləhətçilər (tyutorlar) təhsilalanların tədris prosesi ilə əlaqədar məlumatlandırılmasına və istiqamətləndirilməsinə köməklik göstərirlər. Universitet tərəfindən "Tələbələrin məlumat kitabçası" hazırlanmışdır.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

ATMU-da təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin (diplom) verilməsi AR NK-nın 29.04.2010-cu il 82 saylı Qərarı ilə təsdiq edilmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na əsasən həyata keçirilir.

Hər il üzrə Universiteti bitirən məzunlar barədə məlumat Elm və Təhsil Nazirliyinin elektron sisteminə yerləşdirilir.

## 3.7 Professor-müəllim heyəti

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

ATMU-da akademik heyətin işə qəbulu ilə bağlı meyarlar 2019-cu ildə təsdiq edilmişdir. Müvafiq meyarlara əsasən akademik heyətin işə qəbulu müsahibə əsasında keçirilir. ATM-də akademik heyətin işə qəbulu (pedaqoji prosesə cəlb olunması), yüksəliş və digər vəzifəyə təyinatı mexanizmi mövcuddur. Tədris prosesinə yeni cəlb olunmuş müəllimlər üçün sınaq dərsləri təşkil olunur. Yüksək tədris keyfiyyəti ilə fərqlənən müəllimlərin ATM-in ştat vahidləri sırasına əlavə olunması prosesi əlçatandır. Müəllim və digər seçkili vəzifələrə seçkilərin elan edilməsi ATM-in rəsmi saytı və qəzetlər vasitəsi ilə aparılır, əlçatanlıq prinsipi gözlənilir.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

ATMU-da “Təlim ehtiyaclarının müəyyənləşdirilməsi meyarları ilə bağlı Təlimat” 2019-cu ildə, “Akademik heyətinin təkmilləşdirilməsi Proseduru” 2022-ci ildə, “Səmərəliliyin Qiymətləndirilməsi Qaydaları” 2023-cü ildə təsdiq edilmişdir. ATMU-da “Təlim ehtiyaclarının müəyyənləşdirilməsi meyarları ilə bağlı Təlimat” https://atmu.edu.az/upload/files/2023/10/31/-60106888169874835928748027710168330.pdf, 2019-cu ildə “Akademik heyətinin təkmilləşdirilməsi Proseduru” https://atmu.edu.az/upload/files/2023/10/31/-9b91d24516987483908036266931011950.pdf, 2022-ci ildə “Səmərəliliyin Qiymətləndirilməsi Qaydaları” https://atmu.edu.az/upload/files/2023/10/31/-9d684c58169874833091255355810292718.pdf 2023-cü ildə təsdiqlənərək qəbul olunmuşdur.

Bundan əlavə “Akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsi məqsədilə İşçi tədris proqramının tərtib olunmasına dair akademik heyət üçün təlimat”, “Blum taksonomiyasının tətbiqinə dair akademik heyət üçün təlimat”lar da hazırlanmışdır. Bütün bu təlimatlar ATMU da fəaliyyətin tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurlar toplusunda yer alır https://atmu.edu.az/az/normativ-senedler.

Sadalanan bu qayda və təlimatlar istənilən halda ATMU-da akademik heyətin istər pedoqoji, istərsə də texnoloji səriştələrinin yüksəldilməsi tədbirləri kimi dəyərləndirilə bilər.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Akademik heyətə interaktiv və aktiv tədris metodlarından istifadənin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi məqsədilə ATMU-nun struktur bölmələri üzrə işçi heyətinin illik təlim planı hazırlanmışdır.

| Tədris ili | Təlimdə iştirak edən | Proqramın adı |
|---|---|---|

| | akademik heyətin sayı | |
|---|---|---|
| 2017/2018 | 2 | ERASMUS+ |
| 2018/2019 | 8 | ERASMUS+ |
| 2019/2020 | 19 | ERASMUS+ |
| 2020/2021 | 0 (pandemiya dövrü) | - |
| 2021/2022 | 0 (pandemiya dövrü) | - |
| 2022/2023 | 12 | ERASMUS+ |
| 2023/2024 | 2 | ERASMUS+ |

**Cədvəl 3.8 ERASMUS+ mübadilə proqramı vasitəsilə müxtəlif Avropa ölkələrində təlimlərdə iştirak edən akademik heyətin sayı**

Akademik heyətin distant tədris prosesi üzrə bacarıqlarının artırılması məqsədi ilə TEAMS proqramından istifadə haqqında video təlimat hazırlanmış, EDUMAN təhsil platformasında istifadə ilə bağlı təlimlər keçirilmişdir. Son illərdə hər il orta hesabla 5-6 müəllim ERASMUS+ mübadilə proqramı vasitəsilə müxtəlif Avropa ölkələrində təlimlərdə iştirak edir.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

ATMU-nun struktur bölmələri üzrə işçi heyətinin 2023-cü il üçün illik təlim planı rektor tərəfindən təsdiq olunmuşdur. Planın daxilində universitetin şöbələrinin, fakültə və kafedralarının heyətinin nəzərdə tutulan təlim və təkmilləşdirilmə kurslarının istiqamətləri barədə məlumat öz əksini tapır.

| Tədris ili | İxtisasartırma və və digər təlim kurslarında iştirak edənlərin sayı |
|---|---|
| 2017/2018 | 1 |
| 2018/2019 | 13 |
| 2019/2020 | 12 |
| 2020/2021 | 2 |
| 2021/2022 | 8 |
| 2022/2023 | 9 |
| 2023/2024 | 32 |
| **CƏMİ** | **77** |

**Cədvəl 3.9 Tədris ili üzrə ixtisasartırma və və digər təlim kurslarında iştirak edənlərin sayı**

ATM-də akademik heyət mütəmadi olaraq öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarına cəlb olunur. Pandemiya dövründən sonra ixtisasartırma və digər təlim kurslarında iştirak edənlərin sayında artım müşahidə olunur. Təkcə son ildə bu kurslara cəlb olunanlar hesabat dövründə cəlb olunanların 40%-dən çoxunu təşkil edir.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

ATMU əməkdaşlarının müxtəlif beynəlxalq peşəkar proqram və təsisatlarda iştirak etməsilə bağlı aşağıdakı nümunələr göstərilə bilər: “Azərbaycan, Gürcüstan və Tacikistanda beynəlxalq və ixtisaslararası elmi tədqiqat (TEW-CCA)”, “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması”, “Azərbaycan əhalisinin sosial rifahı və əhval-ruhiyyəsi” layihələri (2018-2019-cu illər), Azərbaycan Sosiologiya Assosiasiyası, ABŞ-nin Harvard Universitetinin Mərkəzi Avrasiya Tədqiqatlar Mərkəzi və Merivud Universitetinin Yaxın Şərqdə Dövlət İdarəçiliyi və Siyasəti Assosiasiyası (AMEPPA), Ümumdünya Sosiologiya Assosiasiyası.

Akademik heyət mütəmadi olaraq beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak edir. Bu proqramlara təlim və kurslarla yanaşı, müxtəlif layihələr də daxildir.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

ATMU-da akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi ilə bağlı “Akademik heyətin qiymətləndirilməsinə dair Təlimat” təsdiq edilmişdir.

Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi məqsədi ilə mütəmadi olaraq açıq dərslər təşkil olunur və müəllimlərin qiymətləndirilməsi aparılır.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

ATMU-da ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü AR NK-nın 06.11.1995-ci il 242 nömrəli Qərarı ilə təsdiq edilmiş “Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə”yə, “Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə” AR Təhsil nazirinin 24.02.1994-cü il tarixli 113 saylı əmrinə əsasən tənzimlənir. Professor-müəllim heyətinin tədris işinin həcminin hesablanması üçün Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş vaxt normativi sənəd kimi qəbul edilir.

ATM-də ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü müvafiq qanunvericilik normalarına əsasən həyata keçirilir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

ATMU-da Turizm və qonaqpərvərlik, Biznes idarəçiliyi və Sosial menecment fakültələri üzrə professor-müəllim və tələbə heyətinin sayının nisbətini dair göstəricilər aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Professor-müəllim heyətinin sayı | Tələbə heyətinin sayı | Nisbət |
|---|---|---|
| *Turizm və qonaqpərvərlik fakültəsi* | | |

| | | |
|---|---|---|
| **67 nəfər** | **1148 nəfər** | **1/17** |
| *Biznes idarəçiliyi fakültəsi* | | |
| **39 nəfər** | **425 nəfər** | **1/11** |
| *Sosial menecment fakültəsi* | | |
| **60 nəfər** | **656 nəfər** | **1/11** |

**Cədvəl 3.10 ATMU-da fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti**

Fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti ortalama 1/12 təşkil edərək standartlara uyğundur. Biznes idarəçiliyi və Sosial menecment fakültəsində bu göstərici 1/11 olub standartlara uyğundur. Turizm və qonaqpərvərlik fakültəsində bu göstərici 1/17 olub standartdan az fərqlənir (əlavə 12 professor-müəllimə ehtiyac vardır).

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022, 2022/2023, 2023/2024-cü tədris illəri üzrə tədris prosesində iştirak edən 0,5 ştat vahidi əvəzçiliklə və əsas heyətdə işləyən professor-müəllim heyətinin ümumi ştatda olanların sayı ilə müqayisəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| № | Professor-müəllim heyəti | 2017 2018 | | 2018 2019 | | 2019 2020 | | 2020 2021 | | 2021 2022 | | 2022 2023 | | 2023 2024 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % |
| **1.** | **Ştatda olanların sayı** | 121 | 65 | 110 | 65 | 123 | 64 | 118 | 65 | 111 | 69 | 115 | 72 | 125 | 75 |
| **2.** | **0,5 ştat əv.sayı** | 63 | 35 | 58 | 35 | 69 | 36 | 63 | 35 | 49 | 31 | 45 | 28 | 41 | 25 |
| **3.** | **CƏMİ** | **184** | **100** | **168** | **100** | **192** | **100** | **181** | **100** | **160** | **100** | **160** | **100** | **166** | **100** |

**Cədvəl 3.11 Professor-müəllim heyətinin 7 tədris ili üzrə sayı**

ÖH-də 2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022, 2022/2023, 2023/2024-cü tədris illəri üzrə tədris prosesində iştirak edən 0,5 ştat vahidi əvəzçiliklə və əsas heyətdə işləyən professor-müəllim heyətinin ümumi ştatda olanların sayı ilə müqayisəsi verilmişdir.

Lakin, tədris prosesində iştirak edənlərə (ştatda olan və cəlb olunmuş) nisbətdə əsas iş yeri müvafiq ATM olanların nisbəti göstərilməmişdir.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

ATMU-da kafedralar üzrə bəzi fənlərin tədrisinə kənardan professor-müəllim heyətinin cəlb edilməsi hallarına rast gəlinir.

ATM-də bir sıra fənlərin tədrisi sahə mütəxəssisləri və ixtisaslaşmış kadrlar tərəfindən aparılır. Müvafiq fənlər üzrə nüfuza malik ixtisasçıların tədris prosesinə cəlb olunması ilə tədrisin keyfiyyəti yüksəldilir.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

ATM-də akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi ilə əlaqədar rektorun qərarı ilə komissiya yaradılmış, lakin hesabat dövrü üçün differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq olunmur.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

ATM-də Türkiyə, Rusiya, Böyük Britaniya, İtaliya, Ukrayna, Yunanıstan, Almaniya, BƏƏ və s. ölkələrin ali təhsil müəssisələrindən məzun olmuş akademik heyət mövcuddur. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış akademik heyət mövcud deyildir.

## 3.8. Tələbəyönümlü tədris

### 3.8.1. Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Ayrı-ayrı fakültələrdə təhsilalanların fərdi tədris planları ilə əyani tanışlıq olmuşdur. Müəyyən edilmişdir ki, bütün kurslar üzrə təhsilalanların fərdi tədris planları mövcuddur və mövcud qaydada təsdiq olunubdur.

### 3.8.2. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

ATM-də müvafiq sənədlərin verifikasiyası zamanı seçmə fənn kataloqunun kafedralarda ümumi fənlər üzrə mövcud olduğu, lakin fakültə tərəfindən tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin yalnız “Xarici dil” fənni üzrə təmin olunduğu müəyyən edilmişdir. Elektron formada seçimin mövcud olmaması məsul şəxslər tərəfindən ATMU-nun istifadə etdiyi elektron tədris platformasının texniki çatışmazlıqları, o cümlədən professor-müəllim heyətinin kvalifikasiyasına uyğunluğun təmin olunması məqsədi ilə əlaqləndirilmişdir.

**3.8.3. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi**

Sözügedən təcrübənin mövcud olmadığı, lakin tələbələrin müraciətləri (şikayətləri) yarandığı halda məsələyə baxıldığı və müvafiq tədbirlərin görüldüyü şifahi olaraq bildirilmişdir.

**3.8.4. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası**

Karyera və kommunikasiya və Keyfiyyət təminatı şöbələri tərəfindən mütəmadi olaraq rəy sorğuları təşkil olunur, onların nəticələri emal olunaraq müvafiq hesabatlar hazırlanır. Karyera və kommunikasiya şöbəsi tərəfindən yaradılmış məzun bazası mütəmadi olaraq təkmilləşdirilir. Sorğular təhsilalanlar və məzunlar arasında, əmək bazarında, akademik, inzibati və tədris-köməkçi heyət arasında təşkil olunur. Sorğular “Microsoft Forms” onlayn sorğu servisi vasitəsi ilə həyata keçirilir. Sorğular hər semestrin sonunda aparılır.

**3.8.5. ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası**

ATMU-da indikatorun məzmunu üzrə bildirilmişdir ki, rəy sorğuları və tələbələrin fərdi müraciətləri əsasında yeniliklər tətbiq olunur. Universitetdə fəaliyyət göstərən tələbə təşkilatlarının fəaliyyətinin Karyera və kommunikasiya şöbəsi tərəfindən əlaqələndirildiyi bildirilmişdir. Tələbə təşkilatlarının sədrləri ilə görüşlər təşkil olunmuş, fəaliyyətlərinə dair bir sıra məsələlərə aydınlıq gətirilmişdir. Sahə baxışı zamanı sənədlər və statistik təhlillə əlaqədar ümumi xarakterli qüsurlar müəyyən olunmuşdur. Müəyyən olunmuşdur ki, indikatorun məzmunu üzrə yeniliklər tətbiq olunsa da, onların dəyişmə dinamikasına dair təhlillər aparılmır. Tələbə və tələbə təşkilatlarının təklifləri əsasında ATM-in tələbə təşkilatlarının nəzdində İdman klubu (2021), EkoKlub (2024), Natiqlik klubu (2024), ATMU MUN (BMT Modeli) (2024), CraArt mədəni-yaradıcılıq klubu (2024) və Şahmat klubu (2023) fəaliyyət göstərir. Son illərdə tələbə klublarının sayında artım müşahidə olmuşdur.

**3.8.6. Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi vəziyyəti**

Sorğuların statistik təhlili hesabatları və Elmi Şuranın müvafiq qərarlarından çıxarışlar ilə əyani tanışlıq olmuşdur. Bəzi təcrübələrin mövcudluğu qeyd edilmişdir. Sorğuların statistik təhlili hesabatları və Elmi Şuranın müvafiq qərarlarından çıxarışlar ilə əyani tanışlıq olmuşdur. Müəyyən olunmuşdur ki, tələbə rəylərinin öyrənilməsi mütəmadi olaraq hər tədris semestrinin sonunda elektron səsvermə yolu ilə gizli şəkildə aparılır. Rəy sorğuları akademik heyətin tədris fəaliyyətinin qiymətləndirilməsi, tələbələrin tədris olunan materialları mənimsə dərəcəsinin müəyyən olunması, ATM-də tələbələr üçün yaradılmış şəraitdən məmnunluq səviyyəsinin

ölçülməsi və s. meyarlar üzrə aparılır. Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyətinin sədrlərinin ATM-in Elmi Şurasında tədrisin təkmilləşdirilməsi və tələbələrin sosial-ictimai fəallığının artırılması istiqamətində çıxışları iclasların protokollarında öz əksini tapmışdır. Tələbə təklifləri əsasında universitetin bufetində yeniləmə işləri aparılmış və sağlamlıq imkanları məhdud olan tələbələr üçün ATM-in əsas korpusunda (I korpus) uyğunlaşdırılmış tədris auditoriyaları və müvafiq infrastrukturun yaradılması işlərinə başlanılmışdır.

### 3.8.7. Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Universitetin və fakültələrin məsul şəxsləri bildirmişdilər ki, imtahan sessiyası müddətində ATMU-da Apellyasiya Komissiyası fəaliyyət göstərir. İmtahanların əksər hissəsinin elektron qaydada test üsulu ilə təşkil olunması tələbələrin qiymətləri, o cümlədən doğru və yalnış cavabları barədə imtahan bitən kimi məlumat almaqlarına şərait yaratmışdır. Bildirilmişdir ki, Apellyasiya Komissiyasına daxil olan müraciətlər birinci mərhələdə fakültə (kafedra) səviyyəsində araşdırılır, növbəti mərhələdə (yenidən yoxlama zərurəti yaranarsa) komissiya tərəfindən təkrar yoxlama həyata keçirilir. ATMU-da imtahanlara nəzarət mexanizmi qurulmuşdur. Real vaxt rejimində videokameralar vasitəsi ilə imtahan prosesi izlənilir. Prosesin şəffaflığını təmin etmək məqsədi ilə imtahanların təşkil olunduğu 2 saylı korpusun dəhlizində də imtahanları izləmək üçün videokameraların görüntülərini müşahidə etmək mümkündür. Bildirilmişdir ki, imtahan qaydalarını pozmuş, imtahandan xaric edilən tələbələrin hər biri üçün protokollar tərtib olunur və həmin tələbə fənn kreditinin 25%-ni ödəməklə təkrar imtahan vermək hüququnu itirir.

Qiymətləndirmə və imtahan qaydaları haqqında Əsasnamə
https://atmu.edu.az/upload/files/2022/10/18//-94e4451a166608198787281276710667308.pdf
ATMU-ya təhsilalanlardan daxil olan şikayət və digər müraciətlərin tələbəyönümlülük prinsipi ilə həllinə dair universitet rəsmiləri ilə yanaşı tələbə təşkilatlarının nümayəndələri də konkret təcrübələrin olduğunu bildirmişdilər. Hesabat dövründə ATMU-ya daxil olmuş müraciətlərin dinamikası və onlardan müsbət həll olunanların nisbi payının dəyişməsi barədə statistik təhlil aparılmadığından bu məlumatla tanışlıq mümkün olmamışdır.

### 3.8.8. Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti

Mövcud təhsilalan kontingenti nəzərə alınmaqla (2230 nəfər) akademik məsləhətçilərin (tyutorların) sayının artırılması tövsiyə olunur. Hazırki vəziyyətdə ATM-də hər 223 tələbəyə bir akademik məsləhətçi (tyutor) düşür.

Sahə səfəri zamanı müvafiq kvalifikasiyalara sahib 10 akademik məsləhətçinin mövcudluğu bildirilmişdir. Hər 300 nəfər tələbəyə görə 1 akademik məsləhətçinin (tyutorun) nəzərdə tutulduğu qeyd olunmuşdur. Sahə səfəri zamanı fakültələrin ixtisas profilinə uyğun kvalifikasiyalara sahib 10 akademik məsləhətçinin olduğu bildirilmişdir. Akademik

məsləhətçilərlə görüş zamanı və kadrların şəxsi qeydiyyat vərəqində onların fəaliyyət göstərdikləri fakültələrin müvafiq kvalifikasiyalarına sahib olduqları, habelə bir çoxlarının ATMU-nun məzunları olduqları müəyyən olunmuşdur. Bildirilmişdir ki, akademik məsləhətçilərin əksəriyyəti fəaliyyət göstərdiyi fakültənin məzunu olduğundan, tədris planları, tədris prosesinin təşkili və idarə olunması qaydaları, o cümlədən daxili qərarlarla yaxından tanışdırlar. Hər 300 nəfər tələbəyə görə 1 akademik məsləhətçinin (tyutorun) nəzərdə tutulduğu qeyd olunmuşdur. Mövcud təhsilalan kontingenti nəzərə alınmaqla (2230 nəfər) akademik məsləhətçilərin (tyutorların) sayının artırılması tövsiyə olunur. Hazırki vəziyyətdə ATM-də hər 223 tələbəyə bir akademik məsləhətçi (tyutor) düşür.

### 3.8.9. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Tələblər və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə kommunikasiyalar həyata keçirilir. Sahə baxışı zamanı fənn sillabuslarında müəllimlərin əlaqə vasitələri qeyd olunmuşdur. Bildirilmişdir ki, təhsilverənlər tərəfindən tələbələrin istəyinə uyğun əlavə məsləhət saatları təyin olunaraq, tələbələrin tədris olunan materialları daha yaxşı mənimsəmələri üçün şərait yaradılır. İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etməsi ilə kommunikasiyanın onlayn qaydada təşkil edildiyi bildirilmişdir. Akademik məsləhətçilər tədris ilinin əvvəlində və semestr ərzində qrup rəhbərləri ilə vaxtaşırı görüşlərin təyin olunduğunu və onların təlimatlandırıldığını bildirmişdilər.

### 3.8.10. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

Sağlamlıq imkanları məhdud olan tələbələrin tədris prosesinə inteqrasiyası və inklüzivlik prinsipinə əməl olunması halları ilə sahə baxışı zamanı tanış olunmuşdur. Təhsilin evdə təşkilinə dair nümunələrin olmadığı, lakin buna ehtiyac yaranarsa, kafedraların texniki təchizatının əlverişli olduğu müəyyən edilmişdir. Həmçinin, ATM-in Elmi Şurasının 28 aprel 2023-cü il tarixli iclasının 6 saylı protokolu ilə təsdiq olunmuş “Azərbaycan Turizm və Menecment Universitetində xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün” Tədbirlər Planı ilə əyani tanışlıq olmuşdur.

### 3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

Karyera və kommunikasiya şöbəsi tərəfindən bütün tələbələrə, o cümlədən sosial həssas qrupa aid edilən tələbələrin işlə təminatı üzrə aparılmış işlərlə və müvafiq təsdiqedici sənədlərlə əyani tanışlıq olmuşdur. Sosial həssas qrupa aid edilən tələbələrin universitet daxilində müxtəlif ictimai işlərə cəlb edilərək, onların cəmiyyətlə inteqrasiyası və karyera imkanlarının genişləndirilməsinə şərait yaradılmışdır.

### 3.8.12. Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Universitetin tədris işləri üzrə prorektoru imtahanların şəffaf keçirilməsinə diqqət çəkərək, imtahanları müvəffəqiyyətlə vermiş bütün tələbələrin təqaüdlə təmin olunduqlarını bildirmişdir. Adlı təqaüdlərin verilməsinin perspektiv olduğunu qeyd edən strateji inkişaf üzrə prorektor, gələcəkdə bu sahədə addımların atılacağını və müxtəlif stimullaşdırıcı təqaüdlərin veriləcəyini bildirmişdir.

## 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

ATM-də təhsil proqramlarının monitorinqi strategiyası 2022-2026-cı illər üçün Strategiya sənədində 3-cü məqsəd olan “Təhsilin məzmununun müasirləşdirilməsi” bölməsində təhsil proqramlarının monitorinqi təkmilləşdirilməsilə bağlı tədbirlər çərçivəsində nəzərdə tutulmuşdur. “Təhsil proqramlarının yenilənməsi və monitorinqi” qaydaları hazırlanmışdır və təhsil proqramlarının monitorinqi üzrə fəaliyyət planı mövcuddur.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

ATM-in Tədris-Metodik Şurası Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət edir. Təhsil proqramları üzrə təlim nəticələri fənn sillabuslarında əks olunmuşdur. Sillabuslar tələbələr üçün əlçatandır.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

ATM-də təhsil proqramlarının monitorinqinin aparılması üçün qaydalar hazırlanmışdır. Monitorinqin nəticələri təhlil olunaraq onun daxili keyfiyyət təminatı sisteminə verdiyi töhfə qiymətləndirilir. ATM-də təhsil proqramlarının monitorinqinin aparılması məqsədilə daxili və kənar auditdən də istifadə olunur.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ATM-də təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması təhsilalanların qəbulu, tədrisin təşkili, tədris metodları və üsulları, təlim və tədris resursları və maddi-texniki bazanı və s. sahələri əhatə edən hesabatdan formalaşdırılır.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunlaşdırılır və zəruri yeniləmələr aparılır. Əmək bazarının tələblərinin yaxından öyrənilməsi məqsədi ilə sənaye nümayəndələri ilə fokus qrup görüşləri təşkil olunur.

## 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

ATMU-da sahə səfəri zamanı Karyera mərkəzinin mövcudluğu vəziyyəti və fəaliyyət istiqamətlərinin əhatəliliyinin müəyyənləşdirilməsi məqsədi ilə müvafiq struktur bölmənin nümayəndələri ilə görüşlər keçirilmişdir. Məlum olmuşdur ki, Universitetin Karyera və kommunikasiya şöbəsi (KKŞ) 2017-ci ildə ATMU-nun nəzdində müstəqil struktur vahidi kimi təsis olunub və 14 sentyabr 2018-ci ildən fəaliyyətə başlamışdır. Karyera və kommunikasiya şöbəsi verilən səlahiyyətlər çərçivəsində ali təhsilin bütün səviyyələrində təhsilalanlar və məzunların karyera inkişafı və məşğulluğunun tənzimlənməsinə yardım göstərir. Şöbə öz fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, ATMU-nun Nizamnaməsi və Karyera və kommunikasiya şöbəsinin Əsasnaməsi əsasında tənzimləyir. Karyera və kommunikasiya şöbəsi öz fəaliyyətini həyata keçirərkən ATMU-nun digər struktur vahidləri, dövlət və icra orqanları, bələdiyyələr, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları, turizm şirkətləri, eləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq edir.

27 dekabr 2022-ci ildə məzunlarla iş qaydaları təsdiqlənmişdir ki, onun məqsədi universitet ilə məzunlar arasında qarşılıqlı əlaqələrin yaradılması və davamlılığının təmin edilməsi, fiziki və ya hüquqi şəxslər olan universitet məzunları ilə tərəfdaşlığın inkişaf etdirilməsi və universitet məzunlarının karyera inkişafina dəstək verməkdir.

Şöbənin iş planına əsasən il ərzində bir çox müxtəlif təlim və tədbirlər təşkil edilir. Bunlardan bəziləri hər il təkrar olunan tədbirlər (bayram və matəm günləri, əmək yarmarkası, ekskursiyalar, müəssisələrə səfərlər, təlimlər və s.), bəziləri isə yeni (konfranslar, simpoziumlar, elmi seminarlar, sənaye nümayəndələri ilə görüş və s) tədbirlərdir.

Məzunların əmək bazarında işlə təmin olunması istiqamətində Karyera və kommunikasiya şöbəsi tərəfindən təhlil və araşdırmalar aparılır.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

ATMU-da tələbə və məzunlara karyera məsləhət xidmətləri 2017-ci ildə yaradılmış Karyera və kommunikasiya şöbəsi tərəfindən həyata keçirilir. Karyera məsləhəti zamanı tələbələrlə təkbətək görüşlər keçirilir, onlara şəxsi inkişaf planının hazırlanması və portfolionun qurulmasında birbaşa dəstək verilir. Tələbə və ya məzun üçün CV-nin hazırlanması, iş və ya təcrübə proqramlarına müraciətin göndərilməsi, elektron şəbəkələrdə peşəkar profilin qurulması, tövsiyə məktubunun yazılması kimi işlər karyera məsləhəti xidmətinin tərkib hissəsidir. Universitet özünün rəsmi saytı vasitəsi ilə karyera məsləhəti və ya iş tapmaqda dəstək almaq istəyən məzun və tələbələr üçün qeydiyyat imkanı yaratmışdır.

KKŞ-nin təşkilatçılığı və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə il ərzində 1-2 dəfə olmaqla universitetin məzun və tələbələri üçün ölkənin nüfuzlu, tanınmış müəssisələrinin iştirakı ilə əmək yarmarkası təşkil olunur. Sosial şəbəkələr və xüsusi platformalarda yaradılmış qapalı və açıq qruplarda mütəmadi olaraq, müəssisələr tərəfindən göndərilən vakansiyalar məzunlar ilə paylaşılır.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Karyera və kommunikasiya şöbəsi tərəfindən 2019-cu ildən etibarən özündə məzunlar haqqında lazımi məlumatları əks etdirən elektron ATMU məzun bazası yaradılmışdır. Həmçinin 2015-2019-cu illər ərzində ATMU-nun bakalavriat səviyyəsindən məzun olan 1561 nəfərdən 972 nəfər məzun haqqında məlumat əldə edilmişdir.

Tələbələrin məzun olduqları ildə əmək fəaliyyətinə başlama göstəricisi dəyişmə dinamikası məzunların kompetensiyalarına və ixtisaslarına uyğun əmək fəaliyyətinə başlama göstəricisi və dəyişmə dinamikası KKŞ tərəfindən izlənilir. Belə ki, 2021-ci ildən etibarən məzunlara əmək fəaliyyəti ilə bağlı elektron sorğular göndərilir və təhlillər aparılır. Nəticələrə əsasən məzun bazasında müvafiq yenilənmələr həyata keçirilir. Lakin bu tipli sorğuların əhatə dairəsi kiçikdir, iştirakçı sayı azdır. Sahə səfəri zamanı təqdim olunan statistik məlumatlar əsasında məlum olmuşdur ki, son 5+2 il ərzində məzunlar arasında keçirilən sorğuların sayı 1-3 arasında dəyişir.

Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin genişləndirilməsi, eyni zamanda işəgötürənlərdən məzunlarla bağlı geridönüşlərin mütamadi alınması və bu təkliflər əsasında çatışmazlıqların aradan qaldırılması, məzunlarda idarəetmə bacarıqlarını inkişaf və təkmilləşdirmə üçün birinci kursdan etibarən təlimlərin təşkili tövsiyə olunur. İntensiv olaraq əmək bazarının tələb və təkliflərini dəyərləndirmək, bu istiqamətdə sistematik iş aparmaq, xarici universitetlərin təcrübəsindən yararlanmaq daha da faydalı ola bilər.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

ATMU-ya sahə səfəri zamanı əldə edilmiş məlumatlara əsasən məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti onlayn sorğu vasitəsi ilə həyata keçirilsə də bu sorğular keyfiyyətin ölçülməsinə kifayət etmir. Belə ki, 2017/2018-2023/2024-cü illər ərzində fənlər üzrə məmnunluq sorğusu 3 dəfə, istehsalat təcrübəsi üzrə tələbələrin məmnunluq sorğusu 3 dəfə, təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusu cəmi 2 dəfə keçirilmişdir. Keçirilən sorğuların azlığı və çoxşaxəli olmaması nəticələrin tam reallığı əks etdirmədiyi və məmnunluğun effektiv ölçülmədiyi qənaətinə gəlməyə imkan verir.

Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi mexanizmlərinin artırılması, sorğuların

yalnız onlayn deyil həm də təkbətək və qrup halında görüşlər və digər vasitələr ilə keçirilməsi, həmçinin bu istiqamətdə əhatəli və sistemli işlərin aparılması tövsiyə olunur.

ATMU-da müxtəlif xidmətlərin keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi məqsədi ilə müxtəlif formatlı rəy sorğularının həyata keçirildiyi bildirilmişdir. Həmçinin, Universitetin Karyera və kommunikasiya şöbəsi tərəfindən məzun və tələbələrin təcrübə prosesi barədə rəylərinin öyrənildiyini təsdiq edən sorğu nəticələri və onları statistik təhlillərini əks etdirən hesabatlar təqdim olunmuşdur. Universitetdə məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi prosesi həyata keçirilir.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Sahə səfəri zamanı keçirilən görüşlər və müşahidələr zamanı məlum oldu ki, ATMU-da məzunlar haqqında elektron məlumat bazasının mövcudluğu onlarla əlaqələr qurmağa və əməkdaşlıq etməyə imkan verir. Məzun bazası məzunlar haqqında ümumi məlumatları əldə etmək, onlarla əlaqələr qura bilmək, işsiz, ixtisası və qeyri-ixtisas üzrə işləyən, hərbi xidmətdə olan, magistraturaya qəbul olan, xaricə köçən və s. göstəricilər üzrə statistik məlumatları hazırlamaq imkanı verir. Həmçinin baza vasitəsi ilə məzunların karyera dinamikasını izləmək mümkündür. Sahə səfəri çərçivəsində həm bakalavr, həm də magistratura səviyyələri üzrə məzunların işlə təmin olunma göstəricilərinə (ixtisasa uyğun və uyğun olmayan əmək fəaliyyətinə başlamış məzunlar barədə məlumatlar) baxış keçirilmişdir.

Məzunlarla davamlı əlaqə sisteminin davamı olaraq məzunlara vakansiyalar haqqında məlumatların göndərilməsi, tədbirlər barədə məlumat və bu kimi digər elan və xəbərlər sosial şəbəkələrdə ATMU məzunları üçün yaradılmış bağlı qruplarda (məsələn: ATMU-nun votsap qrupu, “ATMU Alumni Network” facebook sosial şəbəkəsindəki qrup) həyata keçirilir.

# 4. ELMİ TƏDQİQAT

## 4.1 Elmi-tədqiqat strategiyası

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

ÖH-də göstərilir ki, ATMU elmi tədqiqat strategiyası qəbul olunmuşdur. Həmçinin ayrıca ATMU-da Elmi-tədqiqat strategiyası mövcuddur. ATMU-nun Elm və innovasiya şöbəsi tərəfindən tərtib edilən, Elmi Şuranın 2023-cü il 14 sentyabr 1 saylı protokolu ilə təsdiq edilən “Elmi-tədqiqat strategiyası”dır. Elmi tədqiqat üzrə 5 hədəf müəyyən olunmuşdur:

1.Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək;

2.Magistatura və doktorantura təhsil səviyyəsində tədqiqat mühitinin və kadr hazırlığının təkmilləşdirilməsi;

3. İnnovasiya sahəsində universitetin strategiyaları və inkişaf planlarının, inkişafın yol xəritəsinin və bu istiqamətli digər sənədlərin hazırlanması;

4.Digər beynəlxalq və yerli ali təhsil və elmi-tədqiqat müəssisələri ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması;

5. “Web of Science” və “Scopus” elmi platformalara daxil olan jurnallarda məqalələrin sayının artılması.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

ATM-ə sahə səfərləri zamanı və komissiyaya təqdim olunmuş ÖH-də 2022-2026-cı illər üçün strategiyasında beş istiqamət müəyyən edilmişdir ki, bunlarda elmi tədqiqatları koordinasiyalı həyata keçirmək, kadr hazırlığının təkminləşdilməsi, innovasiyalrının ATMU strategiyasına uyğunlaşdırlması və beynəlxalq indeksli jurnallarda elmi məqalələlərin çap olunmasının təşviq edilməsi sənədlərdə öz əksini tapır. Müvafiq sənədlərin təhlili və sahə səfərləri zamanı ATMU-nun 2022-2026-cı illər üçün qəbul etdiyi “Elmi-tədiqat Strategiyası”nın qismən uyğunluğu müəyyən edilmişdir. Yeni hədəflərə istiqamətlənən tədqiqat işləri əsasən lokal xarakter daşımışdır. Missiyada qeyd olunan “ATMU-nu beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevirmək” istiqamətində tədbirlər onun strateji planına əsasən uyğundur.

Bununla yanaşı, aparılmış təhlillər strateji sənəddə qeyd olunan istiqamətlər üzrə monitorinqin zəif təşkili, elmi-tədqiqat işlərinin müəyyən edilmiş plan üzrə yerinə yetirilməsində uyğunsuzluq Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

ATM-ə sahə səfərləri zamanı təşkil olunmuş müsahibə, Elm və innovasiya şöbəsindəki görüşlər, müvafiq sənədlərin təhlili nəticəsində Strateji Planda nəzərdə tutulan fəaliyyət istiqamətlərinin nəzərə alınması Akkreditasiya Komissiyası tərəfindən müəyyən olunmuşdur. Eyni zamanda, təqdim olunmuş elmi tədqiqat strategiyasında uyğunluq olsa da, 5 illik planların və hesabatların təhlili əsasında müvafiq indikator üzrə işlərin yerinə yetirilmə səviyyəsinin aşağı olması Akkreditasiya Komissiyası tərəfindən müəyyənləşdilmişdir.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

ATMU-da elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi məqsədilə ATM-in strateji planının əsas istiqamətləri üzrə sənaye təcrübəsinin uyğunluğu müəyyən edilmişdir. Sahə səfəri zamanı innovasiya mərkəzinin yaradılması müəyyən edilmiş, magistratura və doktorantura səviyyəsində dissertasiya mövzularının seçilməsində aktuallıq təmin edilmişdir. Magistratura səviyyəsində beynəlxalq müştərək proqramlar Avstriyanın Kremis Univesiteti ilə birgə əməkdaşlıq hesabına təmin edilmişdir. Həmçinin dissertasiya mövzularının aktuallığını təmin etmək üçün dövlətin turizm sahəsi üzrə strategiyası və beynəlxalq trendlər nəzərə alınmışdır.

Sahə səfərləri zamanı Akkreditasiya Komissiyası tərəfindən ATMU-nun akademik heyətinin beynəlxalq və yerli lahiyələrdə iştirakının olmaması, praktik tədqiqatların maliyyələşdirilməməsi, həmçinin "Web of Science" və "Scopus" bazalarında indeksləşən jurnallarda dərc olunan məqalələrin sayının artırılması təmin edilməmişdir.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Magistr və doktorantların elmi-tədqiqat imkanlarının artırılması məqsədilə kafedralarda müzakirələr təşkil olunmuş, məsləhətlər verilmiş, tədqiqatların nəşr edilməsinə dəstək göstərilmiş, elmi-praktiki konfranslar keçirilmiş, universitetin elmi-tədqiqat jurnalında çap etdirilməsinə şərait yaradılmışdır. Kafedrada hazırlanan magistr və doktorantların dissertasiya işlərinin bir nüsxəsi tədris prosesində istifadə üçün kitabxanalarda saxlanılır. Həmçinin doktorantların və məzunların tədris proseslərinə cəlb olunması müəyyən edilmişdir.

ATM-ə sahə səfəri zamanı elmi-tədqiqat və innovasiyaların təlim-tədris prosesinə inteqrasiyanın zəif təşkili müəyyən edilmişdir.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

ATMU-da akademik heyətin elmi-tədqiqat bacarıqlarının təkmilləşdirilməsi üçün strateji plana uyğun olaraq differensial əməkhaqqı sistemin tətbiqi nəzərdə tutulur. Bununla yanaşı, dissertant və doktorantlara elmi rəhbərlərin məhsuldarlığının artırılması, ixtisasların spektrinin genişləndirilməsi müşahidə edilmişdir. Elmi konfransların keçirilməsi, dərslik, monoqrafiya və proqramların çapına maliyyə dəstəyi göstərilmişdir.

Həmçinin, beynəlxalq nüfuzlu jurnallarda məqalə dərc edən tədqiqatçıların mükafatlandırılması planının hazırlanması ATM-in elmi-tədqiqat strategiyasında nəzərdə tutulmuşdur.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Elmi-tədqiqat işlərinin əlaçatanlığının təmin olunmasında ATMU strategiyasın görmək mümkün olsa da (https://atmu.edu.az/upload/files/2023/10/23//-aaaccd27169804499493867976710309655.pdf), digər dillərdə tərtib edilməmişdir.

Həmçinin, aparılan elmi tədqiqat işləri, onun nəticələrinin əlçatanlığının təmin edilməməsi Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Elmi-tədqiqat strategiyasının hazırlanmasında AR Dövlət Turizm Agentliyinin nümayəndələri və professor-müəllim heyətinin təmsilçilərinin maraqlı tərəf kimi iştirak etmələri müşahidə edilmişdir.

## 4.2 Tədqiqat resursları

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

ATMU-nun maddi bazası, infrastrukturu və texnoloji resurslarının ATM tərəfindən müəyyən edilmiş elmi-tədqiqat məqsədləri və tədqiqatçıların elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə uyğun olduğu müşahidə edilmişdir. ATM-ə sahə səfəri zamanı müəyyən edilmişdir ki, elmi-tədiqat sahəsinə ayrılan vəsaitlər əsasən konfransların keçirilməsi, monoqrafiya və dərsliklərin çap olunmasına sərf edilmişdir. Həmçinin sahə səfəri zamanı elmi-tədiqatlara ayrılan büdcə vəsaitlərini təsdiq edən sənəd təqdim olunmamışdır.

Hesabat dövründə ATMU büdcəsindən elmi-tədqiqat məqsədləri ilə ayrılmış maliyyə resurslarının ATM-in elmi-tədqiqat məqsədlərinə uyğunluğu müəyyənləşdirilmişdir.

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

ÖH-də ATMU-da aktiv elmi fəaliyyətlə məşğul olan doktorant və dissertantlar daxil olmaqla 121 nəfər olduğu qeyd edilmişdir. Bu da ATMU-da fəaliyyət göstərən akademik heyətin 55%-ini təşkil etmişdir.

Sahə səfəri zamanı aktiv elmi-tədqiqatda iştirak edənlərin dinamikliyi müşahidə olunmamışdır. Akkreditasiya Komissiyası elmi-tədqiqat işləri ilə məşğul olan akademik heyətin keyfiyyəti və dinamikliyinin artırılmasını tövsiyə edir.

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

ÖH-də qeyd edilir ki, rektorun 2023-cü il 15 sentyabr tarixli əmri ilə Tələbə Elmi Cəmiyyətinin (TEC) Nizamnaməsi təsdiq edilmişdir. TEC hər bir fakültə üzrə tələbələr arasında elmi-tədqiqat işlərinin aparılması üçün maarifləndirici seminarlar keçirmişdir.

ATM-də fəaliyyət göstərən Elm və innovasiyalar şöbəsi, həmçinin elmi kitabxana gənclərin elmi-tədqiqat işləri ilə məşğul olmaları üçün qənaətbəxş olduğu sahə səfərləri zamanı müəyyən edilmişdir.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

ÖH-də ATMU-nun professor-müəllim heyətinin böyük əksəriyyətinin “Google Scholar”, “Web of Science”, “Scopus”, “ResearchGate” elmi-informasiya bazalarından qeydiyyatdan keçdiyi qeyd olunmuşdur ki, onlarında ümumi sayı 102 nəfər təşkil edir. Bu da ümumi akademik heyətin 50%-in əhatə edir.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

ÖH-də ATMU-da fəaliyyət göstərən professor-müəllim heyətinin elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı tədbirlər tətbiq olunduğu qeyd edilir. ATMU-nun rektorunun 2018-ci il tarixli, 331 nömrəli "ATMU əməkdaşlarının elmi nəşrlərinin stimullaşdırılması haqqında" əmrinə əsasən "Web of Science", "SCOPUS" platformalarında məqalə çap etdirən hər bir əməkdaşa kateqoriyasından asılı olaraq birdəfəlik mükafat müəyyənləşdirilir. Eyni zamanda, ETN tərəfindən qrif verilən dərsliklərin və digər vəsaitlərin çapı, beynəlxalq mübadilə proqramlarında iştirak edənlərin, beynəlxalq konfrans və tədbirlərdə iştirak üçün ezam olunan əməkdaşların xərcləri universitet hesabına qarşılanır.

Sahə səfəri zamanı elmi-tədqiqat işlərinin dəstəklənməsi üçün ATMU rəhbərliyi tərəfindən stimullaşdırıcı tədbirlərin görülməsi müşahidə edilmişdir.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

ÖH-də ATMU-da elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlir əldə edilməməsi qeyd olunmuşdur.

Akkreditasiya Komissiyası elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması, beynəlxalq və ölkə səviyyəli layihələrdə akademik heyətin iştirakının vacib olduğunu tövsiyə edir.

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

ÖH-də ATMU-nun AMEA-nın Fəlsəfə və Sosiologiya, İqtisadiyyat, Coğrafiya institutları, BDU, ADMİU, ADİU, ADNSU, ADPU ilə əməkdaşlığının olduğu və bu əməkdaşlığın elmi rəhbərlərin təyin edilməsi, imtahan komissiyasının sədr və üzvlərinin seçilməsində iştirak etdiyi qeyd edilir. ATM-ə sahə səfəri zamanı qeyd olunan elmi-tədqiqat institutları və universitetlərlə birgə elmi-tədqiqat işlərinin aparılması haqqında sənəd komissiya üzvlərinə təqdim olunmamışdır.

## 4.3 Elmi-tədqiqat fəaliyyəti

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

ÖH-də qeyd olunur ki, ATMU-da elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi sahəsində Elm və inkişaf məsələləri üzrə prorektorluq, Elm və innovasiyalar şöbəsi fəaliyyət göstərir. Həmçinin, 27 mart 2023-cü il tarixində "Elmi-tədqiqat Mərkəzinin yaradılması haqqında" əmr verilmişdir.

ATM-ə sahə səfəri zamanı qeyd olunan struktur bölmələrin fəaliyyət istiqamətlərinin elmi-tədqiqat fəaliyyətinin koordinasiyası, "Antiplagiat" sistemi və "Əqli mülkiyyətin qorunması" üçün uyğun olduğu müşahidə edilmişdir. ÖH və sahə səfəri zamanı elmi-tədqiqat fəaliyyətlərinin idarə olunması üzrə strukturların optimallaşdırılması Akkreditasiya Komissiyası tərəfindən tövsiyə olunur.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

ATMU-da konfranslar, seminarlar və digər elmi-tədqiqat məqsədli tədbir və görüşlərin keçirilməsinin dinamikliyi müşahidə edilmişdir. ATMU-da hesabat dövrünü əhatə edən elmi-tədqiqat tədbirlərinin il ərzində 4-5 dəfə keçirilməsini, onların universitet tərəfindən maliyyələşdilməsini müsbət hal olaraq qeyd etmək olar.

ATM-də elmi-tədqiqat xarakterli tədbirlərin keçirilməsi ilə bağlı vəziyyət aşağıdakı diaqramda göstərilmişdir:




### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Elmi-tədqiqat xarakterli konfranslarda iştirak edən yerli və beynəlxalq iştirakçıların dinamikası aşağıdakı cədvəldə göstərilmişdir:

| 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|---|
| 7 | 8 | 55 | 97 | 40 | 33 | 17 |

Sahə səfəri zamanı təhlillərdən aydın olur ki, elmi konfranslarda iştirakçıların sayının dinamikası tam təmin edilməmişdir.

Akkreditasiya Komissiyası tərəfindən elmi konfranslarda iştirak edən xarici ölkə tədqiqatçılarının sayının ayrı göstərilməsi, həmçinin tədqiqatçıların daha aktiv cəlb edilməsi tövsiyə edilir.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Elmi tədqiqat xarakterli konfrans, seminar və görüşlərdə iştirak edən gənc tədqiqatçıların sayının dinamikliyi təmin edilmişdir. Elmi-tədqiqat tədbirlərində iştirak edən gənc tədqiqatçıların dinamikası aşağıdakı cədvəldə verilmişdir:

| 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|---|
| 31 | 27 | 100 | 218 | 56 | 77 | 26 |

Cədvəldən göründüyü kimi gənclərin elmi-tədqiqat fəaliyyətlərinə fəal cəlb edilməsi təmin edilməsi üçün müəyyən stimullaşdırıcı amillərin həyata keçirilməsi vacibdir.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

ATMU hesabat dövründə elm və təhsil sahəsində 3 beynəlxalq qrant layihəsinin həyata keçirilməsində iştirak etmişdir. Sahə səfəri zamanı beynəlxalq miqyasda qrant layihələrində iştirakın az olması, verilən məlumatlarda ölkə miqyasında mövcud qrant layihələrində iştirakın olmaması müşahidə edilmişdir.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

ATMU sahə səfərləri zamanı hesabat dövründə (2018-2024) ATM tərəfindən elmi-tədqiqat fəaliyyəti üzrə patent əldə edilmədiyi müəyyən edilmişdir.

### 4.3.7 İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

ÖH ilə tanışlıq və sahə səfəri zamanı ATMU-nun Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə 2007-ci ildə Azərbaycan-Avstriya Turizm Proqramının reallaşdırılması ilə bağlı əməkdaşlığın mövcudluğu müəyyən edilmişdir.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

ÖH-də ATMU-nun AMEA Fəlsəfə və Sosiologiya, İqtisadiyyat, Coğrafiya institutları, BDU, ADMİU, ADİU, ADNSU, ADPU ilə əməkdaşlıq əsasında birgə elmi-tədqiqat işlərinin aparıldığı qeyd edilir. Sahə səfəri zamanı birgə aparılan elmi tədqiqatların hesabatları müəyyən edilməmişdir.

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

ÖH-də 10 mart 2020-ci il tarixində ATMU "Turizm işinin təşkili" ixtisas proqramı üzrə Ümumdünya Turizm Təşkilatının "UNWTO.TedQual" beynəlxalq keyfiyyət sertifikatına, həmçinin 4 sentyabr 2023-cü il tarixində "Turizm və Qonaqpərvərlik" və "Sosial menecment fakültələri" İSO 210001:2018 – Təhsilin idarəedilməsi standartı üzrə, sertifikata layiq görülməsi qeyd edilir. Bununla yanaşı, ATMU-nun üzv olduğu assosiasiya, beynəlxalq təşkilatlar aşağıdakılardır:

- Ümumdünya Turizm Təşkilatı;
- DAAD təhsil şəbəkəsi;
- GIZ (The Deutsche Gesellschaft für Internationale Zusammenarbeit - Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti);
- British Council;
- Dante Alieghieri Cəmiyyəti;
- Lüsern Dünya Turizm Forumu;
- Ramualdo Del Bianco Fondu və s.

ATM-ə sahə səfəri zamanı qeyd olunan beynəlxalq təşkilatlarla birgə elmi-tədqiqat işlərinin aparılması haqqında faktlar və hesabatlar təqdim edilməmişdir.

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

ATMU-da elmi-tədqiqatla məşğul olan akademik heyətin tərtib etdiyi dərslik, dərs vəsaitləri, monoqrafiya və tədris proqramlarının çapının təşkilinin dinamikliyi təmin edilmişdir. Çap edilən dərslik, dərs vəsaitləri, monoqrafiya və proqramların 2019-2023-cü illər üzrə sayı cədvəldə verilir:

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| **Dərs vəsaiti** | 3 | 13 | - | 1 | 5 |
| **Dərslik** | - | - | - | - | - |
| **Monoqafiya** | 3 | 2 | - | - | 2 |
| **Metodik vəsait** | - | 3 | 1 | - | 5 |
| **Proqram** | 32 | 226 | 44 | 101 | 85 |

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

ATMU-da akademik heyət, magistrant və doktorantların elmi-tədqiqat işlərinin nəticələrinin dərc edilməsi üçün "Turizm və qonaqpərvərlik tədqiqatları" adlı beynəlxalq jurnalı ildə 4 dəfə çap edilir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə iqtisad elmləri, tarix elmləri və sənətşünaslıq üzrə (6219.01-Kulturologiya və onun ümumi məsələləri; 6220.01-Muzeyşünaslıq) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc

olunması tövsiyə edilən nəşrlərin siyahısı”na daxil edilmişdir. Gələcək planlarda “Azərbaycan Turizm və Menecment Universitetinin fənlərarası jurnalı”nın təsis olunması nəzərdə tutulur.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"in) artım dinamikası

ÖH ilə tanışlıq və sahə səfəri zamanı verilən məlumatların təhlilindən aydın olur ki, beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index”) artım dinamikası hesabat dövründə zəif müşahidə edilmişdir. Dərc olunmuş məqalələr üzrə istinadlar aşağıdakı cədvəldə verilmişdir:

| 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|---|
| 19 | 28 | 36 | 40 | 31 | 25 | 3 |

Akkreditasiya Komissiyası tərəfindən istinadetmə indeksləşməsinin ATMU üzrə az olması, beynəlxalq nüfuzlu jurnallarda təmsiletmənin aşağı səviyyədə olduğu müəyyən edilmişdir.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

ÖH-də və sahə səfəri zamanı ATMU-da kadr hazırlığı həyata keçirilən magistratura üzrə bütün ixtisaslaşmaların tədris planlarında elmi-tədqiqat yönümlü fənlərin (elmi-tədqiqat metodları, elmi-tədqiqatlarda ekonometrik təhlil və modelləşdirmə, elmi-tədqiqat təcrübəsi və s.) nəzərdə tutulması müşahidə edilmişdir. Bu fənlərin proqramlarının tərtibində elmi-tədqiqat metodlarından istifadə, dissertasiya işinin yazılması, ədəbiyyatlardan istifadə və istinadların verilməsi müşahidə edilmişdir. Bununla yanaşı, doktorantura (əyani və qiyabi) təhsil səviyyəsi üçün tədqiqatyönümlü tədris planları hazırlanmışdır.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

ÖH-də və sahə səfəri zamanı təqdim olunan sənədlərdə ATMU-da akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün seminar və təlimlərin keçirilməsi müşahidə edilmişdir.

Qeyd edilən seminar və təlimlərin sayı 2021-ci ildə 2, 2022-ci ildə 3, 2023-cü ildə isə 6 olmuşdur. Hesabat dövründə digər illər üzrə (2018-2020) təlim və seminarların siyahısı komissiya üzvlərinə təqdim olunmamışdır.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

ATMU doktorantura proqramlarına qəbul prosesi barədə məlumatlar ATM rəsmi internet səhifəsi vasitəsilə paylaşılır. ÖH-də ATMU-da təhsil alan və elmi işini müdafiə edən 47 nəfər tədrisə cəlb olunmuşdur. Onu da qeyd edək ki, “2019-2023-cü illər üçün Azərbaycan respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verilməsi üçün doktorantların işə cəlb edilməsi ÖH və sahə səfəri zamanı müşahidə edilməmişdir.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Müvafiq indikatorla bağı vəziyyət aşağıdakı cədvəldə verilmişdir:

| İllər | Professorların sayı | Akademik heyət sayı | Professorların ümumi akademik heyətdə payı %-lə |
|---|---|---|---|
| 2018-2019 | 3 | 168 | 1 |
| 2019-2020 | 20 | 192 | 10 |
| 2020-2021 | 14 | 181 | 7 |
| 2021-2022 | 10 | 160 | 6 |
| 2022-2023 | 26 | 160 | 16 |
| 2023-2024 | 27 | 166 | 16 |

Cədvəldən göründüyü kimi, ATM tədris prosesində iştirak edən professorların ümumi akademik heyətdə payı 5%-dən çox olmuşdur.

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Müvafiq indikatorla bağı vəziyyət aşağıdakı cədvəldə verilmişdir:

| İllər | Elmi adı və elmi dərəcəsi olanların sayı | Akademik heyət sayı | Elmi adı və elmi dərəcəsi olanların ümumi akademik heyətdə payı %-lə |
|---|---|---|---|
| 2018-2019 | 80 | 168 | 47 |
| 2019-2020 | 90 | 192 | 46 |
| 2020-2021 | 80 | 181 | 44 |
| 2021-2022 | 74 | 160 | 46 |
| 2022-2023 | 75 | 160 | 46 |
| 2023-2024 | 81 | 166 | 48 |

#### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

Hesabat dövründə ATMU-da təklif edilən doktorantura proqramlarının ATM-in elmi-tədqiqat hədəfləri ilə uyğunluq təşkil etdiyi Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilmişdir.

#### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Elmi-tədqiqat işlərinin yekun monitorinqi kafedra iclaslarında, fakültə elmi şuralarında, sonda isə Elm və innovasiya şöbəsində həyata keçirilir.

Sahə səfəri zamanı elmi tədqiqat işlərinin monitorinqinin nəticələrindən aydın oldu ki, tədqiqat işləri pərakəndə aparılmış, müəyyən edilmiş mövzuları əhatə etməmişdir. İxtisas kafedralarında qeyd olunan problemlər daha çox müşahidə edilmişdir. Akkreditasiya Komissiyası tərəfindən elmi işlərin monitorinqinin aparılmasının və qiymətləndirilməsinin təkmilləşdirməyə ehtiyacın olduğu müəyyən edilmişdir.

#### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

ATMU-da dissertasiyaların hazırlanması və müdafiəsi müvafiq qaydalara uyğun həyata keçirilir, həmçinin Elm və innovasiya şöbəsinin əsasnaməsinə uyğun olaraq təşkil olunur. Universitetdə doktorantura hazırlığı çərçivəsində 25 nəfərin ilkin müzakirəsi təşkil edilərək sənədləri müdafiə üçün müvafiq elmi şuralara təqdim edilmişdir.

### 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

#### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

ATMU-da antiplagiat və akademik dürüstlük siyasəti mövcuddur və akademik dürüstlüyün təmin olunması üçün STRİKE.PLAGİARİSM proqramının imkanlarından istifadə edilir. ATMU-da elmi-tədqiqat işləri ilə məşğul olan bütün akademik heyətin, həmçinin bakalavr, magistrant və doktorantların elmi işlərinin dürüstlük səviyyəsi məhz bu proqram vasitəsilə yoxlanılır. Akademik dürüstlük qaydalarının ATM-in rəsmi internet səhifəsi vasitəsilə əlçatanlığının təmin olunduğu sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir https://atmu.edu.az/upload/files/2024/01/26//-8860e834170627349348378662710781158.pdf.

### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

Universitetdə köçürmə hallarının qarşısının alınması məqsədilə müvafiq prosedurlar mövcuddur ki, bu da müvafiq qaydalarla tənzimlənir.

Sahə səfəri zamanı ATMU-da İşçi Tədris Proqramlarında 4.1-ci bəndində akademik dürüstlüklə bağlı qaydalar əksini tapmış, həmçinin təsilalanlara "Tələbələrin məlumat kitabçası" və "Antiplagiat sistemi və əqli mülkiyyət üzrə Qaydalar"ın mövcudluğu müşahidə edilmişdir. Bununla yanaşı, imtahan keçirilən auditoriyalar müşahidə kameraları ilə əsasən təchiz olunduğu müəyyən edilmişdir.

### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

ATMU-da akademik heyətin məqalə, dərs vəsaiti, monoqrafiya, magistr və doktorantların elmi işləri antiplagiat sistemi 4.4.1. indikatorunda göstərilmiş STRİKE.PLAGİARİSM proqramı ilə yoxlanılması həyata keçirilir. Hesabat dövründə antiplagiat yoxlaması həyata keçirilmiş sənədlərin statistikası aşağıdakı cədvəldə verilmişdir:

| İllər | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Sənədlərin sayı | 334 | 137 | 192 | 126 | 96 |

Verilən statistikanın təhlilindən aydın olur ki, plagiat proqramından istifadə edənlərin dinamikliyi təmin olunmuş, həm elmi-tədiqat işlərində, dissertasiyalarda, məqalə və konfrans materiallarında akademik dürüstlük gözlənilmişdir.

# 5. İDARƏETMƏ SİSTEMİ

## 5.1 İdarəetmə orqanları

### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

ATMU-nun nizamnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 avqust tarixli 291 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Bu nizamnamə ilə Universitetin ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi müvafiq əsasnamə və qeyd edilən nizamnamə ilə müəyyən olunur.

Sahə baxışı keçirilən zaman Elmi Şuranın illik fəaliyyət planlarının mövcudluğu müxtəlif illər üzrə təsdiqini tapmışdır. ATMU-da EŞ iclasları pandemiya dövründən etibarən onlayn qaydada keçirilir. İclasların keçirilmə formatı ilə bağlı hər hansı qərar və ya təsdiqedici sənədlər yerində verifikasiya oluna bilmədi. İclas protokollarında da bununla bağlı qeydlərə rast gəlinmədi. EŞ iclaslarının protokollarında Şura üzvlərinin tərkibində dəyişikliklər olduğu müəyyən edilsə də, bu dəyişikliyin aparılmasını təsdiq edən müvafiq sənədlər yerində verifikasiya olunmamışdır. Təqdim olunmuş müvafiq sənədlərdə bununla bağlı ziddiyyətli məqamlar olmuş və məsələ ilə bağlı məsul şəxslər məlumatlandırılmışdır.

Universitet Nizamnaməsinin 4.6-cı bəndinin tələblərinə əsasən Universitetin strateji inkişaf məsələləri üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasıdır. Himayəçilər Şurasının tərkibini azı 3 (üç) nəfər olmaqla AR Dövlət Turizm Agentliyi təsdiq edir. Himayəçilər Şurasının yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi Əsasnamə və ATM-in Nizamnaməsi ilə müəyyən olunur. Sahə baxışı keçirilən zaman Nizamnamədə adı çəkilən 4.6-cı bəndinin tələblərinə dair işlərin hələ yetəri səviyyədə qurulmadığı, Himayəçilər Şurasının yaradılması barədə əmrlər və qərarların olmadığı müəyyən olunmuşdur.

Universitetin Nizamnaməsinin 4.4-cü bəndinə əsasən, Universitetdə tədris-metodiki işlərin həyata keçirilməsi üçün Himayəçilər Şurası tərəfindən Elmi-Metodiki Şura yaradılır. Elmi-Metodiki Şuranın yaradılması qaydası və səlahiyyətləri Himayəçilər Şurasının təsdiq etdiyi Əsasnamə ilə müəyyən olunur.

ATMU-da Elmi-Metodiki Şura Elm və inkişaf məsələləri üzrə prorektorun təqdimatı əsasında və rektorun 04.10.2018-ci il 313 saylı əmri ilə yaradılmışdır. Əsasnaməyə görə Şura Universitetdə elmi işlərin keyfiyyətinin artırılması, doktorant və dissertantların yerinə yetirdikləri tədqiqat işlərinə, elmi konfransların təşkili və aparılmasına, monoqrafiyaların çapa tövsiyə edilməsinə, bakalavr və magistrların elmi tədqiqata cəlb edilməsi məqsədini daşıyır. Şuranın illik iş planları mövcuddur. İş planlarının strukturunda müəyyən təkrarlara yol verilir. Dövrü hesabatlar isə yerində verifikasiya olunmadı.

ATMU-da tədris-tərbiyə prosesinin keyfiyyətini və onun elmi metodiki təminatını yüksəltməyə xidmət edən istiqamətverici-məsləhət orqanı Tədris Metodiki Şura fəaliyyət göstərir. Əsas istiqamətləri tədris standartları və tədris planlarının ekspertizası, tədris prosesinin keyfiyyətinin artırılması və bunun üçün tövsiyələrin verilməsidir. Şuranın illik iş planları mövcuddur. İş planlarının strukturunda müəyyən təkrarlara yol verilir. Bununla yanaşı Elmi Metodiki və Tədris Metodiki Şuraların iş planlarında da bəzən bir-birini təkrarlayan məsələlərə rast gəlinir. Şuranın katibi Turizm və qonaqpərvərlik fakültəsinin tyutorudur. Dövrü hesabatlar isə yerində verifikasiya olunmadı.

Komissiyanın tövsiyəsi ondan ibarətdir ki, gələcəkdə hər iki şuranın iş planlarının daha dəqiq müəyyənləşdirilməyə və təkmilləşmiş qaydada koordinasiya olunmasına, aparılan tədbirlərin və onların icra mexanizmlərinin monitorinqinə, eləcə də şuranın katibliyinə iş yükü daha az olan şəxslərin cəlb olunmasına ehtiyac vardır.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

ATMU-nun idarəetmə orqanı olan Elmi Şurasının Əsasnaməsinə görə onun səlahiyyət müddəti 3 ildir və buna uyğun olaraq EŞ tərkibi 3 illik təsdiq edilir. Həmin Əsasnaməyə görə ATMU-nun EŞ, AR DTA-nın göstərişinə əsasən yaradılır və Şuranın tərkibi onun tərəfindən təsdiq edilir. EŞ-nin 29.12.2021-ci il tarixli qərarı ilə EŞ-nin tərkibi ən son 27 nəfər olmaqla AR DTA tərəfindən 04.04.2022-ci ildə təsdiq edilib.

Elmi Şuranın tərkibi 3-10 %-ə qədəri üç fakültədən hərəsindən bir nəfər olmaqla müəllimlər, TEC, TGT və THT nümayəndələri təmsil olunur və üzvdürlər. EŞ-də işəgötürənlərin və ictimaiyyət nümayəndələrinin üzv kimi təmsilçiliyi nəzərdə tutulmamışdır. Səbəb, AR Təhsil Nazirinin 10 noyabr 1997-ci il 792 nömrəli qərarı ilə təsdiqlənmiş Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamədə işəgötürənlər və ictimaiyyət nümayəndələrinin təmsil olunması məsələsinin yer almaması göstərilir. İctimaiyyət nümayəndələri və işəgötürənlərin müşahidəçi kimi EŞ-yə dəvət olunması tövsiyə olunur.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Sahə baxışı keçirilən zaman Elmi Şuraya, Elmi-Metodiki Şuraya, Tədris Metodiki Şuraya dair Əsasnamələr və illik fəaliyyət planlarının mövcudluğu illər üzrə təsdiqini tapmışdır. Müvafiq Şuraların iş planı hər tədris ilinin ilk iclaslarında təsdiqlənir. İş planı həmin Şuraların Əsasnaməsində müəyyənləşmiş vəzifələrə uyğun olaraq tərtib edilir, aylar üzrə məsələlərin müzakirəsini əks etdirir. Hər bir Şuranın iclasları müəyyən qrafik əsasında aparılır, zəruri hallarda növbədənkənar iclaslar keçirilir.

ATMU-nun Elmi Şura haqqında Əsasnaməsi Fəaliyyətin Tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurlarda öz əksini tapmışdır. Lakin Elmi Şuranın tərkibi barədə məlumatlara bu qayda və prosedurlarda rast gəlinmir.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

ATMU-nun Elmi Şurasının iş planı Şura iclasında müzakirə olunub qəbul edilir və rektor tərəfindən təsdiq edilir. Təsdiq edilmiş iş planına müvafiq olaraq Şuranın katibi Gündəlik hazırlayır, rektorla razılaşdırır və Elmi Şura üzvlərinə münasibət bildirməkləri yaxud təklif bildirməkləri üçün təqdim edir. Gündəlikdə Elmi Şuranın keçirilmə tarixi və saatı da qeyd edilir. Gündəlik qəbul edildikdən sonra Elmi Şuranın iclası keçirilir. İclas zamanı çıxış edənlər üçün reqlament müəyyən olunur: Məruzələr üçün – 10-15 dəqiqə, çıxışlar üçün 3-5 dəqiqə kimi müəyyənləşdirilir. Məruzələr və qərar layihələri Elmi Şura iclasından iki gün qabaq elmi katibə təqdim edilir. Elmi katib müvafiq jurnalda qeydlərin aparılması istiqamətində işləri təşkil edir. Bu prosesi özündə əks etdirən prosedur mövcuddur, təsdiqlənmiş qaydalar toplusu Universitetin saytına yerləşdirilmiş və maraqlı tərəflər üçün əlçatanlığı təmin edilmişdir.

ATMU-nun bütün sahələrdəki fəaliyyəti ilə bağlı qərarların vaxtında qəbulunu və optimallığını təmin etmək məqsədilə, rektorun müvafiq (25.05.2010-cu il tarixli 90-K nömrəli) əmrilə təsdiq edilmiş Əsasnaməyə uyğun operativ-məşvərətçi orqan statusunda Rektoryanı Şura fəaliyyət göstərir. Şuranın sədri universitetin rektorudur.

Komissiyanın fəaliyyəti yerində verifikasiya olunmuş, lakin Şuranın fəaliyyətinin daha da təkmilləşdirilməsinə idarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsində Şuranın əhəmiyyətinin artırılmasına ehtiyac olduğu müəyyən olunmuşdur.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

ATMU-nun Elmi Şurası Azərbaycan Respublikasının Qanunvericiliyinə, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, “Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nə, Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsinə və bu Əsasnaməyə uyğun olaraq formalaşdırılır və fəaliyyət göstərir.

ATMU-nun Elmi Şurası tərəfindən qəbul edilmiş qərarları qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir. Lakin, çatışmayan cəhət Şuranın qərarlarının icra vəziyyətinin müntəzəm yoxlanılması həyata keçirilmir və bununla bağlı hər hansı hesabatların verilməsi təşkil olunmur.

ATMU-nun Elmi Şurası tərəfindən verilən qərarlarının əlçatanlığı qismən təmin olunur. Belə ki, bu qərarlar müvafiq struktur bölmələrə korporativ e-maillərə e-məktub şəklində (imzasız və möhürsüz şəkildə) göndərilsə də maraqlı tərəflərin əlçatanlığını təmin etmək məqsədilə rəsmi sayt və digər resurslarda öz əksini tapmır.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

Universitetin Nizamnaməsinə görə ali idarəedici orqanı Elmi Şura, ictimai özünü idarətmə orqanı isə Himayəçilər Şurasıdır. Əvvəldə qeyd olunduğu kimi Himayəçilər Şurası mövcud olmadığına görə həmin orqanlar arasında qarşılıqlı əlaqə və kommunikasiya mövcud deyil. Lakin, Elmi Şurasının iş planı, verilən qərarların digər struktur bölmələr arasında paylanması və əlaqə sisteminin, kommunikasiyanın mövcudluğu ATMU-nun Fəaliyyətinin Tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurlarda https://atmu.edu.az/upload/files/2024/01/26//-8860e834170627349348378662710781158.pdf öz əksini tapmışdır.

ATMU da idarəetmə orqanlarının qarşılıqlı əlaqə sxemi:




### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

Universitetin Nizamnaməsinə görə ali idarəedici orqanı Elmi Şura, ictimai özünü idarəetmə orqanı isə Himayəçilər Şurasıdır. Əvvəldə qeyd olunduğu kimi Himayəçilər Şurası mövcud olmadığına görə həmin orqanlar daxilində hər hansı səlahiyyət və vəzifə bölgüsünün aparılması qeyri mümkündür.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

ATMU publik hüquqi şəxsin Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiqlənmiş ATMU Elmi Şurasının Əsasnaməsinə müvafiq olaraq, Elmi Şuranın tərkibində müvafiq olaraq təhsil elmi-metodiki, sosial-iqtisadi və təsərrüfat fəaliyyətləri üzrə komissiyalar fəaliyyət göstərir. İlin yekunlarında Komissiyaların hesabatlarının dinlənilməsi iş planında öz əksini tapır. Həmçinin, ATMU-da hər ilin sonunda illik hesabatlar hazırlanır. Hesabatlarda əks edilən məsələlər il ərzində Elmi Şurada müzakirə edilmiş, müvafiq qərarlarla öz təsdiqini tapmış məsələlərdir. Yekunda isə hesabatlar istiqamətlərinə uyğun olaraq AR DTA-ya və AR ETN-nə təqdim edilir. Yekun hesabatda öz əksini tapmış bu kimi məsələlər yerində verifikasiya olunmuşdur.

Lakin, Ali İdarəetmə orqanı olan Elmi Şuranın fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu yerində verifikasiya olunmamışdır. Belə bir mexanizm ümumiyyətlə mövcud deyil.

### 5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti

ATMU-da yeganə ali idarəetmə orqanı olan EŞ öz fəaliyyətini ATMU Nizamnamə və Əsasnaməsinə uyğun təşkil edir. ATMU-da hər ilin sonunda illlik hesabatlar hazırlanır. Yekunda isə hesabatlar istiqamətlərinə uyğun olaraq AR DTA-ya və AR ETN-nə təqdim edilir. ATMU-nun ümumiyyətlə şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyətinə gəlincə inamla söyləmək olar ki, bu istiqamətdə ciddi işlər aparılmaqdadır və bunun həyata keçirilməsində Universitet rəhbərliyi olduqca maraqlıdır. Eləcə də bu istiqamətdə təşəbbüslər nəzərə çarpacaq səviyyədədir. Belə ki, ATMU-nun Fəaliyyətinin Tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurların hazırlanması bu qəbildən olan islahatlardandır.

Yekun hesabatda öz əksini tapmış bu kimi məsələlər yerində verifikasiya olunmuşdur.

## 5.2 İnsan resurslarının idarə edilməsi

### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

Sahə baxışı keçirilən zaman ATMU-da inzibati işçilərin işə qəbul prosedurunun mövcudluğu öz təsdiqini tapmışdır. Bu prosedurlar tam rəsmiləşdirilməsə də ATMU-nun EŞ-də və 29.12.2023 tarixli iclasında “ATMU da İşə qəbul prosedurları” haqqında qərar qəbul olunmuşdur. İşə qəbul Komissiyası haqqında Əsasnamə mövcuddur və ATMU rektoru tərəfindən 09.01.2024-cü il tarixində təsdiq olunmuşdur. Bu qayda və prosedurlar ATMU-nun rəsmi veb saytında (https://atmu.edu.az/az/insan-resurslari-shobesi-senedler) yerləşdirilmişdir.

Hesabat dövrünü yəni, daha əvvəlki illəri əhatə edən hər hansı qayda və prosedurların mövcudluğu yerində təsdiqini tapmamışdır.

ATMU-da seçkili vəzifələrin tutulması “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən aparılması yerində verifikasiya olunmuşdur. Bu qayda və prosedurlar ATMU-nun rəsmi veb saytında (https://atmu.edu.az/az/insan-resurslari-shobesi-senedler ) yerləşdirilmişdir.

ATMU-nun rəsmi veb səhifəsində sonuncu yerləşdirilən vakansiya (https://atmu.edu.az/az/telebe-ve-mezunlar) 31.05.2021-ci ildə olmuşdur.

### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasında ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi (məqsəd 1) və Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması (məqsəd 2) məsələləri məqsəd olaraq müəyyən edilmişdir. Bu məqsədlərin müəyyən olunması Universitetin bununla bağlı konkret məqsədinin və niyyətinin olmasından xəbər verir.

ATMU-nun Strateji inkişaf planın (2022-2026) icrasına dair 2023-cü il üçün Fəaliyyət planında (https://atmu.edu.az/az/inkishaf-strategiyasi) nəticə göstəricilərində bununla bağlı

atılan addımlar öz əksini tapmışdır. Maliyyə-plan şöbəsi tərəfindən SİP-in qısa müddətli, orta müddətli və uzun müddətli maliyyə proqnozlaşdırılması aparılmadığından müvafiq proqnozlaşdırmanın aparılması məqsədəuyğun hesab edilir. ATMU-da akademik heyətlə inzibati və tədris köməkçi heyətin nisbəti 3:1 səviyyəsini keçir.

| İllər üzrə | Professor /müəllim heyəti (nəfərlə) | İnzibati heyət (nəfərlə) | Nisbəti |
|---|---|---|---|
| 2018 | 164 | 115 | 1.4 |
| 2019 | 187 | 129 | 1.4 |
| 2020 | 180 | 120 | 1.5 |
| 2021 | 156 | 122 | 1.2 |
| 2022 | 166 | 122 | 1.3 |
| 2023 | 165 | 124 | 1.3 |

***Məlumat ATMU nun "İnsan resursları" şöbəsinə məxsusdur.***

ATMU-da akademik heyətlə inzibati və tədris köməkçi heyətin nisbətinin tələb olunan səviyyəyə (3:1) çatdırılması istiqamətində işlərin aparıldığı bildirilmişdir.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq differensial əmək haqqı sistemi mexanizminin hazırlanması nəzərdə tutulmuşdur. Hətta professor-müəllim heyəti üçün hazırlanmış ilkin differensial əməkhaqqı meyarları da komissiyaya baxış üçün təqdim olunmuşdur.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

ATMU-da işçilərin öz vəzifələrini vicdanla yerinə yetirməsi, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və əməkdaşların maddi və qeyri-maddi maraqlarının artırılması məqsədi ilə "Universitet əməkdaşlarının motivasiyası prosedura" rektor tərəfindən 14.09.2023-cü ildə təsdiq edilmişdir. Həmin prosedurda ATMU-nun əməkdaşları və ştatda çalışan akademik heyəti il ərzində 4 bayram münasibətilə pul mükafatı ilə mükafatlandırıldığı qeyd olunur:

- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü;
- Novruz bayramı;
- Qurban bayramı;
- 5 oktyabr Beynəlxalq Müəllimlər Günü.

Bundan əlavə “Universitet əməkdaşlarının motivasiyası proseduru”nda öz vəzifə funksiyalarını yüksək peşəkarlıqla yerinə yetirən və o cümlədən öz funksiyalarından əlavə tapşırılmış işləri həyata keçirən əməkdaşlar, semestr imtahanlarının keçirilməsində fəallıq göstərən əməkdaşlar pul mükafatı ilə mükafatlandırılırlar.

İşçilərin yubiley günlərində (50, 55, 60, 65, 70 yaş və s.) və birinci sinifə gedən uşaqları olduqda onlara bir gün haqqı ödənilən istirahət günü, işçinin toyu olduqda və ya yaxın qohumu vəfat etdikdə müraciəti əsasında ona 3 gün ödənişli məzuniyyət verilir. Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə ildə bir və ya 2 dəfə əməkdaşlara bayram sovqatları, Yeni il və Novruz bayramında isə əməkdaşların övladlarına müxtəlif şənliklərdə iştirak üçün biletlər təqdim olunur.

Maliyyə-plan şöbəsində mükafat əmrlərinə baxış keçirilmiş və bu məsələlər komissiya tərəfindən yerində verifikasiya olunmuşdur.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

ATMU-da Səmərəliliyin Qiymətləndirilməsi qaydaları ATMU rektoru tərəfindən təsdiq olunmuş və hazırda tətbiqi həyata keçirilir. Universitetdə inzibati heyətin işinin səmərəliliyinin qiymətləndirilməsi üçün “90 dərəcə” metodundan istifadə edilir. Sorğuda işçinin şöbə müdiri və ya bölmə rəhbəri iştirak edir. Sonda hər bir işçi haqqında yaradılan qovluqda həm işçinin doldurduğu anketlər, həm işçi haqqında doldurulan anketlər eləcə də işçinin əvvəlcədən müəyyən edilən kriteriyalarla bağlı təhlil sənədi toplanılır.

İnzibati işçilərin səmərəliliyin qiymətləndirilməsi üçün “90 dərəcə” metodundan istifadə etməklə 2023-cü ilin dekabr ayı üzrə nəticələr aşağıdakı kimi olmuşdur;

| *Əla qiymət* | *Yaxşı qiymət* | *Kafi qiymət* | *Pis qiymət* | *Cəmi* |
|---|---|---|---|---|
| 57 | 42 | 11 | 1 | 111 |

***Məlumat ATMU nun “İnsan resursları” şöbəsinə məxsusdur.***

Lakin, komissiya tərəfindən bu metodun həm qiymətləndirmə meyarlarında və işçilər üçün müəyyənləşmiş kriteriyaların daha da təkmilləşdirilməsinə ehtiyac olduğu qənaətinə gəlinmişdir.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

ATM-də “Tədbir və təlimlərin təşkil edilməsi haqqında” qaydalar, “Təlim ehtiyaclarının müəyyənləşdirilməsi meyarları ilə bağlı” təlimatlar, “Akademik heyətin təkmilləşdirilməsi” proseduru mövcuddur. ATMU-da işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərlə bağlı bir sıra real işlər də görülmüşdür. Belə ki, ATMU-nun İnsan resursları şöbəsinin stajkeçmə ilə bağlı verdiyi məlumata əsasən, 2017/2018 – 2023/2024-cü tədris illəri ərzində Universitetin şöbələri, fakültə və kafedralarının inzibati və akademik heyətindən 224 nəfəri ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərdə iştirak etmişdir.

Lakin təqdim olunan məlumatlardan aydın olur ki, akademik heyətin bu təlimlərdə iştirakı olduqca azdır. Məlumat yerində verifikasiya olunmuşdur.

Bundan əlavə ATMU-nun Keyfiyyət təminatı şöbəsinin təşkilatçılığı ilə 2022-2023-cü illər ərzində ümumilikdə 7 təlim TKTA tərəfindən təşkil edilmiş və burada universitet əməkdaşlarından 189 nəfəri iştirak etmişdir**.**

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

ATMU-da Tədbir və təlimlərin təşkil edilməsi haqqında qaydalar (https://atmu.edu.az/az/senedler-karyera-ve-kommunikasiya-sobe) mövcuddur. Bu qaydalara görə ATMU-nun "Karyera və kommunikasiya" şöbəsi hər tədris ili üzrə şöbənin "iş planını əsas götürərək il ərzində bir çox müxtəlif təlim və tədbirlər təşkil edir. Hər il təkrar olunan tədbirlərə rəsmi, dövlət səviyyəli bayram və matəm günləri, əmək yarmarkası, maarifləndirmə ideyalar tədbirlər və tələbə və məzunlar üçün təşkil olunun karyera yönümlü təlimlər, ekskursiyalar, müəssisələrə səfərlər, sənaye nümayəndələri ilə ATMU tələbələrinin görüşlərinin təşkili, tələbələrin fərdi və peşəkar inkişafını hədələyən təlim və seminarların təşkili, tələbə və məzunların görüşləri, tələbələrin könüllülük fəaliyyətində iştiraka təşviqi, "Məzun günü" tədbirinin təşkil olunması və s. daxildir. Yeni təlim-tədbirlərə isə konfranslar, simpoziumlar, elmi seminarlar, təntənəli açılış va qapanış mərasimləri, turnirlər, olimpiadalar, xüsusi şəxslərlə görüşlər, sənaye müəssisələri ilə "Anlaşma memorandum"u və əməkdaşlıq müqavilələrinin imzalanması və s. aiddir.

Keçirilən tədbirlərlə bağlı ATMU-nun rəsmi veb saytında və əlaqədar şöbənin veb səhifəsində mütəmadi olmasa da məlumatlar paylaşılır ( https://atmu.edu.az/az/karyera-ve-kommunikasiya-shobesi-elanlar).

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Sahə baxışı zamanı ATMU-da qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosedurunun mövcudluğu komissiya tərəfindən yerində verifikasiya olunmuşdur. Belə ki, bununla bağlı "ATMU da İşə qəbul prosedurları (https://atmu.edu.az/upload/files/2024/02/02//-680390c51706858575450667184110878 91.pdf) mövcuddur.

Prosedur sənədin tələblərinə müvafiq olaraq, vakant vəzifələr yaranan zaman ilk öncə universitetin daxili resursları İşə Qəbul Komissiyasında analiz edilərək dəyərləndirilir. Uyğun olarsa, müvafiq struktur rəhbərinin təqdimatina əsasən həmin kadr yaranmış vakant vəzifəyə təyin olunur. Vakant vəzifəyə daxili resurslardan uyğun kadr olmadığı təqdirdə ATMU-ya kənardan daxil olan müraciətlərə (CV-lər və canlı müraciətlər) İşə Qəbul Komissiyasında baxılıb dəyərləndirilərək müsahibəyə dəvət olunur. Daxili resurslardan və müraciətlərdən uyğun kadr olmadığı təqdirdə vakant vəzifəyə ATMU-nun veb səhifəsində müvafiq elan yerləşdirilir. Sahə səfəri zamanı o da aydın olmuşdur ki, ATMU daha çox öz daxili resurslarının müvafiq sahələr üzrə vakant vəzifələrdə yerləşdirilməsində maraqlıdır. İşə qəbul prosesində şəffaflığın təmin

olunması məqsədilə ATMU-nun veb səhifəsində hesabatların verilməsinə isə rast gəlinməmişdir.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

ATMU-da işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq differensial əmək haqqı sistemi mexanizminin hazırlanması nəzərdə tutulur. Hazırda ATMU-da "Əməkdaşların Motivasiyası haqqında Prosedur"u mövcuddur. Prosedur qaydalara əsasən və rektorun müvafiq əmrləri ilə öz vəzifə funksiyalarını yüksək peşəkarlıqla yerinə yetirən və o cümlədən öz səlahiyyət funksiyalarından əlavə tapşırılmış işləri həyata keçirən əməkdaşlar HİK-in razılığı ilə pul mükafatı ilə mükafatlandırılır. İldə 2 dəfə qış və yay imtahan sessiyalarının sonunda müvafiq fakültə dekanlarının təqdimatları əsasında imtahanların keçirilməsində fəallıq göstərən əməkdaşları pul mükafatı ilə mükafatlandırılır. Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə ildə bir və ya 2 dəfə əməkdaşlara bayram sovqatlarının verilməsi həyata keçirilir ki, bunlar sahə səfəri keçirilən zamanı komissiya tərəfindən yerində verifikasiya olunmuşdur.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

İşçilərlə əmək münasibətləri və mülki münasibətlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri gözlənilməklə və ATMU-nun Nizamnaməsinin tələblərinə uyğun şəkildə rəsmiləşdirilir, eləcə də bu münasibətlərə xitam verilir. Əmək müqavilələri, onlarda dəyişikliklərin edilməsi və ya xitam verilməsi Universitet tərəfindən müvafiq əmək müqaviləsi bildirişi formasında elektron informasiya sisteminə elektron imza vasitəsilə daxil edilir. Əmək münasibətlərində ayrı-seçkiliyə yol verilmir.

## 5.3 Maliyyə resurslarının idarə edilməsi

### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

ATMU-nun maliyyə resursları onun Nizamnaməsinə uyğun olaraq formalaşır. ATMU Nizamnaməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 avqust 2022-ci il tarixli, 291 saylı qərarı ilə publik hüququ şəxsə çevrilməsi ilə əlaqədar olaraq yenilənmişdir. Universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsinə baxış keçirən zaman məlum olmuşdur ki, maliyyə resurslarının planlaşdırılması yalnız qısamüddətli dövr üçün (1 illik) planlaşdırılır. Orta müddətli dövr üçün planlaşdırma nəzərdə tutulmamışdır. Hər il üçün yeni xərc maddələri üzrə smeta tərtib edilərkən xərc maddələri üzrə məbləğlər əvvəlki illərlə müqayisə olunur, proqnozlaşdırılır və Dövlət Turizm Agentliyinə təqdim olunur. “Növbəti il üçün büdcə və büdcədənkənar vəsaitləri üzrə gəlir və xərclərin proqnozlaşdırılması”na dair təsvir edici prosedur sənəd hazırlanmışdır. Cari ildə hər hansı xərc maddəsi üzrə əlavə vəsaitə ehtiyac olarsa, çatışmayan məbləğ üçün dürüstləşmə verilir.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Maliyyə dayanıqlılığının möhkəmləndirilməsi Universitetin strateji məqsədlərindən biridir və özündə maliyyələşmə mənbələrinin artırılması və xərclərin optimallaşdırılması ehtiva edir. Maliyyə resursları planlaşdırılarkən ATMU strategiyasına olan uyğunluq nəzərə alınır. İllər üzrə nəzərdə tutulan fəaliyyət planına uyğun olaraq tədbirlərin icrası üçün maliyyə vəsaitlərinin ayrılması büdcədə proqnozlaşdırılır. Hər təqvim ilinin sonunda inzibati və hər tədris ilinin sonunda akademik heyətin ştat cədvəlinin təkmilləşdirilməsi Elmi Şuranın qərarı və dərs yükünə əsasən ştat cədvəlində dəyişikliklər aparmaq yolu ilə həyata keçirilir. Lakin burada monitorinqlə əlaqəli natamamlıq nəzərə çarpır.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

ATMU-nun Strategiyasında Universitetin əsas məqsədlərindən bir də uzunmüddətli maliyyə dayanıqlığının möhkəmləndirilməsidir. Həmçinin Nizamnamənin 5.11-ci bəndində göstərildiyi kimi, Universitet Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər. Belə ki, ATMU publik hüquqi şəxsdir və sərbəst biznes fəaliyyəti ilə məşğul olam imkanına malikdir. Lakin, hazırda əlavə gəlir mənbələri mövcud deyildir. Gələcək planlarda qrant layihələrindən və digər mənbələrdən maliyyə resurslarının artırılması nəzərdə tutulur.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsinin müəyyənləşdirilməsi üçün monitorinq zamanı bütün sahələr üzrə hesabatlar və digər sənədlər nəzərdən keçirilmişdir. Sözügedən sənədlərdə maliyyə fəaliyyətinə, xarici aktivlər və pul vəsaitinin dövriyyəsinə aid olan istiqamətlər üzrə statistik göstəricilər öz əksini tapmışdır. Maliyyə resurslarının şəffaf idarəetmə sisteminin bir hissəsi kimi mütəmadi olaraq ATMU-nun maliyyə-plan şöbəsi tərəfindən DTA və ETN-ə maliyyə vəziyyəti haqqında hesabat, maliyyə fəaliyyəti haqqında hesabat, pul hərəkəti haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabatlar təqdim olunur.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə ATMU-a sahə səfəri çərçivəsində Nizamnamə və maliyyə qeydlərinə baxılmışdır. Nizamnamənin 5.13 bəndinə əsasən maliyyə resurslarından istifadə Universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər məqsədlərə yönəldilə bilər. ATMU-nun büdcəsinə daxil olan maliyyə resurslarının istifadəsi Nizamnamə rəhbər tutulmaqla rektorun əmri və müqavilələr əsasında həyata keçilir və maliyyə resurslarından istifadə Nizamnaməyə uyğun olaraq aparılır.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması ATMU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir. Nizamnamənin 4.11.5-ci bəndinə əsasən, müəyyən edilmiş struktur daxilində Universitetin əməyin ödənişi fondunu, işçilərin say həddini və ştat cədvəlini, habelə ATM-in illik xərclər smetası Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi ilə razılaşdırılmaqla rektor tərəfindən təsdiq edilir. Universitetdə "Növbəti il üçün büdcə və büdcədənkənar vəsaitləri üzrə gəlir və xərclərin proqnozlaşdırılması" proseduru hazırlanmış və bu prosedura uyğun olaraq işlər həyata keçirilir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

ATMU-ya sahə səfəri zamanı qeyd olunan indikator üzrə yazılı qeydlər və təsdiqedici sənədlər təqdim edilmədiyindən maliyə resurslarının təyinatı üzrə istifadəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsinin müəyyənləşdirilməsi mümkün olmamışdır. Görüş zamanı bildirilmişdir ki, maliyyə resursları ATMU-nun Nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi tərəfindən təsdiq olunmuş xərclər smetasına əsasən təyinatı üzrə istifadə olunur. Bu prosesə rektora birbaşa tabe olan Maliyyə-plan şöbəsinin baş mühasibi nəzarət edir.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ATMU-a sahə səfəri zamanı müvafiq istiqamətdə tərtib olunmuş hesabatlar arayışlarına baxış keçirilmişdir. Universitetdə malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi "Azərbaycan Turizm və Menecment Universitetində Dövlət Satınalmalarının həyata keçirilməsi proseduru" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir. Bununla yanaşı, ATMU-da dövlət satınalmalarını həyata keçirmək məqsədilə 07 iyul 2021-ci il tarixində Tender komissiyası yaradılmışdır.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Sahə səfəri zamanı baxış keçirilən sənədlərdən məlum olmuşdur ki, ATMU-da "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır, maliyyə hesabatları tərtib olunaraq rüblük və illik olaraq aidiyyəti üzrə təqdim edilir. Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən 07 iyul 2021-ci il tarixində Tender komissiyası formalaşdırılmış və Qanunun 4.1-ci maddəsinə əsasən cari ilin oktyabr ayının 15-dən gec olmayaraq növbəti il üçün ilkin satınalma planı hazırlanaraq dövlət satınalmalarının vahid internet portalına yerləşdirilmişdir.

### 5.3.11. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

ATM-ə sahə səfəri çərçivəsində hesabat və digər müvafiq sənədlər əsasında ATMU-da maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunduğunu və aidiyyəti orqanlarla işin qurulmasının qənaətbəxş vəziyyətdə olduğunu qeyd etmək olar. Belə ki, ATMU tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə enerji məhsullarının hərəkəti haqqında illik hesabat, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Əmlak Məsələləri Dövlət Xidmətinə dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat forması təqdim edilir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə muzdlu və qeyri-muzdlu işlə əlaqədar vahid bəyannamə (Vergi, Məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta) əməliyyatları aidiyyəti üzrə təqdim edilir. Bu əməliyyatlara əməkhaqqı, əsas vəsaitlərin uçotu, kadrların uçotu, maliyyə hesabatları, təqaüdün hesablanması, tələbə kontingenti, ödənişli tələbələrin təhsil haqqı və s. aiddir. Bununla yanaşı, DTA və ETN-ə maliyyə vəziyyəti haqqında hesabat, maliyyə fəaliyyəti haqqında hesabat, pul hərəkəti haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat təqdim olunur. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ATMU-nun məcburi köçkün statusu olan tələbələr haqqında illik hesabat verilir.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

ATMU-nun ÖH-də maliyyə və mühasibat hesabatlarının Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Mühasibat Uçotu haqqında Azərbaycan Respublikasının Qanununu, Mühasibat Uçotuna dair digər normativ sənədləri, ATMU-nun Nizamnaməsini, ATMU-nun rektorunun əmrlərini və Elmi Şuranın qərarlarını, Maliyyə-plan şöbəsinin cari Əsasnaməsini, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanununu, Sosial Müavinətlər haqqında Azərbaycan Respublikasının Qanununu rəhbər tutmaqla müvafiq qurumların tələb etdiyi formalara uyğun olaraq hazırlanıb ATMU Elmi Şurasında dinlənilməklə təsdiqlənərək təqdim edilməsi qeyd edilmişdir. Sahə səfəri

və təhlil zamanı məlum olmuşdur ki, tərtib və təqdim olunan hesabatlar açıq mənbələrdə dərc edilməmişdir.

### 5.3.12 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

ATMU-da "daxili nəzarət üzrə məsul şəxs" vəzifəsi və audit olsa da, ATM-də maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit aparılmamışdır. Nəzarət və monitorinq tədbirlərinin nəticələrinə dair yazılı qeydlər və təsdiqedici sənədlər mövcud deyildir.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

ATMU-da maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit aparılmamış, yazılı qeydlər və təsdiqedici sənədlər mövcud deyildir. Son 5 ildə kənar audit yoxlaması həyata keçirilməmişdir və nəzarət tədbirləri görülməmişdir**.**

### 5.3.14 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

ATMU-nun Nizamnaməsinə müvafiq olaraq maliyyə resurslarının əldə edilməsi məqsədilə qrant layihələrində iştirak, müxtəlif istiqamətli ödənişli təlimlərin keçirilməsi, əcnəbi və əlavə təhsil üzrə tələbələrin cəlb edilməsi nəzərdə tutulur. Həmçinin ATMU Strategiyasında Maliyyə dayanıqlılığı-maliyyələşmə mənbələrinin artırılması və xərclərin optimallaşdırılması, uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi strateji məqsədlərdən biridir.

## 5.4 İnformasiya idarəetmə sistemi

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

ATMU-da İKT məlumatlarının idarə olunması və informasiya təhlükəsizliyinin qorunması, Azərbaycan Respublikası İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında qanuna əsasən formalaşdırılmışdır. Bu sahə üzrə İnformasiya Texnologiyaları şöbəsi fəaliyyət göstərir. Şöbənin əsasnaməsi və illik iş planları mövcuddur. Şöbə tərəfindən bir neçə normativ sənədlər – İKT məlumatların idarəolunması üzrə təlimat, Kompüter avadanlıqlarında və elektron resurslarda işləmə qaydaları, Proqram aparat kompleksinin istifadəsinə dair təlimat və s. hazırlanmışdır.

Şöbənin verdiyi məlumatlara əsasən İKT məlumatlarının idarə olunması üzrə ilkin planının yaradılması həyata keçirilir və informasiyaların idarə olunması üçün kifayət qədər texnoloji resurslar vardır.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

Sahə səfəri zamanı ATMU-nun EDUMAN sistemi ilə bağlı ÖH-də verdiyi məlumatlar öz təsdiqini tapmamışdır. Lakin ATMU-da strukturlararası sənəd dövriyyəsi "Elektron Sənəd Dövriyyəsi" mövcuddur. Bu sistem vasitəsilə daxili sənəd dövriyyəsi aparılır. Ümumi şöbə tərəfindən isə tənzimlənir. https://atmu.edu.az/upload/files/2023/11/01//-b0bef4c9169881670585618622710399874.pdf

İnformasiya Texnologiyaları şöbəsi, ATMU strukturuna daxil olan qurumları arasında elektron əlaqənin və elektron məlumat mübadiləsinin yaradılmasında iştirak etməklə yanaşı, ATMU strukturları arasında təhlükəsiz və etibarlı şəbəkə əlaqəsinin, məlumat mübadiləsinin təşkil edilməsi, mövcud sistemlərin qüsursuz və etibarlı işləməsinin təmin edilməsi işlərini həyata keçirdir.

Ümumən ATMU-da informasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti qənaətbəxşdir.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

Tələbə hərəkəti üzrə ATİS, DTS, tələbə-məzun sistemi, TTK və s. bazalar mövcuddur. Təlim prosesinin rəqəmsallaşmasında isə "Microsoft TEAMS", "Zoom", "Moodle" platformalarından istifadə olunur. Universitet binası ərazisində tələbələrin geniş istifadəsi üçün "WİFİ" zonalar yaradılmış, professor-müəllim heyətinin dərs zamanı istifadəsi üçün kafedralarda noutbuklar var və bütün auditoriyalar proyektorla təmin edilmişdir. Auditoriyalarda texniki avadanlıqlardan istifadə ilə bağlı olaraq akademik heyət üçün təlimatlar da müvafiq şöbə tərəfindən hazırlanaraq kafedralara və müəllimlərə göndərilir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

ATMU-da təlim və tədris prosesinin tam şəkildə bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti yeni yanaşmalar və proqram təminatının təkmilləşdirilməsi ehtiyacını yaradır. Hazırda bununla bağlı müvafiq tədbirlərin aparıldığı bildirilmişdir.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

ATMU daxilində internet şəbəkəsinin hər kəs, o cümlədən təhsilalanlar üçün əlçatanlığı təmin edilir. İnzibati otaqlarla yanaşı, auditoriyalar internet şəbəkəsi ilə təmin edilmişdir. Kitabxana İnformasiya Mərkəzində quraşdırılmış və təhsilalanların birbaşa istifadəsində olan kompüterlərin internetə çıxışı təmin edildiyindən məlumatların əlçatanlığı təmin olunmuşdur.

Kitabxana İnformasiya Mərkəzində kitabların elektron dövriyyəsi "Avtomatlaşdırılmış İrbis 64+" sistemi vasitəsilə aparılır. Bu, tələbələrin çox rahatlıqla bu kitabxana informasiya sistemindən yararlanmasına zəmin yaradır.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

ATMU-da İnformasiya Texnologiyaları şöbəsi informasiya idarəetmə sistemlərinə cavabdehlik daşısalar da, əsasən, fəaliyyətləri texniki dəstək və texniki xidmət üzərində qurulmuşdur. Lakin, şöbə tərəfindən keyfiyyət idarəetmə sisteminin tərkib hissəsi olan dataların sistemli toplanması, təhlili və proqnozlaşdırılmasını həyata keçirməyə imkan verən proqram təminatının tətbiqi olarsa informasiya idarəetmə sistemində keyfiyyətin idarə olunmasına öz müsbət töhfəsini vermiş olar. Bu niyyət həm də SİP-in 7-ci məqsədə çatmaqda olan strategiyasının da tərkib hissəsidir.

Verifikasiya zamanı Universitet əməkdaşlarının, heyət üzvlərinin və tələbələrin rəqəmsal səriştələrinin inkişaf etdirilməsi, informasiya sistemlərindən istifadə bacarıqlarının artırılması üçün təlimlərin təşkil edilməsi vəzifəsi üzrə sistemli, ardıcıl, planlı işlərin aparıldığına dair məlumatlar təqdim olunmamışdır. Təşkil edilən seminarlar, təlimlər davamlı və periodik xarakter daşımadığı aydın olmuşdur.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

Sahə səfəri zamanı ÖH-də bu indikatoru üzrə daxil edilən məlumatlar yerində verifikasiya olunaraq öz təsdiqini tapmışdır. Belə ki, ATMU-nun ETN-in Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminin müxtəlif portalları vasitəsilə aşağıdakı sistemlərə inteqrasiyası ATMU-da Tədris metodiki şöbə, Ümumi şöbə tərəfindən müvafiq olaraq həyata keçirilir:

- Ali və orta ixtisas təhsili müəssisələrinin informasiya sistemi ATİS https://www.atis.edu.az/
- Tələbə əmrlərinin DİM-in "Tələbə-məzun elektron bazası" (https://ali.tmis.edu.az/)
- Dövlət və təhsil sənədləri (diplom təsdiq sistemi) - https://dts.edu.az/;
- SHƏQ tələbələrin müraciətləri - https://portal.edu.az/.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

ATMU-nun struktur bölməsi olan, İnformasiya texnologiyaları şöbəsi öz fəaliyyətində Universitetinin informasiya texnologiyalarının tətbiqi proqramlarının, informasiya resurslarının – veb sayt, ümumi təyinatlı serverlər, rezervlər və s. inzibati sazlanması, təşkili və onlara çıxış üçün nəzarət və təhlükəsizliyini, məlumatların etibarlığının təmin edilməsini həyata keçirir. Həmçinin, "Firewall" kimi aktiv təhlükəsizlik sistemlərindən, "Kaspersky" antivirus proqramlarından istifadə olunur.

## 5.5 İctimaiyyətlə əlaqələr

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

ATMU-nun rəsmi veb səhifəsi https://atmu.edu.az/ mövcuddur. Sayt "Neuron Technologies" MMC şirkəti tərəfindən 2020-ci ildə hazırlanıb. Hazırda sayta məlumatlar Karyera və kommunikasiya şöbəsi tərəfindən hazırlanır, həmin məlumatlar isə sayta İnformasiya texnologiyaları şöbəsi tərəfindən daxil edilir. Sayt bir neçə bölmədən ibarətdir. Bunlar, Əsas səhifə, Universitet, Qəbul, Tədris, Elmi-tədqiqat, Tələbə, Karyera, Kitabxana, Davamlı inkişaf adlı bölmələrdən ibarətdir. Əsas səhifədə ATMU-nun ictimai həyatı ilə bağlı əsas xəbərləri paylaşılır. Burada – tədris, elm və sosial həyat, beynəlxalq əlaqələr barədə olan informasiyalar operativ işıqlandırılır. Yerləşdirilən məlumatlar və xəbərlər Azərbaycan, rus dillərində təqdim olunur. İngilis dilində saytın yığılması işləri davam etdirilir.

Saytın texniki proqram təminatı İnformasiya texnologiyaları şöbəsi tərəfindən, onun idarəedilməsi və məzmun baxımdan fəaliyyətinin təkmilləşdirilməsi işləri Karyera və kommunikasiya mərkəzi tərəfindən həyata keçirilir.

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

Rəsmi saytda məlumatlar rəsmi mətbuat orqanlarından alınaraq dəqiq, faktlar və mənbələr əsasında hazırlanır və mütəmadi olaraq yenilənir. Sayt vasitəsilə universitetin bütün struktur bölmələrinə keçid imkanı yaradılmışdır. Bu funksiya vasitəsilə bütün struktur bölmələrin Əsasnaməsi, iş planı, əməkdaşları, müvafiq sənədlərlə o cümlədən apardığı işlərlə tanış olmaq mümkündür. Həmçinin ATMU-nun elektron kitabxanasına, universitetin digər aktiv olan elektron xidmətlərinə sayt vasitəsilə daxil olmaq mümkündür.

Buna baxmayaraq, saytda bəzi struktur bölmələrin əməkdaşları ilə bağlı məlumatlar yenilənməmişdir. Misal üçün şöbələr haqqında olan məlumatlarda boşluqlar müşahidə olunmuşdur. Bundan əlavə saytın axtarış bölməsinin funksional olmadığı müəyyən edilmişdir.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

Universitetin sosial media hesabları mövcuddur (“Facebook”, “Instagram”, “Twitter”, “YouTube”), rəsmi saytda dərc olunan yeniliklər və xəbərlər bu hesablarda da dərc olunur. ATMU-da ictimaiyyətin məlumatlandırılması məqsədi ilə digər əlaqə üsulları kimi sosial media hesablarından istifadə olunur.

Bundan əlavə rəsmi veb səhifə üzərindən bu platformalara inteqrasiya mövcuddur. Sahə səfəri zamanı bu məlumatlar yerində verifikasiya olunmuş, komissiya tərəfindən müvafiq qaydada tanışlıq həyata keçirilmişdir.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

ATMU-da Marketinq strategiyası hazırlansa da belə bir strategiya tətbiq olunmur. Gələcəkdə bu strategiyanın tətbiqi ictimaiyyətlə əlaqələrin qurulmasına, ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyəti yaratmış olar.

ATMU-da məlumatların ictimaiyyətə çatdırılması prosesinin tənzimlənməsi üçün "Məlumatların mediada paylaşılmasına dair" təlimat mövcuddur.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

ATMU-da məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsinin əsas aləti kimi sorğudan istifadə edilməsi nəzərdə tutulmuşdur. ÖH-də bu məqsədlə cari tədris ilində "ATMU-da ictimaiyyətin məlumatlandırılması ilə bağlı sorğu"nun keçirilməsi ilə bağlı məlumat yer almışdır. Sahə səfəri zamanı həmin sorğuda iştirak edən respondentlərin sayının olduqca az olması müəyyən edilmişdir. Bu say hansısa nəticəni söyləməyə imkan vermir.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

Karyera və kommunikasiya mərkəzi tərəfindən bu işlərin gələcəkdə görülməsi ilə bağlı planların olduğu bildirilmişdir. ATMU-nun Karyera və kommunikasiya şöbəsi tərəfindən verilən məlumata əsasən hazırda Universitetdə ictimaiyyəti məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi həyata keçirilməsə də gələcəkdə belə bir fəaliyyət planının hazırlanmasının nəzərdə tutulduğu bildirilmişdir. Şöbənin hazırda fəaliyyət istiqamətlərindən biri rəsmi veb səhifənin məzmun cəhətdən təkmilləşdirilməsini həyata keçirtməkdir.

## 6. İNFRASTRUKTUR

### 6.1. Tədris infrastrukturu

### 6.1.1. Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

ATMU-nun iki tədris binası vardır. Binaların ümumi sahəsi 5125,6 $m^2$, faydalı sahəsi 5073,6 $m^2$ təşkil edir. Auditoriyaların sahəsi 2054,6 $m^2$ təşkil edir. Hər təhsilalana 0,92 $m^2$ auditoriya fondu düşür. Universitet üzrə hər təhsilalana düşən faktiki sahə 2,3 $m^2$ təşkil edir. İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 880,8 $m^2$ təşkil edir. İnfrastruktur obyektlərinin hər biri dövlət mülkiyyətidir.

ATMU-nun əsas (1 saylı) və 2 saylı tədris korpusları nəqliyyat vasitələri hərəkət edən yoldan ən az 25 metr məsafədə, binaların önündə açıq meydan olmaqla yerləşdirilmişdir. Əsas (1 saylı) tədris korpusunda məşğələ otaqlarının və auditoriyaların pəncərələri qarışıq, 2 saylı

tədris korpusunda isə cənuba doğru istiqamətlənib. ATMU-nun hər iki tədris korpusunda idman meydançaları və müasir tələblərə cavab verən idman kompleksi yoxdur. Lakin, universitetin Tofiq Bəhramov adına Respublika Stadionu ilə əməkdaşlıq haqqında 28 oktyabr 2022-ci il tarixli memorandumuna əsasən Universitetin idman kompleksi ilə bağlı xidmətləri stadiona həvalə edilib (Maddə 2) və burada tələbələr üçün bir sıra idman xidmətləri göstərilir. Yaşıllıq zolaqları lokal xarakter daşıyır. Passiv istirahət üçün sahələr mövcud deyil. Yeməkxanalar zəif təchiz olunub, yeməklərin hazırlanması üçün müvafiq şəraitləri yoxdur. Qiraət zalı funksiyasını kitabxanaların oxu zalları və akt zalı icra edir. ATMU-nun tələbə kontingenti, onların ixtisaslar və qruplar üzrə paylanma xarakteri nəzərə alınmaqla, auditoriyaların texniki təchizat göstəriciləri mövcud normalara uyğundur. Hər iki tədris korpusunda birləşmə fənlərin tədris olunması üçün 50 nəfərlik, 25 nəfərlik və digər tutuma malik auditoriyalar nəzərdə tutulub. Fakültələrin kafedra strukturları müxtəlifdir. Kafedraların hər biri üçün 1 otaq, dekanatlıq üçün 1 otaq, ictimai təşkilatlar üçün isə ümumilikdə 1 otaq (2 saylı tədris binasında) ayrılmışdır. 2 saylı tədris korpusunda yerləşən akt zalının əsas texniki göstəriciləri normalara qismən uyğundur. Zaldan yazılı imtahanların keçirilməsi, habelə genişmiqyaslı tədbirlərin təşkili üçün istifadə olunur.

### 6.1.2. Kitabxananın mövcudluğu vəziyyəti

Kitabxanalar əsas (1 saylı) və 2 saylı tədris korpuslarında təşkil olunmuşdur. Kitabxananın ümumi sahəsi 134,5 $m^2$ təşkil edir. Hər bir oxucuya 2,9 $m^2$ faydalı sahə düşür. Kitabxanalarda 15-25 yerlik oxu zalı, informasiya məntəqəsi, kataloqlarla iş yeri, açıq istifadə fondları və s. yerlər nəzərdə tutulmuşdur. Kitabxanalar proyektorla təchiz olunmuşdur. Kitabxanalarda yanğından mühafizə tədbirləri yüksək təşkil olunmuş, odsöndürücü balonlar quraşdırılmışdır. Kitabxanada 17 ədəd internetə qoşulmuş işlək kompüter var. Beynəlxalq elmmetrik və bibliometrik bazalara giriş təmin olunmuşdur. “IRBIS 64+” sistemi vasitəsi ilə hər bir tələbə elektron platformaya daxil olaraq kitabxananın elektron kataloqu ilə, həmçinin elekton versiyası mövcud olan materiallar ilə tanış ola, onları yükləyə və çap edə bilər.

Kitabxanada müasir standartlara uyğun skanetmə texnologiyalarının tətbiqi ilə köhnə kitab və digər materialların skan edilməsi prosesi aparılır. Nəticələr korrektə olunduqdan sonra sistemə yerləşdirilir. Tələbələr Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universitetinə aid kitabları da buradan əldə edə bilirlər. Kitabxanada bütün kompüterlər işləkdir.

### 6.1.3. Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Hazırda kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun olaraq ATMU-nun əsas (1 saylı) tədris binasında “Turizm işinin təşkili” ixtisası üzrə təlim-resurs mərkəzi mövcuddur. Komissiya tərəfindən sahə baxışı keçirilən zaman təlim və tədrisin kənar təşkilatlarda təşkil olunması faktları komissiya üzvlərinin real müşahidələri və tələbələrlə apardıqları müsahibələr zamanı öz təsdiqini tapmışdır.

### 6.1.4. Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

2 saylı tədris binasında kompüterlə təmin olunmuş otaqların vəziyyəti ilə əyani tanışlıq olmuşdur. Məlum olmuşdur ki, elektron qaydada test imtahanlarının təşkil olunduğu otaqlar yüksək infrastruktura malikdir. ATMU-da elmi-tədqiqat və tədris laboratoriyaları yoxdur. Lakin, razılaşma əsasında bir sıra elmi-tədqiqat institutlarının və digər müəssisələrin otaqları tədris laboratoriyaları kimi istifadə olunur.

### 6.1.5. İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

ATMU-nun balansında istehsalat-təcrübə bazası yoxdur. Lakin, hotellər və digər xidmət müəssisələri ilə əməkdaşlıq çərçivəsində onların bir sıra inzibati otaqları istehsalat-təcrübə bazası kimi istifadə edilir. Həmçinin Türkiyə Respublikasında və Şimali Kipr Türk Respublikasında da tələbələrin təcrübələrinin təşkil olunduğunu haqqında Akkreditasiya Komissiyasına məlumat verilmişdir. Pandemiyadan əvvəl bu cür təcrübələrin İsrail, Rusiya, Bolqarıstan, ÇXR və BƏƏ-də də təşkil edildiyi, lakin hazırda bu prosesin obyektiv səbəblərdən dayandırıldığı qeyd edilmişdir.

### 6.1.6. ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

ATMU-da tədrisin distant formada təşkili üçün bütün zəruri infrastruktur mövcuddur. Sahə baxışı zamanı ATM-də distant təhsilin təşkili üçün zəruri infrastrukturun mövcudluğu ilə tanışlıq olmuşdur. Bildirilmişdir ki, 2020-ci ildən koronavirus pandemiyası (COVID-19) ilə əlaqədar tədrisin təşkili distant (məsafədən) aparılmışdır. Təhsilverənlərin distant təhsil zamanı əldə etdikləri bacarıqlar, kafedra və struktur bölmələrin internetə qoşulu kompüterlərlə təchiz olunması, habelə ATM-in kitabxana fonduna daxil olan dərslik, dərs vəsaiti və digər tədris materiallarının elektronlaşdırılaraq təhsilalanlara çatdırılması ATM-də distant təhsil infrastrukturunun daha da təkmilləşməsinə münbit zəmin yaratmışdır. Bu sahədə aparılan ardıcıl işlərin davamlı olaraq audio və vizual dərsliklərin hazırlanması prosesinə başlanıldığı bildirilmişdir.

### 6.1.7. Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

ATMU-nun balansında 4 minik, 1 mikroavtobus tipli avtonəqliyyat vasitəsi mövcuddur. Nəqliyyat vasitələrinin hər biri universitetin əməkdaşlarına, o cümlədən tələbələrə xidmət etmək üçün nəzərdə tutulub.

### 6.1.8. Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ATMU-nun bütün dərs otaqları və auditoriyalarında, o cümlədən kitabxana, konfrans zalı və digər bölmələrində proyektorlar quraşdırılıb. Onların hər biri işləkdir və tədris prosesində aktiv istifadə olunur. Proyektorlarla yanaşı, hər bir kafedra bir neçə noutbukla təchiz olunub. Təhsilverənlər tədris prosesində onlardan geniş istifadə edirlər. Tələbələrin elektrik şəbəkəsinə

asanlıqla qoşula bilməsi üçün dərs otaqları və auditoriyaların əksəriyyətində genişləndirilmiş elektrik şəbəkəsi vardır. Tələbələrin bu şəbəkəyə əlçatanlığı yüksək səviyyədə təşkil olunub.

### 6.1.9. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Sağlamlıq imkanları məhdud şəxslər üçün 1-ci tədris binasının 2-ci ehtiyat girişində 1-ci mərtəbəyə daxil olmaq üçün xüsusi qurğu nəzərdə tutulub və həmin şəxslərin dərslərinin keçirilməsi üçün 1-ci mərtəbədə 2 auditoriya ayrılıb. Komissiya tərəfindən ehtiyat girişdə sağlamlıq imkanları məhdud olan şəxslər üçün quraşdırılmış əlavə qurğunun təkmilləşdirilməsi tövsiyə olunub.

### 6.1.10. Yeməkxanaların mövcudluğu vəziyyəti

1 saylı və 2 saylı tədris binalarında fəaliyyət göstərən yeməkxana və bufet 20-30 nəfərlik tutuma malikdir. Yeməkxana və bufetin ümumi sahəsi 69,4 $m^2$ təşkil edir. 1 saylı tədris korpusunda müəllimlər üçün əlavə yeməkxana nəzərdə tutulmuşdur. Yeməkxananın və bufetin sanitar-gigiyenik vəziyyəti normativlərə uyğun deyil. Yeməkxanada yeməklər hazırlanmır və bunun üçün lazımi infrastruktur sıradan çıxıb. Yeməkxana Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən 24.11.2022-ci il tarixli 10-Q-06800 qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış fiziki şəxs A.Səfərovla 01.10.2022-ci il tarixli 10/2022 saylı Birgə fəaliyyət müqaviləsi əsasında fəaliyyət göstərir. Xidmət göstərən şəxsin "HACCP prinsipləri əsasında Qida Təhlükəsizliyinin təmin edilməsi" barədə 0873 saylı sertifikatı var.

### 6.1.11. Yataqxanaların mövcudluğu vəziyyəti

ATMU-nun "Sirdaş yurdu" və "Bridge Management (Univerium)" yataqxanaları ilə müqavilələri mövcuddur. Sözügedən yataqxanalarda təhsilalanların yataqxana ehtiyaclarının ödənilməsi üçün faydalı təcrübələrlə, habelə hesabat dövrü ərzində yataqxana ilə təmin olunmuş təhsilalanların say dinamikası ilə tanışlıq mümkün olmamışdır. Komissiya üzvləri ATMU ilə 11.03.2023-cü il tarixli əməkdaşlıq müqaviləsi əsasında xidmət göstərən "Sirdaş-BS LTD" MMC şirkətinə məxsus "Sirdaş yurdu" yataqxanasında olaraq, tələbələr üçün yaradılmış şəraitlə yerində tanış olmuşdur. Hazırda yataqxanada Universitetin 2 tələbəsi qeydiyyatdadır. Yataqxanada işlək müşahidə kameraları, yanğın təhlükəsizliyi sistemləri, yanğın siqnalizasiya qurğuları, istilik sistemi, internetə çıxış imkanları, camaşırxana, mühafizə xidməti və s. kimi zəruri xidmətlər təşkil olunmuşdur. Yataqxanada mütəmadi dezinfeksiya və əlaqəli işləri aparılır. Sanitar qovşaqları normativlərə və sanitar-gigiyenik normalara uyğundur. Yataqxanada ümumi soyuducu, yeməkxana, dərs otağı vardır.

### 6.1.12. Tibbi xidmətin mövcudluğu vəziyyəti

ATMU-da tibb xidməti üçün otaq ayrılsa da, hazırda personalın olmaması səbəbindən təyinatı dəyişdirilmişdir. Komissiya tərəfindən Universitetdə tibb xidmətinin təşkili üzrə işlərin sürətləndirilməsi tövsiyə olunmuşdur.

### 6.1.13. İT xidmətinin mövcudluğu vəziyyəti

Universitetin mərkəzi server otaqlarında lazımi texniki təchizat vasitələri mövcuddur. Korporativ e-maillərin aktiv olması, tədris prosesində istifadəsi və yaranan problemlərin operativ həll olunduğu müəyyən edilmişdir.

### 6.1.14. Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti

ATMU-nun korpusu və aidiyyəti bölmələri "Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarət proseduru" əsasında fiziki sağlamlıq və təhlükəsizlik tələblərinə uyğunluğu yoxlanılmışdır. Havalandırma sistemlərinin təmizliyində ümumi xarakterli qüsurlar aşkar olunmuşdur. Sanitar qovşaqlarında sanitar-gigiyenik normaların gözlənilməsinə dair müvafiq məlumatlandırıcılar asılmışdır. ATMU rektorunun 31 oktyabr 2023-cü il tarixli 3-46-3/3-1-303/2003 saylı əmri ilə yaradılmış İnventarizasiya komissiyasının işi ilə əyani tanışlıq olmuşdur. İnzibati binaların qızdırılması yaxınlıqda yerləşən qazanxanaların hesabına həyata keçirilir. Otaqlarda temperatur sabitliyi qorunub saxlanılır. Temperatur şəraiti tədris prosesi üçün əlverişlidir. İnventarizasiya komissiyasının işini əks etdirən hesabatla əyani tanışlıq olmuşdur. Tədris infrastrukturunun istifadəsinin monitorinqinə dair hesabat mövcuddur. Sənədlərlə əyani tanışlıq zamanı universitetin Xidmət şöbəsi tərəfindən "Fiziki mühitin normativlərə uyğunluğunun təhlili" barədə xidməti məlumatın (19.05.2023-cü il tarixli) mövcudluğu və burada müvafiq normativlərə uyğunsuzluqların qeydə alınaraq tədbirlər planına salınması müəyyən edilmişdir.

### 6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

ATMU-da Elm və innovasiyalar şöbəsi var, lakin elmi-tədqiqatların aparılması, innovasiyaların tətbiqi və s. məqsədlər üçün mərkəz mövcud deyil. Sahə səfəri zamanı tezliklə elmi-tədqiqat mərkəzinin yaradılacağı bildirilmiş, əməkdaşlıq əsasında bir sıra müəssisələrin elmi-tədqiqat laboratoriyalarının bu mərkəzin funksiyalarını müvəqqəti icra etdiyi qeyd olunmuşdur.

### 6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə iki diplomlu proqram var, lakin elmi-tədqiqat bazasından istifadə yalnız Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universitetinə göndərilən tələbələr üçün əlçatandır.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## 7.1 Beynəlmiləlləşmə siyasəti

### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

ATM-də beynəlmiləlləşmə siyasəti üçün “Beynəlxalq əlaqələr şöbəsi” məsuldur və onun fəaliyyət istiqamətlərinə (şəkil 7.1) əsasən beynəlxalq təşkilatlar və xarici ali təhsil müəssisələri ilə əlaqələrin yaradılması, beynəlxalq tələbə-müəllim mübadiləsi proqramları çərçivəsində əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ATM-də təhsil almalarının təşkil edilməsi, beynəlxalq reytinqlərdə təmsil olunma və layihələrdə iştirakın təmin edilməsi kimi məsələlər daxildir. Qurum beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində mübadilə proqramları və layihələr həyata keçirmişdir.




**Şəkil 7.1**

ATMU-da fəaliyyət göstərən Beynəlxalq əlaqələr şöbəsi tərəfindən hazırlanmış 2023-2026-cı illəri əhatə edən 8 maddədən ibarət “Beynəlmiləlləşmə siyasəti” mövcuddur. Beynəlmiləlləşmə siyasətində şöbə haqqında məlumatlar, missiya və vizyon; GZİT təhlili; əsas fəaliyyət istiqamətləri və strateji hədəflər; beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılmış resurslar; ehtiyac əsaslı təkmilləşdirmə və dövrü yenilənmə; siyasətin icrasının monitorinqi və nəticələrin qiymətləndirilməsi və yekun müddəalar qeyd olunmuşdur. Beynəlmiləlləşmə siyasətinin ATM-in SİP-nə uyğunluğu beynəlxalq ekspert tərəfindən də təsdiq olunmuşdur.

Buna baxmayaraq, Beynəlxalq əlaqələr şöbəsinin “2023-2026-cı illəri əhatə edən Beynəlmiləlləşmə siyasəti” ATMU-nun “2022-2026-cı illər üzrə Strategiyası” ilə tam uyğunlaşdırılmamışdır. Məsələn**,** ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasına daxil olan 8-ci məqsəddə (Ali təhsilin beynəlmiləlləşməsi) qeyd olunan niyyətlərdə “nou-hau”nun ölkəmizə gətirilməsi qeyd olunmuşdur, lakin qeyd olunanla Beynəlxalq əlaqələr şöbəsinin 2023-2026-cı illəri əhatə edən beynəlmiləlləşmə siyasəti sənədində öz əksini tapmamışdır.

Həmçinin şöbənin beynəlmiləlləşmə siyasətinin 6.2-ci müddəasında siyasətin dövrü yenilənməsi qeyd olunmalı olduğu halda, siyasətin icrasının təqvim illəri üzrə aparılması və hesabatın hər təqvim ilinin son həftəsində təqdim olunması öz əksini tapmamışdır.

Qeyd olunanlardan əlavə maddələrin başlıqları ilə onların daxilində qeyd olunanlar bir-birini tamamlamadığı və çoxlu sayda qrammatik səhvlər aşkar olunmuşdur.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

ATMU-nun beynəlmiləlləşmə siyasətinin müvafiq istiqamətlərinə uyğun olaraq universitet mübadilə proqramları təşkil edir. Avropa Birliyinin “Erasmus+” mübadilə proqramı, Almaniyanın “DAAD” mübadilə proqramı, Türkiyənin “Mevlana” mübadilə proqramları son illərdə təşkil olunmuş əsas mübadilə proqramlarıdır. Universitet tərəfindən “Beynəlxalq mübadilə proqramlarının təşkili Qaydaları” sənədi qəbul olunmuş və mübadilə proqramlarının təşkili və təşviqi bu sənədə uyğun aparılmaqdadır. Sənəd ATMU tərəfindən təşviq olunan mübadilə proqramlarında iştirakın şərtləri və təşkilati xüsusiyyətlərini, habelə təhsilalan kontingentin və akademik heyətin sözügedən proqramlarda iştirakını (qeydiyyat, seçim prosesi və s.) tənzimləyir. “Erasmus+”, “DAAD” və “Mevlana” mübadilə proqramlarının mövcudluğu ilə bağlı beynəlxalq ekspertin də rəyi müsbət olmuşdur. Qurum institusional əməkdaşlıq çərçivəsində və Erasmus layihələri vasitəsilə tərəfdaşlar və müvafiq beynəlxalq universitet təşkilatları ilə çoxsaylı sazişlər və anlaşma memorandumlarına malikdir. Akademik heyət beynəlxalq forumlarda iştirak etməyə həvəsləndirilir və maliyyə cəhətdən də dəstəklənir.

Lakin sahə səfəri zamanı mübadilə proqramlarında iştirak səviyyəsinin, o cümlədən iştirak edənlərin say dinamikasının az olduğu müşahidə olunmuşdur.

| İllər | Mübadilə proqramında iştirak edən bakalavriat səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən magistratura səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən doktorantura səviyyəsi üzrə təhsilalan sayı | Beynəlmiləlləşmə proqramlarında iştirak edən təhsilalanların ümumi təhsilalanların sayında payı (faizlə) | Mübadilə proqramları vasitəsi ilə gələn əcnəbi tələbələrin ümumi tələbə sayında payı (faizlə) |
|---|---|---|---|---|---|
| 2018/2019 | 7 | 0 | 0 | 0,4 | 0 |
| 2019/2020 | 16 | 1 | 0 | 0,8 | 0 |
| 2020/2021 | 5 | 0 | 0 | 0,2 | 0 |
| 2021/2022 | 3 | 0 | 0 | 0,2 | 0 |
| 2022/2023 | 6 | 0 | 0 | 0,3 | 0 |
| 2023/2024 | 2 | 0 | 0 | 0,1 | 0 |

**Cədvəl 7.1. Təhsilalanların mübadilə proqramlarında iştirak səviyyəsi**

| İllər | Beynəlmiləlləşmə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor müəllim heyyətinin sayına nisbəti (%) | Xarici professor-müəllimlərin sayının ümumi professor-müəllim sayına nisbəti (%) | Akademik fəaliyyətlə bağlı ən azı 1 semestri xarici təhsil müəssisəsində keçirmiş professor-müəllim sayının ümumi professor-müəllim heyətinin sayına nisbəti (%) | Mübadilə proqramlarında iştirak etmiş inzibati heyətin sayının ümumi inzibati heyətin sayına nisbəti (%) | ATM-də reallaşdırılan birgə təhsil (ikili diplom) proqramlarının ümumi icra olunan təhsil proqramlarına nisbəti (%) |
|---|---|---|---|---|---|
| 2017/ 2018 | 3,8 | 7,1 | 0 | 13,1 | 4,2 |
| 2018/ 2019 | 11,9 | 13,1 | 0 | 18,9 | 4,2 |
| 2019/ 2020 | 7,3 | 3,1 | 0 | 3,1 | 4,2 |
| 2020/ 2021 | 0 | 3,3 | 0 | 0 | 4 |
| 2021/ 2022 | 7,5 | 0 | 0 | 21,4 | 4 |
| 2022/ 2023 | 5 | 12,5 | 0 | 25,4 | 4 |
| 2023/ 2024 | 0,6 | 8,4 | 0 | 13 | 4 |

**Cədvəl 7.2. Akademik heyətin mübadilə proqramlarında iştirak səviyyəsi**




**Şəkil 7.2. Akademik və inzibati heyətin mübadilə proqramları üzrə hərəkətliliyi**

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

Beynəlmiləlləşmə siyasətində əcnəbi tələbələrin cəlb olunması ilə bağlı bənd qeyd olunsa (https://atmu.edu.az/az/beynelxalq-elaqeler-shobesi-beynelmilellesme-siyaseti) da, ÖH-də də bildirildiyi kimi, son illərdə universitetdə əcnəbi təhsilalanların say dinamikası aşağı düşmüşdür. Hesabat dövründə ATMU-ya qəbul olan əcnəbi tələbələrin say dinamikası ali təhsilin bakalavriat səviyyəsi üzrə nisbətən müsbət olsa da, magistratura və doktorantura (dissertantura) üzrə müvafiq göstərici mənfi olmuş, son illərdə əcnəbi doktorantların (dissertantların) qəbulu müşahidə olunmamışdır. Əcnəbi təhsilalanların cəlb olunmasında hədəf kimi Mərkəzi Asiya, Yaxın Şərq ölkələri, Çin və Pakistan seçilmişdir.




**Şəkil 7.3. Hesabat dövründə ali təhsilin müxtəlif səviyyələri üzrə ATMU-ya qəbul olmuş əcnəbi tələbələrin təhsil səviyyələri üzrə dinamikası**

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

İndikatorun tələbinin icrası məqsədi ilə ÖH-də Azərbaycan-Avstriya Turizm Proqramı (AATP) çərçivəsində Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə akademik heyətin qarşılıqlı mübadiləsi haqqında razılıq əldə edilmiş, hər tədris ilində ATMU-ya on nəfərdən çox xarici akademik nümayəndənin səfər etmələri və tədris prosesinə cəlb olunmaları qeyd olunmuşdur (https://atmu.edu.az/az/beynelxalq-elaqeler-shobesi-qaydalar-prosedurlar).

Lakin, sözügedən proses 2007-ci ildən tətbiq olunan AATP birgə ikili diplom proqramı ilə əlaqədardır. Hesabat dövründə digər xarici ölkələrdən beynəlxalq mütəxəssislərin tədris prosesinə cəlb olunması sistemli xarakter daşımamış, əsasən ustad dərsi formatında aparılmışdır.

Beynəlxalq ekspert tərəfindən prosesin sürətləndirilməsi məqsədi ilə xarici mütəxəssislərin universitetdə tədris və tədqiqat prosesinə cəlb olunması tövsiyə olunmuşdur.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

ÖH-də indikatorun tələbinin icrası istiqamətində əcnəbi doktorantların tədqiqatlara cəlb olunması qeyd olunmuş, Rusiya Federasiyasının Şimali Qafqaz Federal Universitetinin aspirantının ATMU-nun Mehmanxana və restoran biznesi kafedrasında tədqiqata cəlb olunduğu bildirilmişdir.

Lakin, hesabat dövründə beynəlxalq tədqiqatçıların (o cümlədən doktorantların və dissertantların) ATMU-ya cəlb olunması barədə statistik məlumat və onun təhlilinə rast gəlinməmişdir.

Həmçinin, beynəlxalq tədqiqatçıların coğrafiyası postsovet məkanı ilə məhdudlaşmış, Avropa ölkələri və digər inkişaf etmiş ölkələrdən beynəlxalq tədqiqatçıların cəlb olunması təşkil edilməyib. Universitetdə tədqiqat imkanlarının zəif olması bu prosesin reallaşmasını daha da ləngidir.




**Şəkil 7.4. AATP proqramı çərçivəsində IMC Krems TEU professor-müəllim heyətinin ATMU-da mübadiləsi**

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

ÖH-də ATMU-nun Ümumdünya Turizm Təşkilatına üzvlüyü (2011), DAAD təhsil şəbəkəsi ilə əməkdaşlığı (2008), GİZ-lə əməkdaşlıq (2007), "British Council" ilə əməkdaşlıq (2009), "Dante Alieghieri" cəmiyyəti və "Lüsern Dünya Turizm Forumu" ilə əməkdaşlıq (2015), "Ramualdo Del Bianco" ilə əməkdaşlıq (2016) barədə məlumatlar əks olunmuşdur.

Lakin, məlumatlarda sözügedən orqanların (qurumların) təşkilati-hüquqi forması qeyd olunmamışdır və adıçəkilən təşkilatlarla birgə fəaliyyətə dair hesabatlar mövcud deyil.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Hazırda, ikili diplom proqramı Avstriya Respublikasının IMC Krems Tətbiqi Elmlər Universiteti ilə aparılır. Tələbələr təhsilini 1-ci kursda ATMU-da, 2-3-4-cü kurslarda isə AATP proqramı çərçivəsində davam etdirirlər. Proqram çərçivəsində seçilmiş 2-3 nəfər tələbə 1 semestr Avstriyada təhsil almaq imkanı qazanır. Tələbələr proqramın sonunda iki diplom əldə edirlər (https://atmu.edu.az/az/beynelxalq-elaqeler-shobesi-qaydalar-prosedurlar https://atmu.edu.az/az/beynelxalq-elaqeler-shobesi-beynelmilellesme-siyaseti).

Həmçinin, ATM ilə Türkiyə Respublikasının Eskişehir Osmanqazi Universiteti arasında ikili diplom layihəsi 2021-ci ildən etibarən başlamışdır. Hal-hazırda müvafiq layihə Yüksek Öğretim Kurumu tərəfindən təsdiqlənmişdir. Növbəti akademik ildən tələbələrə qəbul edildikdən sonra ikili diplom layihəsi çərçivəsində 1-4-cü kursları ATMU-da, 2-3-cü kursları ESOGU-da təhsil almaq imkanları veriləcək.

Hazırda Türkiyə Respublikasının İstanbul Universiteti ilə magistratura səviyyəsində "Muzeyşünaslıq", Ege Universiteti ilə bakalavr səviyyəsində "Menecment" ixtisası üzrə ikili diplom layihəsi çərçivəsində əməkdaşlıq üçün danışıqlar aparılır.

Türkiyə Respublikasının Sakarya Universiteti ilə bakalavr səviyyəsində "Sosial iş" ixtisası üzrə sənədləşmə işləri aparılmış, hazırda Sakarya Universitetinin senatosundadır.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Beynəlmiləlləşmə siyasəti sənədi strategiya sənədinə uyğun olaraq hazırlanmış 2023-2026-cı illəri əhatə edir. Yenilənməsi ehtiyacəsaslı təkmilləşdirmə və 2026-cı ildən sonrakı dövr üzrə nəzərdə tutulmuşdur. Eyni zamanda beynəlmiləlləşmə siyasətinin icrasına dair fəaliyyət planı hazırlanmaqdadır.

Lakin, beynəlmiləlləşmə sənədi ilə strategiya sənədi arasında bəzi hədəflər üzrə uyğunsuzuluqlar vardır.

## 7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

ATMU-da beynəlmiləlləşmə proseslərinin tənzimlənməsi Strateji inkişaf məsələləri üzrə prorektorluğun tabeliyində olan Beynəlxalq əlaqələr şöbəsi tərəfindən həyata keçirilir. Müvafiq şöbənin fəaliyyəti tədris illəri üzrə iş planları əsasında qurularaq illik hesabatları Elmi Şurada müzakirə edilir. Beynəlxalq əlaqələr şöbəsinin strukturunda 1 şöbə müdiri, 1 mütəxəssis, 1 operator təmsil olunur.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

ÖH-də beynəlmiləlləşmə proseslərini idarə edən struktur bölməsi, o cümlədən əməkdaşlarının vəzifə təlimatlarına dair məlumat əks olunmuşdur. Siyasətdə göstərilmiş hər bir

istiqamət üzrə struktur Strateji inkişaf üzrə prorektorun və Beynəlxalq əlaqələr şöbəsinin idarəetməsindədir.

Lakin, təşkilati strukturun beynəlmiləlləşmə sahəsindəki təcrübəsinə, o cümlədən kvalifikasiya dərəcəsinə və istiqamətinə dair məlumat əks olunmamışdır.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ATMU-da təhsilalanların kreditlərinin tanınması məsələsinə yanaşma tələbəyönümlüdür. Universitetdə "Beynəlxalq Mübadilə Proqramlarının Təşkili Qaydaları" sənədi təsdiqlənmiş və tələbələr üçün əlçatanlılığı təmin olunmuşdur. Mübadilə proqramı üzrə müsabiqə zamanı təhsilalanların müraciətindən sonra müsahibə əsasında təşkil olunur, 14 meyar üzrə qiymətləndirilmə aparılır. Müsabiqədən uğurla keçən tələbənin 1 semestr üzrə götürəcəyi fənlər və kreditlər tərəfdaş universitetlə müzakirə olunur. Tələbənin götürəcəyi fənlər fakültələrə yönləndirilərək fənnin məzmunu və kredit sayına uyğun hazırlanır. Bununla əlaqədar kreditlərin tanınması mexanizmi sənədi mövcuddur və səmərəliliyin artırılmasında rol oynayır.

Növbəti mərhələdə tələbə, ATMU və tərəfdaş universitet arasında "Learning Agreement" sənədi imzalanır və tələbənin mübadilədə iştirakı ilə bağlı əmr layihəsi hazırlanır. Mübadilədən sonra kreditlərin tanınması üçün transkript müvafiq fakültəyə yönləndirilir və tələbə təhsilinə davam edir. Kreditlərin tanınması mexanizmi beynəlxalq ekspertin müsbət rəyini almışdır.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

AATP proqramı çərçivəsində tələbələrə IMC Krems Tətbiqi Elmlər Universiteti tərəfindən təyin edilmiş əcnəbi professor-müəllim heyəti ATMU-da müxtəlif dərsləri tədris edirlər. Bu istiqamətdə ATMU-ya hər akademik il üzrə 10-dan çox müəllim heyəti səfər edir. Hazırki hesabat dövründə English Assistance proqramı çərçivəsində ABŞ səfirliyinin dəstəyi ilə 1 nəfər müəllim ATMU-da ingilis dili üzrə tədrisin təşkilini təmin edir. "Erasmus+" müqaviləsi çərçivəsində əcnəbi müəllimlərin tədris prosesinə cəlbi həyata keçirilir.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Beynəlmiləşmə siyasətinin idarəedilməsində səmərəliliyinin monitorinqi məqsədi ilə 2022/2023-cü tədris ilinə qədər dövrün sonunda 1 dəfə olmaqla universitet rəhbərliyə və Dövlət Turizm Agentliyinə hesabatlar təqdim olunur. Beynəlmiləlləşmə siyasətinin mövcudluğu 2023-cü il 14 sentyabr tarixindən etibarən təsdiqlənsə də, həmin dövrə qədər Beynəlxalq əlaqələr şöbəsinin fəaliyyəti beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi prinsipləri ilə formalaşmışdır.

Hər tədris ilinin əvvəlində iş planı hazırlanır və ilin sonunda iş planına uyğun olaraq qiymətləndirilir. Plana uyğun olaraq mövcud vəziyyət müzakirə olunur, qeydlər və rəhbərliyin tövsiyələri nəzərə alınmaqla növbəti il üzrə iş planı hazırlanır. Siyasətin həyata keçirilməsində

əhəmiyyətli məsələlərin müzakirəsi ATMU Elmi Şurasında səsləndirilir və müvafiq qərarlar qəbul edilir.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

ATMU-da ikili diplom proqramı üzrə tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində tərəfdaş universitetlərin ixtisas proqramları və təhsil səviyyələri üzrə seçim qaydaları, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” nəzərə alınmaqla tənzimlənir. Tərəfdaş universitetlər ilə proqram uyğunlaşdırılması zamanı ixtisasların dövlət standartı nəzərə alınır və proses bitdikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi məlumatlandırılır. İkili diplom proqramları çərçivəsində ortaq tədris planı hazırlanır və fənlər qarşılıqlı olaraq əvəzlənir. Eyni zamanda hər iki universitetin təlim və tədris prosesinə uyğun olaraq məcburi keçirilməli olan standart fənlərin tədrisi tənzimlənir.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

ATMU-da akademik heyətin mübadiləsi proqramları Türkiyə Respublikasının universitetləri ilə əsasən “Mövlanə proqramı”, Avropa ölkələri ilə həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Erasmus+” proqramı daxildir. Qeyd etmək lazımdır ki, COVID-19 pandemiyası dövründə akademik heyətin mobilliyi üzrə say göstəriciləri aşağı olmuşdur. Bununla belə, universitetdə akademik heyətin mübadiləsinə dair məlumat bazası var və mübadilənin dinamikası izlənilməkdədir. Akademik heyətin mübadiləsində postpandemiya dövründə müsbət təmayüllərin mövcudluğu ekspertlər tərəfindən müsbət qiymətləndirilmişdir.

| Tədris ili | Akademik heyət | İnzibati heyət |
|---|---|---|
| 2018/2019 | 2 | 16 |
| 2019/2020 | 1 | 4 |
| 2020/2021 | - | - |
| 2021/2022 | 3 | 13 |
| 2022/2023 | 2 | 31 |
| 2023/2024 | - | 11 |

**Cədvəl 7.3. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı vəziyyəti**

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

ATMU-da beynəlmiləlləşmə siyasətinin formalaşması və icrası zamanı beynəlmilləşmə fəaliyyəti üzrə iştirakçıların qarşılıqlı anlayışı, səmimilik, etibarlılıq kimi dəyərlərə önəm verilir. Bununla belə mübadilə prosesi zamanı şəffaf və hər kəsə əlçatanlıq prinsipləri əsasında təşkili təmin olunur. Müraciət edən akademik heyət üzvlərinin şəxsi işləri tərəfdaş universitetə göndərilərək seçim prosesi həyata keçirilir. İnzibati heyətin mobillik göstəriciləri fəaliyyət istiqamətinə görə müəyyənləşərək aktiv fəaliyyət və səfər sonrası səfər hesabatı şəklində tənzimlənir.

Həmçinin akademik və inzibati heyətin mobillik proqramlarında iştirakını tənzimləmək və hər kəs üçün əlçatan olmasına görə qaydalar toplusu ATMU-nun akademik və inzibati heyəti üçün əlçatandır.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

Mübadilə proqramlarında iştirakçılığın təmin olunmasının göstəricilərinin təhlili əsasında dinamikası izlənilir. Təlim və tədrisin AKTTS-yə uyğunlaşdırılması müvafiq qanunlar – Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na uyğun şəkildə tənzimlənir və tələbələrin mübadilədən öncə və mübadilədən sonrakı fənn əvəzlənməsi müvafiq fakültə ilə birgə aparılır.




**Şəkil 7.5. Hesabat dövrü ərzində mübadilə proqramlarında iştirakçılıq səviyyəsi**

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

ATMU-nun beynəlxalq reytinqlərdə təmsil olunması istiqamətdə fəaliyyət 2023-cü ildən etibarən başlamış və bu fəaliyyətin davamlılığı və məqsədyönlülüyü baxımından mövcud akademik il üzrə fəaliyyət planları hazırlanmış və təsdiqlənmişdir.

Xüsusən ATMU-nun ilk hədəfi "Quacquarelli Symonds" (QS) qlobal reytinq cədvəlində "Qonaqpərvərlik" meyarı üzrə yer almaqdır. Bununla bağlı QS Məsləhət Qrupu tərəfindən keçirilən tədbirlər və görüşlərdə mütəmadi iştirak edilir.

Digər istiqamət isə Times Higher Education (THE) Impact Reytinqlərində ATMU-nun təmsilolunma fəaliyyətinin tənzimlənməsidir. Eyni zamanda bununla bağlı keçirilən masterklaslarda və görüşlərdə ATMU üzrə koordinator və nümayəndə heyətinin görüşü tənzimlənir. Qeyd etmək lazımdır ki, THE Impakt Reytinqi 2024-cü il üzrə məlumatları sistemə daxil edilmişdir.

Lakin, hazırda universitet beynəlxalq reytinqlərdə təmsil olunmur. Bu fakt beynəlxalq ekspert tərəfindən də təsdiqlənmişdir. Universitetin mərhələli şəkildə regional və beynəlxalq reytinqlərə qatılması üçün strategiyanın hazırlanması tövsiyə olunmuşdur.

## 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

ATMU-da beynəlmiləlləşmə siyasətinin icrasına ayrılan maliyyə resurslarının əsas istiqamətləri qeyd olunmuşdur. Bunlar akademik və inzibati heyətin təcrübə mübadilə məqsədi ilə ezamiyyələr, beynəlxalq konfransların təşkili, o cümlədən konfranslara dəvət olunan nüfuzlu şəxslərin razılaşdırılmış şəkildə maliyyə xərclərinin qarşılanması, beynəlxalq assosiasiya və təşkilatlara üzvlük haqqı ödənişləri, ATMU rəhbərliyi və inzibati heyətinin xarici ölkələrdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirak xərcləri, ATMU-da keçirilən tədbirlər zamanı qonaqların rəsmi ziyafət xərcləri, AATP proqramı üzrə müvafiq maliyyə ödənişləridir. Lakin, hesabat dövrünə ATM-in ümumi büdcəsi artsa da beynəlmiləlləşmə siyasəti üçün ayrılan vəsait azalmış, ümumi büdcəyə görə nisbi payı enmişdir: 2018-ci ildə ümumi büdcənin 10,9%-ni, 2019-da 2,2%-ni, 2020-də 1,6%-ni, 2021-də 3,2%-ni və 2022-ci ildə 1,5%-ni təşkil etmişdir.

Beynəlmiləlləşmə siyasətinin icrasına ayrılan maliyyə resurslarının artırılması beynəlxalq ekspert tərəfindən də tövsiyə olunmuşdur. Qeyd olunmuşdur ki, yeni SİP-də, eləcə də illik fəaliyyət planında və bəzi tərəfdaşlarla razılaşmalarda beynəlmiləlləşmə vurğusu olsa da, ATMU-nun tələbə və akademik heyəti regional və Avropa institutları ilə əlaqələndirmək üçün daha çox resurs ayırmalıdır.

Tələbələri və tədqiqatçıları Avropa universitetləri ilə daha çox əlaqələndirmək üçün resurslar ayrılmalı və əlaqələr genişləndirilməlidir.




**Şəkil 7.6. Hesabat dövründə beynəlmiləlləşmə siyasəti üçün ayrılmış vəsaitin ATMU-nun ümumu büdcəsinə görə dəyişməsi**

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

ÖH-də beynəlmiləlləşmə siyasətinin icrasından məsul olan inzibati qurum barədə, habelə universitetin digər struktur bölmələrindən müvafiq kvalifikasiyalı əməkdaşların cəlb olunması qeyd olunmuşdur.

Lakin, beynəlmiləlləşmə siyasətinin icrası çərçivəsində təşkil olunan müxtəlif tədbirlər, təlimlər və s. ayrılmış təşkilati heyət, o cümlədən siyasətin icrasına cəlb olunmuş akademik heyət barəsində məlumat və statistik təhlil verilməmişdir.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

İnzibati otaqlar kompüter, printer, skaner və digər zəruri avadanlıqlarla, həmçinin internetə çıxışla təmin olunmuşdur. Digər tərəfdən, görüşlərin keçirilməsi məqsədi ilə ATMU-nun iclas otağı mikrofon, ağ lövhə, kompüter və lazımi texniki avadanlıqlarla təmin olunmuşdur. AATP proqramının təşkil olunması ilə bağlı 2 mühazirə (“Gənclik” korpusu, 2-ci mərtəbə, 204 və 208-ci otaqlar) otağı tam şəkildə Beynəlxalq əlaqələr şöbəsində tədrisin davamlı təmin olunması istiqamətində fəaliyyət göstərir və otaqlar tədris prosesinə lazımi təchizatlarla təmin olunmuşdur.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Təhlil əsasında beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi həyata keçirilir. Müvafiq qaydada digər strukturlardan əldə edilən məlumatlar ilə birlikdə hesabat forması tərtib olunur. Hesabat dövründə beynəlmiləlləşmə siyasət sənədi üzrə fəaliyyət planının hazırlanması davam etdirilirdi.

Bundan öncəki hesabatlar zamanı tamamlanmış, icrası natamam olan və ya icra edilməyən fəaliyyətlər müzakirə edildikdən sonra, müvafiq istiqamətlər növbəti tədris ilinin fəaliyyət planında öz əksini tapır. Əhəmiyyət dərəcəsindən asılı olaraq struktur ilə bağlı məsələlər Elmi Şuranın müzakirəsinə çıxarılır yeni qərarlar qəbul edilir və təsdiqlənir.

Bundan əlavə beynəlxalq sertifikatların alınması ilə əlaqədar monitorinq adi keçən sertifikatların alınması zaman təşkilatlar tərəfindən komissiya heyəti tərəfindən monitorinq olunaraq qiymətləndirilmə aparılmışdır. Burada qiymətləndirilmə nəticələrinin müsbət olması sertifikatların alınması və vaxtının uzadılması istiqamətində fəaliyyəti özündə ehtiva edir.

## 7.4 Beynəlmiləlləşmə performansı

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

Beynəlmiləlləşmə prosesinin nəticələri barədə ilkin hesabat əsasında hədəf indikatorlar müəyyən olunmuşdur. Lakin, əvvəlki illərdə prosesə nəzarət edən qurumun olmaması və nəticələrin sistemləşdirilməməsi onların dinamikasının izlənilməsinə imkan vermir. Hazırda ATMU-da sözügedən dinamikaya nəzarət mexanizmi formalaşdırılır.

### 7.4.2 Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

ATMU-da beynəlmiləlləşmə siyasəti çərçivəsində ehtiyacəsaslı fəaliyyətlərin tənzimlənməsi və lazımi dəyişikliklərin edilməsi, eyni zamanda SİP-də qeyd olunan hədəflərə istiqamətlənmiş addımlar mütəmadi olaraq Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təmin edilməkdədir.

Bütövlükdə, ATMU-nun müəyyən edilmiş beynəlmilləşmə siyasəti və prosedurları, eləcə də beynəlmiləlləşmə strukturu və resursları ilə qarşıya qoyduğu məqsədlərə çatmaq iqtidarında olduğu müəyyən edilmişdir. Lakin ATM-in beynəlxalq nüfuzunun artırılması məqsədi ilə daha çox regional və beynəlxalq miqyaslı fəaliyyətlər təşkil olunmalıdır.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATMU-nun 5 illik (2022-2026) dövr üçün strateji inkişaf proqramının (SİP) mövcud olması;<br>2. ATMU-da qısamüddətli dövr (illik) üçün Fəaliyyət Planlarının (FP) mövcud olması;<br>3. SİP-in icrası ilə bağlı işlərin daha sürətləndirilməsi məqsədilə müvafiq prorektorluğun yaradılması;<br>4. Rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi məqsədilə hotel sənayesi tələbatının araşdırılması və məzunlardan olan gözləntilərin müəyyən edilməsi istiqamətində otel sənayesi nümayəndələri arasında fokus qrup görüşlərin təşkil olunması;<br>5. 2023/2024-cü tədris ilindən etibarən hər bir strukturun iş planında məhz strategiyadakı məqsədlərə uyğun məsələlərin ayrılıqda əks olunması;<br>6. SİP hazırlanarkən GZİT təhlilinin aparılması;<br>7. SİP-in icrasının 2023-cü il üçün FP-si üzrə dövrü (yarımillik, illik) hesabatlarının mövcud olması;<br>8. 2023/2024-cü tədris ilindən etibarən SİP-in icrasının dövrü (illik) monitorinq materiallarının struktur bölmələr üzrə mövcud olması. |
| **Zəif tərəflər** | 1. ATMU-da ortamüddətli dövr üçün SİP və FP-nin mövcud olmaması;<br>2. ATMU-nun strateji baxışının (vizyon) beynəlxalq və yerli təcrübəyə uyğun qeyd olunmaması;<br>3. ATMU və otel sənayesi nümayəndələri arasında təşkil olunan fokus qrup görüşlərinin nəticəyönümlü olmaması;<br>4. SİP-in icrası üzrə illik FP hazırlanarkən məqsədlərdəki “strategiyalar” üzrə hədəflərin prioritetliyi ilə bağlı mexanizmin mövcud olmaması;<br>5. ATMU-da müvafiq normativ sənədlərdə GZİT təhlilinin aparılmasının qeyd olunmasına baxmayaraq yalnız 2 fakültə üzrə aparılması;<br>6. SİP-in icrası üzrə ATMU-nun dövri (yarımillik, illik) hesabatlarının Elmi Şurada müzakirə edilməməsi, yalnız dinlənilməsi və növbəti il üçün FP-nin həmin Elmi Şurada təsdiq edilməsi;<br>7. SİP-in icrası üzrə Elmi Şurada hesabatların və monitorinq nəticələrinin müzakirəsi ilə bağlı yalnız daxili maraqlı tərəflərin məlumatlandırılması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Beynəlxalq və yerli təcrübəyə əsaslanaraq, 2022-2026-cı illər üzrə Strategiya sənədinin bazasında yeni 2025-2030-cu illər üzrə SİP-in tərtib olunması;<br>2. Yerli və beynəlxalq ATM-lərin təcrübəsini nəzərə alaraq, sadə, anlaşılan və beş Milli Prioriteti özündə ehtiva edən yeni strateji baxışın formalaşdırılması;<br>3. Fokus qrup görüşlərinin əhatə və təsir dairəsinin genişləndirilməsi üçün həmin görüşlərdə müzakirə olunan ixtisas(lar)ın tədrisi aparıldığı digər ATM-lərin və ixtisasa uyğun daha çox əmək bazarı nümayəndələrinin dəvət edilməsi, görüşlərin nəticələrinə uyğun olaraq Elmi Şurada müzakirələrin aparılması və əsas məqsədə xidmət edən qərarların qəbul edilməsi;<br>4. SİP-də müəyyən edilmiş əsas strateji məqsədlər üzrə ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunduğu Fəaliyyət Planının hazırlanması və müvafiq qaydada təsdiq edilməsi;<br>5. SİP-in icrası üzrə illik FP-də nəzərdə tutulan “nəticə göstəriciləri” üzrə müvafiq baza ilinin və həmin baza ilinə uyğun olaraq dinamikanın “nəticə göstəriciləri”ndə faiz və ya ədəd olaraq qeyd olunması;<br>6. SİP-in maliyyə təminatının FP-dəki tədbirlər üzrə ATMU-nun illik büdcə planlaşmasında nəzərə alınması vəziyyətini əks etdirən ayrıca maliyyə sənədinin hazırlanması;<br>7. ATMU-da 14.09.2023-cü ildə təsdiq edilmiş “Risk və imkanların idarəedilməsinin təşkili proseduru”na uyğun GZİT təhlillərin aparılaraq gələcəkdə yeni strateji sənəd hazırlanarkən həm risklərin idarəedilməsi ilə bağlı məsələlərin, həm də təhlillərin bütövlükdə SİP-də nəzərə alınması;<br>8. Potensial çatışmazlıqların aradan qaldırılması üçün 2023-cü il üçün FP-nin İllik Hesabatında “İcra olunmuş” tədbirlərin “nəticə göstəriciləri”nin, xüsusilə də 17.04.2023-cü ildə təsdiq olunmuş vəzifə təlimatlarının yenidən nəzərdən keçirilməsi, ehtiyac yarandığı təqdirdə müvafiq düzəlişlərin edilməsi və eyni zamanda *“fakültə əməkdaşlarının vəzifə təlimatları”na* yenidən baxılaraq müvafiq dəyişikliklərin edilməsi;<br>9. SİP-in icrası üzrə dövrü (yarımillik, illik) hesabatların və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığının tam təmin olunması məqsədilə hesabatların və monitorinq nəticələrinin müzakirə edildiyi iclaslardan press-reliz şəklində məlumatlandırılmanın[11] həyata keçirilməsi. |

[11] Konfidensiallıq qorunmaqla qısa şəkildə görülmüş işlər və qəbul edilən qərarlar haqqında məlumat verilə bilər

| 2. Keyfiyyət təminatı | |
| --- | --- |
| **Güclü tərəflər** | 1. Rəsmiləşdirilmiş Keyfiyyət təminatı siyasəti sənədinin mövcud olması;<br>2. Keyfiyyət təminatı mədəniyyətinin təkmilləşdirilməsi üçün Keyfiyyət Siyasəti Bəyannaməsi sənədinin mövcud olması;<br>3. 29.12.2017-ci il tarixindən etibarən Keyfiyyət təminatı şöbəsinin fəaliyyətinə əsasən şöbənin əsasnaməsinin, tədris illəri üzrə təsdiqlənmiş iş planlarının və əməkdaşlarının vəzifə təlimatlarının mövcud olması;<br>4. Daxili keyfiyyət təminatı üzrə Komissiyanın, onun təsdiq edilmiş əsasnaməsinin, strukturunun və fəaliyyət planın mövcud olması;<br>5. ATMU-nun daxili keyfiyyət təminatı sistemində mövcud olan keyfiyyət təminatı Komissiyasının özündə bütün maraqlı tərəfləri ehtiva etməsi;<br>6. Keyfiyyət təminatı siyasətini də özündə ehtiva edən *“Azərbaycan Turizm və Menecment Universitetinin fəaliyyətinin tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurlar toplusu”* adlı keyfiyyət təminatı bələdçisinin mövcud olması;<br>7. Keyfiyyət təminatı ilə bağlı ATMU-nun 2022/2023-cü tədris ili üzrə Özünütəhlil Hesabatının mövcud olması. |
| **Zəif tərəflər** | 1. Keyfiyyət təminatı siyasəti sənədinin hazırlanmasında yalnız daxili maraqlı tərəflərin iştirakı;<br>2. Keyfiyyət təminatı Komissiyasının 27.03.2012-ci il tarixindən 23.10.2023-cü il tarixinə kimi yəni, tərkibi yenidən formalaşana qədər yalnız bir tədris ilinə görə iş planı (2012/2013) olmasına baxmayaraq nə həmin ilin hesabatı, nə də digər tədris illəri üzrə iş planlarının və hesabatların mövcud olmaması;<br>3. Keyfiyyət təminatı şöbəsinin məsuliyyət və iş yükünün mövcud resurslara uyğun olmaması;<br>4. Keyfiyyət təminatı şöbəsinin birbaşa strateji inkişaf üzrə prorektora tabe olması;<br>5. 04.11.2023-06.12.2023-cü il tarixlərində təşkil edilmiş tədris prosesinin monitorinqinin bütövlükdə 23 iş günü davam etməsi və 166 nəfər akademik heyətdən cəmi 18 nəfərin yəni təqribi 11% müəllimin dərsi üzrə aparılması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Keyfiyyət təminatı siyasəti sənədinin yenidən təkmilləşdirilməsi zamanı bütün maraqlı tərəflərin iştirakının təmin edilməsi;<br>2. Keyfiyyət təminatı şöbəsinin resurslarının optimallaşdırılması;<br>3. Keyfiyyət Təminatı Komissiyasının 2024/2025-ci tədris ili üzrə fəaliyyət planı təsdiq edilərkən SİP-ə uyğun, icra edilə bilən, sadə və anlaşılan formada yenidən formalaşdırılması;<br>4. ATMU-nun keyfiyyət təminatı siyasətindəki PİNT tsiklinin səmərəli və effektiv işləməsinin təmin edilməsi məqsədilə həmin modelin Keyfiyyət Təminatı Komissiyasının və SİP-in icrası üzrə illik Fəaliyyət Planına, həmçinin KT şöbəsinin və digər struktur bölmələrin illik iş planlarına tətbiq edilməsi üçün icra mexanizminin hazırlanması;<br>5. ATMU-da effektiv keyfiyyət mədəniyyətinin formalaşdırılması və digər struktur bölmələrlə əlaqələrin optimal qurulması üçün Keyfiyyət təminatı şöbəsinin birbaşa rektora tabe struktur bölmə kimi fəaliyyətinin təmin edilməsi;<br>6. “Təlim prosesinin monitorinqinin təşkili” qaydalarının 2.2-ci bəndində qeyd edilən vəzifələrin daha dolğun həyata keçirilməsi məqsədilə yaradılmış “ATMU-da tədris prosesinin monitorinqi komissiyası”nın qaydaların 4.8-ci bəndinə əsasən səlahiyyət müddətinin müəyyənləşdirilməsi və tərkibinin sədr, müavin, katib və inzibati heyətdən də əməkdaşların cəlb edilməsi ilə yenidən təsdiq edilməsi və 4.7-ci bəndinə uyğun yenidən təşkil edilməsi;<br>7. “Təlim prosesinin monitorinqinin təşkili” qaydalarının 2.2-ci bəndinin və daha çox dərsdə iştirakın təmin edilməsi məqsədilə monitorinqin hər tədris ili üzrə 01 oktyabr və 01 mart tarixlərindən gec olmayaraq başlanılması və dərsində iştirakı nəzərdə tutulan professor-müəllim heyətinin sayının artırılması;<br>8. ATMU-da son 7 tədris ili[12] üzrə qış və yay imtahan sessiyasındakı nəticələr arasındakı kəskin fərqin aradan qaldırılması (azaldılması) və təhsilalanların semestrlər üzrə tədris yükünün proporsional bölgüsünün təmin olunması məqsədilə tədris planındakı fənlərin semestrlər üzrə bölgüsünə yenidən baxılması;<br>9. “ATMU-nun 2022-2026-cı illər üçün Strategiyası” adlı sənədin 2024-cü il üzrə Fəaliyyət Planında Məqsəd 4-də 4.2-ci prioritetə (4.2. Tələbə nəticələrinin semestr boyunca monitorinqinin aparılması, nəticələrin |

[12] 2016/2017-2022/2023-cü tədris illəri nəzərdə tutulur

| | |
|---|---|
| | təhlil olunması və zəif nəticə göstərən tələbələrə semestr müddətində müvafiq metodiki dəstəyin göstərilməsi) görə qeyd olunan tədbirlərlə bağlı işlərin sürətləndirilməsi;<br>10. ATMU Elmi Şurasının 14.02.2023-cü il tarixli 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarının 2.2-ci bəndində qeyd edilən vəzifələrin daha dolğun həyata keçirilməsi məqsədilə "ATMU-da tədris prosesinin monitorinqi komissiyası"nın tərkibinin yenidən təsdiq edilməsi və komissiyanın işinin isə qaydalara uyğun yenidən təşkil edilməsi;<br>11. Əvvəlki akkreditasiya üzrə hesabatda qeyd olunan 7-ci iradın aradan qaldırılması və 3.7.9-cu indikatorun tələblərinə cavab vermək məqsədilə əsas iş yeri ATMU olan əməkdaşların sayının 52%-dən 70%-ə yüksəldilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;<br>12. ATMU-nun fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi istiqamətində aparılacaq sorğuların hazırlanmasında "Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi" adlı excel sənədindəki məlumatların (sütun başlıqlarının) nəzərə alınması, sorğuların keçirilmə tezliyinin və sorğuda iştirak edəcək respondent sayının artırılması. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Hesabat dövründə ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə qəbul planının dolma səviyyəsində artımın müşahidə olunması:<br>2. Tədris növünə uyğun dərslərin təşkilində müasir tədris metodları və innovasiyaların tətbiq olunması;<br>3. Yekun Dövlət Attestasiyasına hazırlıq məqsədi ilə son kursda təhsil alan tələbələr üçün yaz semestrində müvafiq fənlər üzrə icmal mühazirələrin təşkil olunması;<br>4. ATM-də təhsil proqramlarının monitorinqinin aparılması məqsədilə daxili və kənar auditdən istifadə olunması;<br>5. Əmək bazarının tələblərinin yaxından öyrənilməsi məqsədi ilə sənaye nümayəndələri ilə fokus qrup görüşlərin təşkil olunması;<br>6. Təhsilalanların fərdi tədris planlarının mövcudluğu və onun tərtibində iştirakı;<br>7. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğularının mövcudluğu;<br>8. Universitetdə tələbə və məzunların təklifləri əsasında yeniliklərin tətbiq olunması; |

| | |
|---|---|
| | 9. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi;<br>10. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığının təmin olunması;<br>11. Təhsilalanlara təqaüd imkanlarının yaradılması;<br>12. Karyera və kommunikasiya mərkəzinin mövcudluğu;<br>13. Tələbə və məzunlara karyera xidmətlərinin göstərilməsi;<br>14. Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Tələbə qəbulu yerləri üzrə sifarişlərin hazırlanmasından məsul olan komissiyanın tərkibində sənaye nümayəndələrinin olmaması;<br>2. Buraxılış işi və magistr dissertasiyalarının mövzularında elmi boşluqların, o cümlədən texniki və tərcümə xətalarının olması;<br>3. Tədrisin elektron idarə edilməsi üzrə cari sistemin işlək mexanizminin olmaması, habelə gündəlik qiymətləndirmədə çətinliklərin mövcudluğu;<br>4. Fənn proqramlarında elmi-metodoloji çatışmazlıqların olması, habelə müxtəlif fənn proqramlarının məzmunca bir-birini təkrarlaması;<br>5. Seçmə fənlərin müəyyən olunmasında tələbələrin iştirakının tam təmin olunmaması;<br>6. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçim sərbəstliyinin tam təmin edilməməsi;<br>7. Seçmə fənlərin ixtisasların təhsil proqramında göstərilən kompetensiyalarla uyğunsuzluğu faktları. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Tələbə qəbulu yerləri üzrə sifarişlərin hazırlanmasından məsul olan komissiyanın tərkibinə daimi sənaye nümayəndələrinin əlavə olunması;<br>2. Akademik heyətə dərs yükü verilərkən onun həmin fənn üzrə baza təhsilinin və ya ixtisas uyğunluğunun gözlənilməsi;<br>3. Xarici dil fənni ilə yanaşı digər seçmə fənn bloklarına daxil olan fənlərin tələbələr tərəfindən seçilməsi imkanının yaradılması;<br>4. Universitetin tədrisin elektron idarəedilməsi sisteminin yeni və daha funksional platformaya keçirilməsi prosesinin sürətləndirilməsi, tələbə və akademik heyətin sistemə əlçatanlığının təmin olunması;<br>5. Tələbə müraciətlərinin qeydə alınması və tələbəyönümlü həlli üzrə hesabatlılığın təmin olunması;<br>6. Karyera planlamasının son kursda deyil, birinci kursdan etibarən mərhələli şəkildə həyata keçirilməsi;<br>7. Karyera planlaması fənninin aşağı kurslarda tədris olunması;<br>8. Fənn proqramlarında mövcud boşluqların aradan qaldırılması və onların dövri yenilənməsi;<br>9. Tədris proqramlarında monitorinqlərin aparılması və təkrarlılığın qarşısının alınması;<br>10. Tədris planlarının və fənn proqramlarının Elmi Şurada təsdiq olunmasını təsdiq edən sənədlərin tamamlanması. |
| **4. Elmi tədqiqat** | |
| **Güclü tərəflər** | 1. Elmi istiqamət üzrə strategiya və siyasətin mövcudluğu;<br>2. Elmi istiqamətlər üzrə strategiya hədəflərin müəyyən edilməsi;<br>3. Beynəlxalq elmi tədqiqat şəbəkəsində iştirak etmiş tədqiqatçıların mövcudluğu;<br>4. Beynəlxalq indeksləşdirilmiş jurnallarda indeksləşdilmiş istinad vermənin mövcudluğu;<br>5. İSO sertifikatının olması;<br>6. Elmi fəaliyyətdə antiplagiat sisteminin tətbiqi. |
| **Zəif tərəflər** | 1. Elmi tədqiqat işlərinin keyfiyyətinin aşağı olması və elmi nəticələrinin uyğunsuzluğu;<br>2. Elmi işlər üzrə çap edilən məqalələrin beynəlxalq indeksli jurnallarda çap səviyyəsinin çox aşağı olması;<br>3. Beynəlxalq və ölkə səviyyəli layihə, qrantlarda iştirakın olmaması;<br>4. Kafedralar üzrə elmi tədqiqat işlərinin zəif təşkili;<br>5. Fənn üzrə proqramların hazırlanmasında daxili auditin zəif təşkili; |

| | |
|---|---|
| | 6. Fənlər üzrə tədris vəsaitlərinin - dərslik və dərs vəsaitlərinin, çapının az olması;<br>7. Magistr rəhbərlərində ixtisas uyğunluğunun bəzi kafedralarda gözlənilməməsi;<br>8. Müəllimlərin elmi işlərə cəlb olunmasında stimullaşdırıcı amillərin zəif olması;<br>9. Universitetin elmi tədqiqat strategiyasına uyğun məqalələrin keyfiyyət səviyyəsinin aşağı olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Elmi-tədqiqat işlərinin müəyyən edilmiş plan üzrə yerinə yetirilməsinin təmin edilməsi;<br>2. Mövzular üzrə aparılan elmi-tədqiqat işlərinin uyğunluğunun təmin edilməsi üzrə monitorinqlərin aparılması;<br>3. "Web of Science" və "Scopus" bazalarında indeksləşən jurnallarda akademik heyət üzvlərinin dərc olunan məqalələrinin sayının artırılması;<br>4. Elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması istiqamətində tədbirlərin görülməsi;<br>5. Elmi-tədqiqat işlərinin keyfiyyətinin artırılması məqsədi ilə nəzərdə tutulan stimullaşdırıcı tədbirlərin görülməsi;<br>6. Elmi tədqiqat strategiyasında nəzərdə tutulan sahə üzrə əsas elmi tədqiqat mərkəzinə çevrilməsi üçün keyfiyyətli tədqiqat işlərinin aparılmasının dəstəklənməsi.<br>7. Müəllimlərin elmi işlərə cəlb olunması ilə bağlı stimullaşdırıcı tədbirlərin görülməsi. |

| **5. İdarəetmə orqanları** | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATMU-nun idarəetmə strukturunun strateji hədəflərə, ümumi idarəetmə prinsiplərinə və təhsil müəssisələrinin idarəetmə strukturunun qurulması prinsiplərinə uyğunluğu;<br>2. ATMU-da Universitet əməkdaşlarının motivasiya proseduru mövcud olması;<br>3. Universitetində səmərəliliyin qiymətləndirilməsi Qaydalarının mövcudluğu;<br>4. İnzibati heyətin işinin səmərəliliyin qiymətləndirilməsi üçün "90 dərəcə" metodundan istifadə edilməsi;<br>5. ATMU-da strukturlararası "Elektron Sənəd Dövriyyəsi" sisteminin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Differensiallaşdırma ilə bağlı qaydalar olmasına baxmayaraq, meyarlar üzrə qiymətləndirilmə prosesinə hələ də başlanılmaması;<br>2. Himayəçilər Şurasının təsis olunmaması;<br>3. Maliyyə resurslarının orta müddətli dövr üçün planlaşdırmasının nəzərdə tutulmaması; |

| | |
|---|---|
| | 4. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılmaması;<br>5. ATMU-da “daxili nəzarət üzrə məsul şəxs” vəzifəsi və audit olsa da, son 5 ildə kənar audit yoxlamasının həyata keçirilməməsi və nəzarət tədbirlərinin aparılmaması;<br>6. Bir çox şöbələrin fəaliyyətində iş yükünün insan resursları ilə düz mütənasib olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. ATMU-nun Elmi Şurasında da işəgötürənlərin və ictimaiyyət nümayəndələrinin üzv kimi təmsilçiliyinin nəzərdə tutulması;<br>2. Himayəçilər Şurasının formalaşdırılmasına yenidən baxılması;<br>3. ATMU-da akademik heyətlə inzibati və tədris-köməkçi heyətin nisbətinin tələb olunan səviyyəyə (3:1) çatdırılması;<br>4. Differensial əmək haqqı sistemi mexanizminin tətbiq edilməsi;<br>5. “90 dərəcə” metodunun həm qiymətləndirmə meyarlarında və işçilər üçün müəyyənləşmiş kriteriyaların təkmilləşdirilməsi;<br>6. ATM-də maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili auditin aparılması;<br>7. Təlim və tədris prosesinin və tam şəkildə bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması;<br>8. Universitet əməkdaşlarının, heyət üzvlərinin və tələbələrin rəqəmsal səriştələrinin inkişaf etdirilməsi, informasiya sistemlərindən istifadə bacarıqlarının artırılması üçün təlimlərin mütəmadi təşkil edilməsi;<br>9. Marketinq strategiyasının tələblərinə uyğun PR fəaliyyətinin yenidən qurulması. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Distant təhsil infrastrukturunun mövcudluğu;<br>2. Nəqliyyat xidmətinin mövcudluğu;<br>3. İstehsalat təcrübəsinin müqavilə əsasında hotellərdə təşkil olunması;<br>5. Elmi tədqiqatların təşkili üçün kənar müəssisələrlə əlaqələrin mövcudluğu;<br>6. Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə ikili diplom proqramı çərçivəsində birgə elmi-tədqiqat bazasından istifadə imkanının olması. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. Tədris infrastrukturunun dövlət standartlarına uyğun olmaması;<br>2. Universitetin balansında təlim və tədris, o cümlədən istehsalat-təcrübə bazasının mövcud olmaması;<br>3. 2-ci tədris korpusunda laboratoriyaların olmaması;<br>4. Sağlamlıq imkanları məhdud olan tələbələr üçün yaradılmış şəraitin normalara uyğun olmaması;<br>5. Yeməkxanaların mövcud olmasına baxmayaraq, standartlara uyğun olmaması (mətbəxdə sanitar normalara və qidaların saxlanılması qaydalarına əməl olunmaması);<br>6. Tibbi xidmətin mövcud olmaması;<br>7. Əməyin təhlükəsizliyi (SƏTƏM) üzrə iş aparılmaması;<br>8. Universitetin balansında elmi-tədqiqat və innovasiya mərkəzinin olmaması;<br>9. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalarının mövcud olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. İnfrastruktur imkanlarının məhdud olmasını nəzərə alaraq, yeni tədris korpusunun yaradılması;<br>2. Təlim və tədris laboratoriyalarında infrastrukturun təkmilləşdirilməsi, hotel idarəetmə və bronlaşdırma proqram təminatlarının tətbiqi;<br>3. Sağlamlıq imkanları məhdud olan şəxslər üçün infrastrukturun təkmilləşdirilməsi (auditoriyalarda xüsusi masa, sanitar qovşaqlarında xüsusi kabinələr, əlil arabası ilə hərəkət üçün maneəsiz keçidlər, görmə məhdudiyyətli təhsilalanlar üçün audio materialların təşkili və s.);<br>4. Yeməkxana, xüsusən mətbəx şəraitinin standartlara uyğunlaşdırılması;<br>5. Qida Təhlükəsizliyi Agentliyi tərəfindən verilmiş sertifikatın yeməkxanada görünən hissədə nümayiş etdirilməsi;<br>6. Universitet daxilində ilkin tibbi yardım xidmətinin təşkil olunması;<br>7. Dezinfeksiya və digər əlaqəli tədbirlərin hər ay aparılması;<br>8. Elmi-tədqiqat və innovasiya mərkəzinin yaradılması. |

| 7. Beynəlmiləlləşmə | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasında Ali təhsilin beynəlmiləlləşməsinin yer alması;<br>2. ATM-in beynəlmiləlləşmə siyasətini idarəedən şöbənin mövcudluğu;<br>3. Beynəlxalq qrant layihələrində iştirak (Erasmus+, DAAD və s.);<br>4. Avstriya-Azərbaycan Beynəlxalq Turizm Təhsil Proqramı "AATP COHORT 2024" üzrə ikili diplomun mövcudluğu;<br>5. Yeni ikili diplom proqramlarının icrasının başlanması;<br>6. Müəyyən ixtisaslarda tədrisin tam olaraq xarici dildə (ingilis dilində) təşkil edilməsi;<br>7. Akademik və inzibati heyətin mübadilə proqramlarına cəlb olunması. |
| **Zəif tərəflər** | 1. Ali təhsil sferasında mövcud ikili diplom proqram imkanları ilə nisbətdə ATM-də reallaşdırılan ikili diplom proqramlarının payının az olması;<br>2. Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsinin zəif olması;<br>3. Beynəlmiləlləşmə proqramında iştirak edən təhsilalan və təhsilverənlərin ümumi sayda payının az olması;<br>4. Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasında təşviqin olmaması;<br>5. ATM-in akademik və inzibati heyətinin xarici dil biliyinin zəif olması;<br>6. ATM-in müvafiq informasiya resurslarının müxtəlif dillərdə əlçatanlılığının tamamilə təmin edilməməsi;<br>7. Strateji Planda "Beynəlmiləlləşmə" istiqaməti üzrə bəzi hədəf indikatorlarının ölçüləbilən olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-ə daha çox əcnəbi tələbə cəlb etmək məqsədi ilə Universitetin rəsmi veb saytının xarici dil üzrə təkmilləşdirilməsi;<br>2. ATMU-da beynəlmiləlləşmə sahəsində müxtəlif müddətli (qısa, orta və uzun) hədəflərin müəyyən olunduğu müvafiq SİP-in hazırlanması;<br>3. Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi üzv olan dövlətlərin nüfuzlu universitetləri ilə əməkdaşlığın yaradılması;<br>4. Əcnəbi tələbələrə dəstəyin vacib olduğunu nəzərə alaraq, ATMU-da xarici dil biliklərinin və xidmət potensialının inkişaf etdirilməsi; |

| | |
|---|---|
| | 5. Əcnəbi tələbələrin ATMU-ya marağını artırmaq məqsədi ilə tələbəyönümlü müxtəlif təhsil proqramları hazırlanması;<br>6. Beynəlxalq reytinqdə təmsil olunma ilə bağlı planlı işlərin görülməsi. |

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri**

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr (Strateji inkişaf istiqaməti üzrə 9; Keyfiyyət təminatı istiqaməti üzrə 12; Təlim və tədris istiqaməti üzrə 10; Elmi tədqiqat istiqaməti üzrə 7; İdarəetmə istiqaməti üzrə 9; İnfrastruktur istiqaməti üzrə 8; Beynəlmiləlləşmə istiqaməti üzrə 6 tövsiyə olmaqla, ümumilikdə 61 tövsiyə) təqdim edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin ATMU tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi**

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, ATMU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə "əsasən uyğundur" hesab edilməsi;
- ATMU-nun 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir. Akkreditasiyanın yekun hesabatının 2023/2024-cü tədris ilinin sonunda təqdim edilməsi, bununla bağlı yekun təsdiqedici sənədin (lisenziya kimi) hələ ki təqdim edilməməsini nəzərə alaraq 2024/2025-ci t**ədris ilindən etibarən sayılması məqsədəuyğun olar**.